# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 230 (8546) CÜMƏ AXŞAMI, 5 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

# İLHAM ƏLİYEVİN TARİX VƏ JURNALİSTİKA DƏRSLƏRİ



## Müharibə dövrü beynəlxalq media da savaş meydanına çevrilib

Otuz ildən çoxdur ki, Qarabağ uğrunda çarpışma gedir!

Verdiyimiz qurbanlara, çəkdiyimiz əziyyətə baxmayaraq birinci Qarabağ müharibəsini uduzduq!

Ermənistan havadarlarının köməyi ilə ərazimizin 20 faizini işğal etdi, iyirmi min şəhid verərək bir milyondan çox qaçqın yiyəsi olduq!

Sonra 27 il ATƏT-in Minsk qrupuna inanaraq gözlədik ki, torpaqlarımızı sülh yolu ilə bizə qaytaracaq.

*Bu müddətdə nə ATƏT-in gördüyü işin səmərəsi və nəticəsi oldu, nə də erməninin şıltaqlığının sonu.*

*Bizi güzəştə, mövcud reallıqla barışmağa çağırışlar isə daim səsləndi.*

*Nə erməniyə təzyiq göstərildi, nə sanksiya tətbiq olundu.*

*Nəhayət, ikinci Qarabağ müharibəsi başlandı!*

**Beləliklə, tarix və tale torpaqların işğaldan azad edilməsi missiyasını cənab İlham Əliyevin üzərinə qoydu!**

**Hərbi əməliyyatlar başlayan ilk dəqiqələrdən etibarən İlham Əliyev üç mühüm istiqamətdə: Ali Baş Komandan kimi cəbhədə, dövlət başçısı kimi isə diplomatiya və informasiya sahəsində gərgin və məhsuldar fəaliyyətə başladı.**

*Onu da deyək ki, diplomatiya və beynəlxalq KİV-də Prezidentimiz təkbaşına mübarizə aparırdı.*

Qeyd edək ki, düşmən Ermənistan birinci Qarabağ müharibəsində öncə informasiya savaşını udmuşdu.

Beləliklə, separatçılıq və işğalçılıq siyasətinə uzun müddət "məzlum xalqın əzilməsi", "millətlərin öz müqəddəratını təyin etməsi hüququnu gerçəkləşdirməsi" donunu geyindirə bilmişdi.

Daha bir vacib məqam.

*Ötən əsrin 90-cı illərində müttəfiq respublikaların müstəqil şəkildə xaricə çıxışı, habelə beynəlxalq səviyyəli mətbu orqanları və informasiya agentlikləri yox idi. Sovetlər İttifaqı məkanına da, dünyaya da yalnız SSRİ-yə məxsus mərkəzi qəzetlər, informasiya agentlikləri və televiziya kanalları vasitəsilə informasiya yaymaq mümkün idi.*

Mərkəz qəzet-jurnal, informasiya agentlikləri və televiziya kanallarında erməni millətindən olanların mövcudluğu, Rusiyada ermənilərə bəslənən rəğbət, habelə dünya erməni diasporunun imkanları haqlı Azərbaycanı dünyada haqsız, ədalətsiz, separatçı və işğalçı Ermənistanı isə "zavallı", "vəhşi müsəlmanlar tərəfindən əzilən və hüququ tapdalanan millət" kimi təqdim etməyə imkan yaratmışdı.

*Torpaqların işğaldan azad olunması və məkrli düşmənə qarşı mübarizəyə artıq dünyada yaradılmış stereotiplərin dağıdılmasından, informasiya blokadasının yarılmasından başladı!*

**Bu sahədə ən effektli işi Ulu Öndər Heydər Əliyev gördü, böyük jurnalistlər ordusunun yerinə yetirə bilməyəcəyi missiyanı təkbaşına həyata keçirdi!**

**Ulu Öndərimiz bəzən xarici səfərləri zamanı əlində çubuq xəritə önündə dayanaraq Qarabağın yerləşdiyi ərazini, işğalçı ilə "məzlum millət"in əməlinin fərqini əyani şəkildə, faktlarla izah etməli oldu.**

### TƏKZİBÇİ TƏRƏFDƏN HÜCUMÇU MÖVQEYƏ

**İkinci Qarabağ müharibəsində isə eyni missiyanı, beynəlxalq KİV-də dünya erməniliyi ilə mübarizəni İlham Əliyev yerinə yetirməli oldu.**

*Əslində, dünya erməniliyi - ermənilərin dostları və ikili standartlar səbəbindən bizə düşmən münasibəti bəsləyənlər sülh danışıqlarının qırılaraq hərbi əməliyyatların başlayacağını, yeni müharibədə Azərbaycanın yeni taktika, yeni silahlarla yeni nümunə ortaya qoyacağını, öz gücü və imkanları hesabına torpaqlarını bu qədər sürətlə və Ermənistanın ordusuna sarsıdıcı zərbələr vurmaqla, onu tarı-mar etməklə nail olacağını güman etmirdilər.*

*Ardı 5-ci səh.*

## "Biz onlara kimin kim olduğunu sübut etdik"

### Prezident İlham Əliyev İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 2-də İtaliyanın "La Repubblica" qəzetinə müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**



**- Cənab Prezident, Siz artıq qələbəni dadmısınız?**

- Bizim vəzifəmiz Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək idi və biz bu vəzifəyə yaxınlaşırıq. Biz ərazi bütövlüyünün bərpasını demək olar ki, 30 il idi gözləyirdik. Bildiyiniz kimi, bütün bu müddət ərzində Azərbaycan danışıqlar prosesinə ciddi şəkildə sadiq olub. Lakin əfsuslar olsun ki, bu, hər hansı əhəmiyyətli nəticə vermədi.

*Ardı 2-ci səh.*

## Prezident İlham ƏLİYEV: "Azərbaycan Ordusu Cəbrayıl, Zəngilan və Qubadlı rayonlarının daha 7 kəndini işğaldan azad edib"

**"Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir".**

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün "Twitter" hesabında bildirib.



İlham Əliyev
@azpresident

Müzəffər Azərbaycan Ordusu Cəbrayıl rayonunun Mirək, Kavdar, Zəngilan rayonunun Məşədiismayıllı, Şəfibəyli, Qubadlı rayonunun Başarat, Qarakişilər, Qaracallı kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Перевести твит

## İlham Əliyevin tam qələbəni bəyan edəcəyi günə az qaldı

Azərbaycan Ordusunun Ermənistanın növbəti təxribatından sonra başlatdığı əks-hücum əməliyyatları uğurla davam edir. Öz tarixi və müqəddəs missiyasını şərəflə yerinə yetirən ordumuz cəbhənin bütün istiqamətlərində işğalçıya sarsıdıcı zərbələr endirməkdədir. Artıq düşmənin başı əzilib, potensialı tükənib və yaxın günlərdə Azərbaycan Qarabağda tam qələbəsini elan edəcək.

### 200-dən çox yaşayış məntəqəsi azad edilib

Sentyabrın 27-dən başlanan hərbi əməliyyatlardan sonra Füzuli, Cəbrayıl, Zəngilan və Qubadlı rayonları işğaldan azad edilib. Ümumilikdə Tərtər və Xocavənd də daxil olmaqla, 6 rayon üzrə 200-dən çox yaşayış məntəqəsindən işğalçı qovulub və bu proses davam edir.

Azərbaycanın öz ərazi bütövlüyünü təmin etmək üçün nə vaxtsa gücdən istifadə edəcəyi məlum idi. Rəsmi Bakı bunu heç vaxt gizlətməyib və daim bəyan edib ki, istənilən yolla öz torpaqlarını işğaldan azad edəcək. Respublikamızı hərbi gücdən istifadəyə vadar edən isə elə Ermənistanın özü, o cümlədən ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan sülh danışıqlarının əslində işğalçının maraqlarına xidmət etməsi oldu. Dünyada, xüsusən də son onilliklərdə işğalın beynəlxalq ictimaiyyətin dəstəyi ilə ən qısa müddətdə aradan qaldırılmasına dair presedentlər var. Prezident İlham Əliyev bir neçə gün bundan əvvəl Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində vaxtilə İraq tərəfindən işğal edilmiş Küveytin azad edilməsini buna misal göstərdi.

*Ardı 2-ci səh.*

## Gigiyenaya ciddi riayət etmək və məsuliyyətli olmaq lazımdır

**Koronavirus dünyanın hər yerində həyatı alt-üst etməyə davam edir. Görünən odur ki, aparılan mübarizə tədbirlərinə baxmayaraq, infeksiya sürətlə yayılır, hər ötən gün virusa yoluxma sayında yeni rekord müəyyən edilir.**

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesabatında da bildirilib ki, dünyada son bir həftə ərzində koronavirusa yoluxma sayında rekord yenilənib - 3.3 milyon artım olub. Noyabrın 1-nə olan məlumata görə, dünyada, təxminən 46 milyon yeni virusa yoluxma qeydə alınıb. Ölüm sayı 1,2 milyona çatıb. Sonra 24 saat ərzində 535 928 nəfərdə yoluxma aşkarlanıb. Ən çox yoluxma halı yenə də Avropada olub - 1,7 milyon nəfər.




ÜST-ün Rusiyadakı nümayəndəsi Melita Vujnoviç bildirib ki, yaxın bir neçə ayda koronavirus infeksiyası ilə bağlı vəziyyət çox çətin olacaq.

*Ardı 10-cu səh.*

## Qarabağı yenidən cənnətə çevirəcəyik

### Bunun üçün dövlətimizin həm maddi imkanı, həm də yenilməz əzmi var

**Azərbaycan Ordusu 30 il işğal altında qalmış ərazilərimizin xeyli hissəsini düşmən tapdağından azad edib. Döyüşlər davam edir. Dağ relyefində müharibə aparmaq nə qədər çətin olsa da, Ordumuz bu işin öhdəsindən şərəflə gəlir. Demək olar ki, hər gün yaşayış məntəqələrimiz və strateji mövqelər düşməndən azad edilir.**

Dünya Azərbaycan Ordusunun apardığı döyüş əməliyyatlarına heyrətlənməklə yanaşı, erməni vahşiliyinin də şahidi olur. Ermənilər özlərini sivil xalq, xristian və Qərb dəyərlərinə məxsus olduqlarını iddia etsələr də, hərəkətlərində bu görünmür. Onlar işğal etdikləri ərazidə daşı-daşı üstünə qoymayıblar.Yalnız talançılıqla məşğul olublar, apara bilmədiklərini isə məhv ediblər. Təkcə təbii sərvətləri vəhşicəsinə istismar etməklə kifayətlənməyiblər, işğal etdikləri ərazilərdə bütün infrastrukturu, həmçinin xalqımıza aid olan mədəni, tarixi və dini abidələri barbarcasına dağıdıblar.

*Ardı 3-cü səh.*

## Erməni məmurlar fərarilik edirlər

**Ağır sosial-iqtisadi böhran dövrünü keçirən Ermənistanda siyasi vəziyyət də olduqca gərgindir. Hakimiyyətə qarşı etirazlar gündən-günə artır.**

Etiraza çıxanlar Qarabağdakı məğlubiyyət fonunda ölkənin sürətlə uçuruma yuvarlandığını bildirir və bu səbəbdən Paşinyan hakimiyyətinin sonunun çatdığını bəyan edirlər. Ermənistan ordusunda isə fərarilik və xaos hökm sürür. Fərarilik edənlər arasında erməni əsgər və hərbçilərlə yanaşı, separatçı rejimin "məmurları" da var. Bu cür halların getdikcə çoxalması ermənilər arasında mənəvi durumun kifayət qədər acınacaqlı olduğunu göstərir.

*Ardı 10-cu səh.*

**Düşmənin 3 "Su-25" tipli hücum təyyarəsi məhv edilib, 315 tankı - 262-si məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 341 ədəd müxtəlif çaplı toplar - 264-ü məhv edilib, 4 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 102 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 43 "Osa", 1 ədəd "Zastava M-55" tipli zenit qurğusu, 3 ədəd PDM, 2 ədəd "Smerç", 6 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd "Elbrus"; yeni istismara verilmiş raket-artilleriya silahları anbarı, 1 ədəd "Toçka-U", P-18 radiolokasiya stansiyası məhv edilib; 1 ədəd UAZ markalı avtomobili, 441 yük avtomobili - 248-i, onlardan 25-ü sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

## İlham Əliyev beynəlxalq informasiya məkanında erməni faşizmini ifşa edir

# “Biz onlara kimin kim olduğunu sübut etdik”

## Prezident İlham Əliyev İtaliyanın “La Repubblica” qəzetinə müsahibə verib

*Əvvəli 1-ci səh.*



Bundan əlavə, son bir neçə ildə Ermənistan rəhbərliyi öz bəyanatları və əməlləri, o cümlədən hərbi təxribatları ilə bizi hər zaman təhrik edirdi. Sonuncusu sentyabrın 27-də baş verdi. Biz cavab verməli olduq və bizim cavabımız Ermənistan üçün çox həssas idi. Biz qələbədən danışarkən qarşımıza belə bir hədəf qoymamışdıq. Biz onu danışıqlar masasında həll etmək istəyirdik. Lakin biz bunu döyüş meydanında etməyə hər zaman hazır idik və bunu da edirik.

**- Putin müdaxilə etmək istəmir. Beləliklə, Siz maneəsiz hərəkət edə bilərsiniz?**

- Əslində, mən dəfələrlə vəziyyəti şərh etmişəm ki, eyni zamanda, BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olan Minsk qrupunun həmsədrləri - üç ölkə 1993-cü ildə Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələr qəbul ediblər. Ona görə də, bu ölkələr özləri həll üçün qanuni baza yaradıblar. Lakin Ermənistan bu qətnamələri yerinə yetirmədi. Mənim istinad etdiyim başqa bir məqam ondan ibarətdir ki, vasitəçilər vəziyyətlə bağlı necə fikirdə olmaqlarından, bizimlə və ya Ermənistanla əlaqələrinin nə dərəcədə yaxın olmağından asılı olmayaraq neytral olmalıdırlar.

Lakin onlar neytral olmasalar, vasitəçi ola bilməzlər. Ona görə də, bizim yerində bu və ya digər dərəcədə gördüyümüz neytrallıq, düşünürəm ki, işlərin necə getməsinin yeganə yoludur. Odur ki, bu, bizim üçün yaşıl işıq deyildi. Biz sentyabrın 27-də Ermənistanın hücumunadək nə edəcəyi barədə 100 faiz təsəvvürümüz olmadan cavab verdik, biz ölkəmizi qorumaq, insanlarımızı qorumaq və ədaləti bərpa etmək üçün doğru olduğunu düşündüyümüzü etdik.

**- Rəsmi Ankaranın dəstəyi Sizin fəaliyyətiniz üçün nə dərəcədə səmərəlidir?**

- Çox səmərəlidir. Bu dəstək lap əvvəldən, sentyabrın 27-də başlayan toqquşmaların ilk saatlarından gəldi. Türkiyə Prezidenti çox aydın bəyanatla çıxış etdi ki, Türkiyə Azərbaycanın yanındadır və bu, siyasi və mənəvi dəstəyin çox mühüm göstəricisi idi. Mən dəfələrlə o fakta diqqət çəkmişəm ki, bu, yalnız siyasi və mənəvi dəstəkdir, lakin bu, kifayət idi. Çünki Türkiyə kimi güclü ölkə bu məsələ ilə bağlı mövqeyini açıq şəkildə bəyan edəndə, həm də bütün dünyaya mesaj göndərir ki, Azərbaycan doğru işi görür. Azərbaycan öz ərazi bütövlüyünü bərpa edir, Azərbaycan öz ərazisində döyüşür, biz təcavüzkar deyilik, biz başqa ölkələrə hücum etmirik. Ona görə də, toqquşmaların ilk saatlarında başlayan və indiyədək davam edən bu siyasi dəstək münaqişənin həlli üçün mühüm əhəmiyyət kəsb edir.

**- Sizin ordunuzla birlikdə Ermənistana qarşı döyüşən mücahidlərin mövcudluğu barədə Prezident Makron, Rusiyanın Xarici İşlər nazirinin söylədikləri barədə nə deyə bilərsiniz? Bu, doğrudur?**

- Bu müddət ərzində, bir aydan çox vaxtda mən artıq dəfələrlə bu məsələyə diqqət çəkmişəm və demişəm ki, bu, doğru deyil. Bu, doğru məlumat deyil. Mən bilmirəm bu məlumat niyə yayılmışdı və hələ də yayılır. Birincisi, bizə bununla bağlı heç bir dəlil, heç bir sübut təqdim olunmayıb. Hamısı sözlər idi və bu sözlər münaqişənin ilk günlərində söylənmişdi. Siz Prezident Makronun bununla bağlı bəyanatına istinad etdiniz. Bu, yalnız münaqişənin ilk günlərində idi. O vaxtdan bu yana biz bu cür bəyanatlar eşitməmişik. Bu, birincisi. Heç bir sübut, heç bir dəlil. İkincisi, ehtiyac yoxdur. Mən dəfələrlə demişəm ki, bizim 100 min döyüşçüsü olan ordumuz var, nizami ordu. Tam səfərbərlik elan etsək, bundan bir neçə dəfə çox adam səfərbər edə bilərik. Bizim müasir silahlarımız var. Mükəmməl texnologiyamız var və bizim çox yüksək döyüş ruhumuz var. Ona görə də, buna ehtiyac yoxdur. Lakin əfsuslar olsun ki, digər tərəfdə baş verənlərə məhəl qoyulmur. Bizdə əcnəbilərin Ermənistan tərəfindən döyüşdüyünə dair kifayət qədər dəlillər var. Onlar erməni əsilli olduqlarını deyirlər, lakin birincisi, bunun heç bir fərqi yoxdur. Çünki əgər əcnəbi vətəndaş bir ölkə tərəfindən digər ölkəyə qarşı döyüşürsə, o, muzdludur. Bundan əlavə, onların hamısının erməni olmasına dair bizdə 100 faiz dəlil yoxdur. Biz başqalarının olduğunu bilirik. Bilirik ki, PKK oradadır. Bilirik ki, Yaxın Şərqdən bəzi terrorçular qondarma “Dağlıq Qarabağ ordusu”na qoşulublar. Ona görə də, əfsuslar olsun ki, bu məsələ qətiyyən müzakirə mövzusu deyil. Bu, Azərbaycana qarşı qəsdən törədilmiş hücum barədə siyasi hücum təəssüratı yaradır. Bundan əlavə, ermənilərin bu yalan bəyanatdan sui-istifadə etmələrinin səbəbi odur ki, bizim onları döyüş meydanında məğlub etdiyimizi qəbul etmək onlar üçün yəqin ki, çox ağrılıdır. Onlar 30 il ərzində özlərini elə göstərirdilər ki, məğlubedilməz orduları var. Onlar 30 il ərzində bizim əraziləri təkbaşına işğal etdiklərini deyirdilər, baxmayaraq ki, biz bunun doğru olmadığını bilirik. Beləliklə, biz onlara kimin kim olduğunu sübut etdik. Biz sübut etdik ki, onların “guya məğlubedilməz ordusu” əfsanədir, mifdir və bunu qəbul etmək onlar üçün çox ağrılıdır. Lakin onlar artıq öz məğlubiyyətlərini etiraf ediblər. Baş nazir Paşinyan Prezident Putinə məktub göndərərək hərbi yardım xahiş edib. Bu, onların hərbi məğlubiyyətlərini və bizim qələbəmizi qəbul etmələri deməkdir.

**- 98 faiz ermənilərin məskunlaşdığı ərazidə mümkün qələbəni qazanmağın Sizin üçün hansı çətinliyi olacaq?**

- Bu ərazidə bəlkə də indi daha çox erməni məskunlaşıb, çünki bütün azərbaycanlılar didərgin salınıblar. Onlar azərbaycanlılara qarşı etnik təmizləmə həyata keçirdilər. Bu, statistikadır, bizim deyil, sovet dövrünün statistikasıdır. 1970-ci illərin sonunda Dağlıq Qarabağ muxtar vilayətində müxtəlif millətlərdən olan neçə nəfər yaşayırdı? Əhalinin demək olar ki, 25 faizi azərbaycanlılar idi, 40 min nəfər. Şuşada 98 faiz azərbaycanlılar məskunlaşmışdılar. Bu gün orada bir nəfər azərbaycanlı belə yoxdur. Xankəndidə çox sayda azərbaycanlı var idi. Hadrut rayonunda, digər rayonlarda, soyqırımı törətdikləri Xocalıda 100 faiz azərbaycanlılar idi. Beləliklə, onların hamısı etnik təmizləməyə məruz qalıb, qətlə yetirilib, işgəncəyə məruz qalıb və didərgin salınıblar. Təəssüflər olsun ki, heç kim Ermənistanı bunda günahlandırmayıb. Biz Ermənistana qarşı hər hansı sanksiyaları görmədik, bizə hər hansı ciddi informasiya dəstəyi görmədik. Beləliklə, bu, edildi və onlar yerində reallıq yaratdılar. Bu, birincisi. İkincisi, 200 il bundan əvvəl orada, ümumiyyətlə, erməni yox idi. Çünki mən Qarabağ xanının Rus imperiyası ilə imzaladığı müqavilələrə dəfələrlə istinad etmişəm. Həmin müqavilədə - 1805-ci il Kürəkçay müqaviləsində etnik ermənilər barədə heç nə deyilmir. Etnik ermənilər bu regiona onun dini və etnik tərkibini dəyişdirmək məqsədilə Şərqi Anadoludan və İrandan çar Rusiyası tərəfindən gətirilmişdilər. Beləliklə, bu, tarixi hissəsidir. İndi sizin sualınıza gələk. Mən dəfələrlə demişəm ki, Dağlıq Qarabağda yaşayanların hamısı orada sülh və ləyaqət içində yaşamağa davam edəcəklər. Ermənilər bizim vətəndaşlarımızdır. Azərbaycanın müxtəlif yerlərində, əsasən, Bakıda minlərlə erməni yaşayır. Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin ediləcək, onların maddi vəziyyəti daha yaxşı olacaq və onlar bu gün Dağlıq Qarabağdakı xunta rejiminin basqısı altında olduğundan daha yaxşı həyat sürəcəklər.

**- Üç atəşkəs artıq pozulub. Sülh danışıqlarının heç bir nəticə vermədiyi görünür. Buna görə kim günahkardır?**

- Ermənistan. Xronologiyaya nəzər salın. Birinci atəşkəs Moskvada razılaşdırılmışdı, 24 saatdan da az vaxt ərzində onlar Ermənistan ərazisindən ballistik raketlə Gəncəyə hücum etdilər. Bu, sübut olunub. Rusiya, Fransa, Amerika Birləşmiş Ştatları və bir çox başqa ölkələr ballistik raketin haradan buraxılmasını aşkar edə bilərlər. Odur ki, onlar raketin Ermənistandan buraxıldığını bilirlər. Paşinyan bunu onlar etməyiblər dedikdə yalan danışırdı. Bu, 24 saatdan az müddətdə baş vermişdir və onlar gecə çox namərdcəsinə hücum etdilər, onlar bilərəkdən yaşayış yerinə hücum etdilər və bu iki hücum nəticəsində demək olar ki, 30 günahsız insan, o cümlədən uşaqlar öldürülmüşdür. İkinci atəşkəs elan olunduqdan beş dəqiqədən sonra onlar tərəfindən pozulmuşdur və üçüncü atəşkəsi onlar Bərdəyə hücum etməklə pozdular. Beləliklə bunu edən biz deyildik. Biz nə etməli idik? Onlar bizi öldürdükdə oturub gözləməli idik? Əlbəttə ki, biz cavab verdik və bunu etməyə davam edəcəyik. Onlara atəşkəs təcavüzlərini davam etdirmək, bizim azad etdiyimiz torpaqları geri alıb və yenidən işğal etməyə cəhd etmək üçün lazım idi. Onlar mülki şəxslərə hücum etməklə Azərbaycanda, həmçinin xaos və panika yaratmaq istəyirdilər. Lakin onlar Azərbaycan xalqının ruhunu düzgün hesablaya bilməmişdilər. Bəli, biz bu namərd hücumlardan əziyyət çəkdik. Bu vaxtadək 91 nəfər mülki şəxs öldürülüb və 400-dən çox adam yaralanıb. Lakin bu, bizim iradəmizi sındırmadı. Əksinə, bu, bizi daha da güclü etdi.

**- Üç həftə bundan qabaq görüşdüyüm baş nazir Paşinyana cavabınız nə olar? O dedi ki, Dağlıq Qarabağda yeni soyqırımının olmasından qorxur.**

- Tamamilə yalandır. Onların bütün tarixi yalandır. Bunun heç bir əlaməti yoxdur. Mən dedim ki, Azərbaycanda minlərlə erməni yaşayır. Ermənistanda və ya Dağlıq Qarabağda yaşayan heç bir azərbaycanlı yoxdur. Ermənistan əhalisinin 99 faizi etnik ermənilərdir. Regionumuzda bir millətin belə üstünlük təşkil etdiyi başqa bir ölkə tapa bilərsinizmi? Bu, monorespublikadır. Nəyə görə? Çünki onlar ya hər kəsi qovublar, ya da başqa millətlər orada yaşaya bilmir. Azərbaycan multietnik, çoxkonfessiyalı ölkədir. Buna görə dırnaqarası soyqırımı haqqında danışmaq tamamilə qəbuledilməzdir və bu, onların təqdim etmək istədiyi daha bir feykdir, necə ki, onlar bunu həmişə edirlər. Onlar həmişə özlərini əziyyət çəkən, həmişə ağlayan, həmişə köməyə ehtiyacı olan insanlar kimi təqdim etmək istəyirlər. Lakin, baxın, bu gün nələr baş verir. O, Prezident Putinə gündə beş dəfə zəng edir, o, Prezident Makrona ola bilsin bir qədər az zəng edir, amma yenə də zəng edir, o, hər kəsə zəng edir. O, Avropa liderlərinə zəng edir. O, Dağlıq Qarabağın tanınmasını xahiş edir, lakin başa düşmür ki, Azərbaycanın ərazi bütövlüyü ilə bağlı Avropa İttifaqının vahid mövqeyi var. Ona görə müəyyən dəstəyi əldə etmək üçün o, hər bir feyk üsuldan istifadə etməyə çalışır. Odur ki, dediyim kimi bu, tamamilə yalandır. Mən dediyim sözlərə cavabdehəm, Dağlıq Qarabağda yaşayan ermənilər əmin ola bilərlər ki, onların təhlükəsizliyi təmin olunacaq.

**- İtaliya ilə Sizin xüsusi tərəfdaşlığınız var. Siz bizim birinci neft və qaz təchizatçımızsınız. Müharibə daha çox qanın tökülməsinə səbəb olarsa, bunun tərəfdaşlığa təsir etməyindən qorxmursunuz?**

- Mən belə hesab etmirəm. Birincisi, mən düşünürəm ki, müharibə nə qədər tez qurtarsa, bir o qədər də yaxşı olar. Biz belə bir təklif irəli sürdük və bizim təklifimiz çox konstruktiv idi. Bu bir aydan çox müddətdə mən dəfələrlə demişəm və bir daha təkrar edə bilərəm ki, Ermənistanın baş naziri yerdə qalan ərazilərin boşaldılacağına dair üzərinə öhdəlik götürsə, biz bu gün dayanmağa hazırıq. Hələ ki, o, üzərinə belə bir öhdəlik götürməyib. Kompromislər haqqında ona sual verildikdə o, həmişə öz müqəddəratını təyinetmədən danışır. Lakin öz müqəddəratını təyinetmə onların getməli olduğu kompromis deyil. Onların kompromisi BMT Təhlükəsizlik Şurasının qətnamələrinin və əsas prinsiplərin icrasına müvafiq olaraq işğal olunmuş bütün ərazilərin boşaldılması olmalıdır. Əsas prinsiplərdə deyilir ki, əvvəlcə beş rayon, sonra da iki rayon boşaldılmalıdır. Biz artıq dörd rayonu birtərəfli qaydada azad etmişik. Buna görə də o, deməlidir ki, qoşunlarını Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal altında qalmış ərazilərindən geri çəkəcəkdir. Lakin o, bəyanat vermir. Bu, onu göstərir ki, o, müharibənin dayanmasını istəmir. Biz hazırıq, bu, birincisi. Mən bunun bizim tərəfdaşlarla hər hansı mürəkkəblik yaradacağını düşünmürəm. İtaliya ilə bizim xüsusi münasibətlərimiz var. Biz Strateji Tərəfdaşlıq Sənədi adlanan sənədi imzalamışıq. Mən pandemiyadan əvvəl İtaliyaya rəsmi səfər etmişdim, o, çox uğurlu olmuşdur və biz böyük planlarla geriyə, evə döndük. Mən əminəm ki, biz bu planları icra edəcəyik, baxmayaraq ki, pandemiya onlara bir az müdaxilə etdi. Lakin bu planlar əsasən enerji sektoru ilə əlaqəli deyildi. Düşünürəm ki, biz enerji istiqamətində bütün planlaşdırdıqlarımızı icra etdik. Hesab edirəm ki, bu gün İtaliya neft təchizatına görə bizim üçün əsas ticarət tərəfdaşıdır və tezliklə biz TAP-ın açılışını qeyd edəcəyik və bununla da “Cənub qaz dəhlizi” tamamlanmış olacaqdır. Üstəgəl, bir çox italyan şirkəti uzun illərdir ki, Azərbaycanda uğurla fəaliyyət göstərir. Biz podratçı qismində daha çox italyan şirkətlərini dəvət etməyi planlaşdırırıq. Yeri gəlmişkən, burada onlar neft-kimya məhsulları üzrə bir çox önəmli layihələri tamamlamışdılar və biz Prezident Mattarella ilə birlikdə açılış mərasimində iştirak etmişik. Buna görə mən əminəm ki, bu münaqişə bizim təkcə İtaliya ilə münasibətlərimizə yox, heç bir ölkə ilə münasibətlərimizə təsir etməyəcək. Mən bundan əminəm.

---

## *Prezident PUTİN:*

### “Rusiya Cənubi Qafqazda münaqişənin daha tez başa çatmasından ötrü əlindən gələni edir”



**Rusiya Cənubi Qafqazda münaqişənin daha tez başa çatmasından ötrü ondan asılı olan hər şeyi edir. AZƏRTAC xəbər verir ki, bu barədə Rusiya Prezidenti Vladimir Putin dini icmaların nümayəndələri ilə görüşdə bəyan edib.**

RF Prezidenti deyib: “Bilirsinizmi, Rusiya Cənubi Qafqazda münaqişənin mümkün qədər tez başa çatması, qarşı-qarşıya duran və təəssüf ki, indiyədək bir-birini avtomat, tüfəng nişangahından görən, bir-birinə qarşı silah qaldıran insanların həyatını qorumaqdan ötrü ondan asılı olan hər şeyi edir”.

Rusiyalı lider əminliyini ifadə edib ki, qarşıdurma tərəflərinin məqsədlərinə sülh danışıqları prosesinin gedişində nail olmaq mümkündür. O deyib: “Hər halda biz həm Ermənistanla, həm də Azərbaycanla təmasdayıq. Ümidvaram ki, biz regionda yaşayan bütün insanları qane edən şərtlər daxilində nəticəyə nail ola biləcəyik”.

---

# İlham Əliyevin tam qələbəni bəyan edəcəyi günə az qaldı

*Əvvəli 1-ci səh.*

Azərbaycana gəldikdə isə, 28 ildir fəaliyyət göstərən Minsk qrupu baza prinsiplərinin birinci bəndi üzrə belə nəticə əldə etməyib və ümumiyyətlə, bu illərdə vasitəçilər heç vaxt işğalçıya qarşı kəsərli təzyiqlərin edilməsini dilə gətirməyiblər. Hətta işğal sözünü belə dilə gətirməyiblər. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnamədə açıq şəkildə Azərbaycan torpaqlarının zəbt edilməsi ifadə olunur. Bütövlükdə, vasitəçilərin fəaliyyətinin məzmununun əslində işğalçının maraqlarına xidmət etdiyi göz önündə idi. Elə bunun nəticəsi idi ki, Ermənistan hakimiyyətində təmsil olunan əvvəlki hərbi xunta Azərbaycan torpaqlarını işğal etdiyini, hətta azərbaycanlılara qarşı soyqırımı törətdiyini də çəkinmədən dilə gətirirdi. İqtidara gəldikdən sonra əvvəlcə hakimiyyətini möhkəmləndirən Paşinyan son bir ildəki fəaliyyəti ilə ölkəsinin işğal siyasətinin yeni fazaya qədəm qoyduğunu göstərdi. Şuşada separatçı rejim üçün andiçmə mərasiminin keçirilməsi, işğal olunmuş Azərbaycan ərazilərinin qanunsuz məskunlaşdırılması, Tovuzda Azərbaycana yeni hərbi təcavüzün edilməsi ilə Ermənistan göstərdi ki, zəbt etdiyi torpaqları azad etməkdən tamamilə uzaqdır. Bu fikri son günlərdə azad olunan Azərbaycan ərazilərində aparılan erməniləşdirmə siyasəti, yerli toponimlərin dəyişdirilməsi, o cümlədən işğalçı qoşunlar üçün son dərəcə möhkəm müdafiə istehkamlarının yaradılması da də sübut edir.

### Düşmənin ən müasir texnikaları belə ordumuzun qarşısında acizdir

Beynəlxalq ictimaiyyət 1994-cü ildən bəri Ermənistana təzyiq etməyib. İşğalçı isə bunun nəticəsi kimi özünü rahat və arxayın hiss edib və düşünüb ki, zaman ötdükcə Azərbaycan işğal faktı ilə razılaşmalı olacaq. Lakin bu dövrdə Azərbaycanda düşmənin düşündüyünün tamamilə əksi olan proseslər baş verib. Danışıqların nəticəsiz olmasına rəğmən Azərbaycan bu illərdə dözüb, torpaqlarının işğaldan azad edilməsinin doğru zamanını gözləyib. Bu zamanı isə Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin yürütdükləri inkişaf siyasəti yetişdirdi. Atəşkəs dövründə Azərbaycan olduqca möhtəşəm inkişaf yolu keçdi, özünün enerji strategiyasını tam reallaşdırdı. İndi Azərbaycan yerləşdiyi bölgədə lider, dünyada isə söz sahibi olan nüfuzlu dövlət kimi tanınır.

Ən mühümü odur ki, bu inkişaf günlərin birində torpaqlarımızı işğaldan azad edəcək ordumuzun qüdrətlənməsini, ən müasir döyüş imkanlarına malik gücə çevrilməsini təmin edib. Təsadüfi deyil ki, beynəlxalq reytinq agentliklərinin hesabatlarına əsasən, Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusundan biridir. Bu gün ordumuzun arsenalında yer alan ən müasir silahlar cəmi bir neçə ölkədə var. Ermənistanın ən müasir texnologiyalara əsaslanan belə yüksək dəqiqlikli silahlara əlçatanlığı isə, ümumiyyətlə, mümkün deyil. Çünki bu gün işğalçını silahla təchiz edənlər ən yaxşı halda döyüşlərin ötən əsrin 80-90-cı illərinin tələbləri çərçivəsində aparılmasına imkan verən texnikaları Ermənistana göndərə bilərlər. Kifayət qədər bahalı olan yüksək dəqiqlikli silahları heç bir dövlət havayı şəkildə Ermənistana göndərməyəcək. Son günlər cəbhədə baş verənlər göstərdi ki, Azərbaycanın pilotsuz zərbə aparatlarının qarşısında düşmənin arsenalında olan ən müasir texnikaları belə acizdir.

### Azərbaycan cəmiyyəti tamamilə vətənpərvər ruha köklənib

Atəşkəsdən bəri Azərbaycanın başqa bir uğuru isə cəmiyyətimizin tamamilə vətənpərvər ruha köklənməsi olub. Bunu təmin edən başlıca amil isə ölkə rəhbərliyinin yürütdüyü siyasət, Prezident İlham Əliyevin fəaliyyətində ərazi bütövlüyünün bərpasının prioritet təşkil etməsidir. İlham Əliyev daim bəyan edib ki, Azərbaycanın yeganə problemi torpaqlarımızın işğal altında qalmasıdır. Dövlət başçısının ordu quruculuğu ilə bağlı gördüyü işlər, məcburi köçkünlərə qayğısı, beynəlxalq səviyyədə milli maraqlarımızı qətiyyətlə təmin etməsi, torpaqlarımızın azadlığı uğrunda canından keçmiş vətən övladlarına dərin ehtiramı nəticə etibarilə Azərbaycan cəmiyyətində vətənpərvərlik ruhunun daha da güclənməsinə yol açıb.

Bunun nəticəsidir ki, atəşkəs dövründə böyüyən, 1990-cı illərin əvvəllərində baş verənlərin şahidi olmayan gənc nəsil belə ən yüksək vətənpərvərlik hisslərinə malikdir. Hələ bir neçə ay əvvəl Ermənistanın Tovuzda törətdiyi təxribat xalqımızın vətənpərvərliyinin təsdiqi olmuşdu. Həmin vaxt 55 mindən artıq gənc könüllü şəkildə səfərbərlik şöbələrinə müraciət edərək qeydiyyata düşmüşdü. İkinci Qarabağ müharibəsi başlanandan sonra minlərlə gənc könüllü şəkildə, valideynlərin alqış və xeyir-duası ilə cəbhəyə yola düşdü. Ermənistanda isə “könüllülər” silah gücünə cəbhəyə göndərilir, hətta kişilər qaçıb aradan çıxdıqlarından qadınlardan ibarət birliklər yaradılır.

Bu gün Azərbaycanda böyükdən kiçiyə hər kəs böyük Qələbəyə köklənib. Hər kəs Ali Baş Komandanın hansı şəhər və kəndlərimizin azad olunacağı ilə bağlı məlumatını gözləyir. Hamı növbəti qələbə müjdəsinin sorağındadır. Cəbrayılın, Füzulinin, Zəngilanın, Qubadlının ardınca qəhrəman ordumuzun Şuşanı, Laçını, Ağdamı, Kəlbəcəri azad etməsinə lap az qalıb. Ermənistanın artıq kapitulyasiyanın astanasında olduğunu proseslərin gedişatını izləyən hərbi ekspertlər də təsdiq edirlər.

Beləliklə, dövlət başçısının tam qələbəni bəyan edəcəyi gün uzaqda deyil. 2020-ci il İlham Əliyevin Ali Baş Komandanlığı ilə Azərbaycan Ordusunun torpaqlarımızı işğaldan azad etdiyi il kimi tarixə düşəcək.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

◆Prezidentə yazırlar

# “Siz xalqını sevən bir sərkərdə kimi Azərbaycan tarixində misli görünməmiş qələbələrə imza atırsınız”

**Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız, eləcə də qardaş Türkiyənin vətəndaşları Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Onlar Azərbaycan Silahlı Qüvvələrinin uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı sevinc hisslərini paylaşır, dövlət başçısını təbrik edir və minnətdarlıqlarını bildirirlər. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların bir neçəsini təqdim edir.**



Türkiyənin İstanbul şəhərindən **Gürbüz Turğay** yazır: “Hörmətli cənab Prezident, mənim 68 yaşım var. Hələ keçən əsrin 70-ci illərində tələbə olarkən türk dünyasında baş verənlərlə maraqlanır, çətinlikdə olan qardaşlarımız üçün dualar edirdim. Həmin illər ən çox dinlədiyim Zeynəb Xanlarovanın mahnıları idi. Həmin musiqiləri dinləyərək Azərbaycandakı qardaşlarımı düşünürdüm. Bu illər ərzində həkimlik oxudum, baş həkim dərəcəsinə qədər yüksəldim. Həmişə Azərbaycan bayrağını Türkiyə bayrağı ilə yanaşı asdım. İllər bu həsrətlə keçirdi. Nəhayət, müjdəli xəbərlər aldıq. Azərbaycan müstəqillik qazandı. Azadlığa yeni qovuşmuş qardaş ölkəmizin həmin illər maddi, iqtisadi sıxıntıları var idi. İşlədiyim xəstəxanada ilk ianəni verməklə yardım kampaniyasına başladım. Topladığım pulları o vaxt Ankarada işləyən azərbaycanlı tanışımla qardaş ölkəyə göndərdim. Bu fəaliyyətimlə qürur duyurdum. Əminəm ki, gələcəkdə də övladlarım bununla qürur duyacaq. Şükürlər olsun ki, Allah indi yaşadığımız bu günləri də mənə qismət etdi. Hər gün verdiyiniz yeni-yeni müjdələri həyəcanla izləyirəm. Hörmətli və əziz Prezidentim, övladlarıma da daim bəhs etdiyim çətin günlər, şükür olsun ki, arxada qaldı. Artıq ölkənizin heç nəyə ehtiyacı yoxdur, güclüsünüz, zirvədəsiniz. Tanklarınızdan atılan mərmiləri böyük qürurla və sevinclə izləyirəm, çünki onlar ürəyimdə illərlə yaşayan kini, nisgili, ağrı-acını silib aparır. Ürəyim daim Sizinlə, azərbaycanlı qardaşlarımladır. Sizdən eşidəcəyim qələbə xəbəri mənimlə yanaşı, illərlə ürəyində həsrət gəzdirən insanların nisgilinə də son qoyacaq. Dualarımız Sizinlədir. Allah yardımçınız olsun”.

Antalya şəhərindən **Alperen Gökbulut** yazır: “Hörmətli cənab Prezident İlham Əliyev, mənim 13 yaşım var. Böyüyəndə əsgər olmaq istəyirəm. Zatən hər bir türk artıq doğulandan əsgərdir. Ermənistanın torpaqlarınızı işğal etməsi barədə məlumatım var. Bütün türk xalqı, həmçinin mən bu savaşda hər zaman yanınızdayıq. Mən “PlayStation” almaq üçün topladığım 40 lirəni böyük məmnuniyyətlə Azərbaycan əsgərlərinin fonduna göndərirəm. Könlüm ordunuzun əsgərləri üçün daha böyük işlər görmək istəyir, lakin hələlik əlimdən gələn budur. Tək istədiyim Qarabağın işğaldan azad olunması və onun hər guşəsində Azərbaycan bayrağının dalğalanması, Mübariz İbrahimovun ruhunun şad olmasıdır”.

İranın Təbriz şəhərindən **Araz Əzimlinin** məktubunda deyilir: “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Siz hamımızın fəxrimiz, qürurumuzsunuz. Mən Təbriz şəhərindənəm. İranda yaşayan azərbaycanlılar Sizin qələbə xəbərləri verən çıxışlarınızı səbirsizliklə gözləyir, həyəcanla izləyir. Xarici müxbirlərin suallarına verdiyiniz dolğun cavablar bizi şərəfləndirir, qürur verir. Nə yaxşı ki varsınız. Allah yardımçınız olsun. Qarabağ Azərbaycandır! Yaşasın Azərbaycan! Yaşasın Prezidentimiz! Yaşasın Ordumuz! İnşallah, tezliklə Xankəndi, Şuşa ilə bağlı qələbə xəbərləri bizləri sevindirər”.

Ankara şəhərindən **Mesut Baltorpak:** “Hörmətli cənab Prezident, qardaş ölkəmiz Azərbaycana Türkiyədən və türk xalqı adından sonsuz dəstəyimizi bildirərək Sizi dualarımızla salamlayırıq. Böyüklərin əllərindən, kiçiklərin gözlərindən öpürəm. Acınız acımız, zəfəriniz zəfərimizdir. Mən və mənim kimi bir çox qardaşlarınız sizlərlə eyni cəbhədə düşmənə qarşı birlikdə vuruşmağa can atırıq, lazım gələrsə, əsgəriniz kimi ikinci Vətən bildiyimiz Azərbaycanın müzəffər Ordusunda xidmət etməyə hazırıq. Allah yar və yardımçınız olsun!”

Bakı şəhərindən **Amil Qafari** yazır: “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, cəzaçəkmə müəssisəsindən yazaraq bildirmək istəyirəm ki, 2009-2015-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinin Çevik Polis Alayında kiçik rəis heyətində polis serjantı rütbəsində qulluq etmişəm. İdmanın boks növü ilə məşğul olmuşam. Müzəffər Ali Baş Komandan, Sizin fərmanınızla ölkədə qismən səfərbərlik elan edilmişdir. Başqa vətənpərvər gənclər kimi mən də silaha sarılıb torpaqlarımızın azadlığı uğrunda ümumi düşmənə qarşı vuruşmaq, son damla qanımadək canımdan keçmək, şəhidlik zirvəsinə yüksəlmək istəyirəm. Sağ qalacağım təqdirdə, mənə təyin olunmuş cəzanın çəkilməmiş hissəsini böyük qələbəmizdən sonra çəkməyə hazıram. Sizin etimadınızı doğruldacağıma, hərbi anda sadiq qalaraq bütün gücümü və bacarığımı Vətən naminə sərf edəcəyimə söz verirəm. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Qazax rayonundan **Cəfər Həsənov** dövlət başçısına yazır: “Hörmətli cənab Prezident, mənim hazırda sevincimin həddi-hüdudu yoxdur. Sizi və Azərbaycan xalqını, rəşadətli Ordumuzu qələbələr münasibətilə təbrik edirəm. Sizin daxili və xarici siyasətiniz və Azərbaycan xalqının iradəsi sayəsində mənfur düşmən tapdağı altında inildəyən torpaqlarımız işğaldan azad olunur. Sizin Ali Baş Komandanlığınız altında Azərbaycan Ordusu şanlı tarix yazır. Sayənizdə bizim olan, bizə qayıdır. Cənab Prezidentim, dilbər guşəmiz olan Şuşada qələbə paradının keçirilməsini və özümün də həmin paradda iştirak etməyimi arzulayıram. Yaşasın Azərbaycan Prezidenti! Yaşasın Azərbaycan xalqı! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!”

Paytaxt sakini **Marat Amanov:** “Möhtərəm Prezident, Müzəffər Ali Baş Komandan, Vətənimiz Azərbaycanın tarixinə qızıl hərflərlə yazılacaq bu şanlı günlərdə bütün xalqımız kimi məni də Sizin qətiyyətiniz səmimi-qəlbdən sevindirir, ruhlandırır və fərəhləndirir. Bütün dünya Sizin uzaqgörən siyasətçi, möhtəşəm diplomat, qətiyyətli dövlət başçısı olduğunuzu bir daha gördü. Qələbələriniz daim olsun! Şübhəsiz ki, çox yaxın zamanda Sizin və ordumuzun qətiyyəti sayəsində bütün Qarabağ torpaqları işğaldan azad ediləcək. Allah Azərbaycanı qorusun! Eşq olsun şanlı və Müzəffər Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır! Qələbə bizimdir!”

Samux rayon sakini **Cavad Şahbazlı:** “Hörmətli Prezident cənab İlham Əliyev, Sizinlə fəxr edirəm. Arzu edirəm ki, müharibəni tezliklə qələbə ilə başa vuraq. Bayrağımız Şuşada, Xankəndidə dalğalansın. Biz uşaqlar bir də müharibə görməyək. Əziz Prezidentimiz, Siz bir tarix yazdınız. Bu tarix gələcəkdə dərsliklərə salınacaq, məktəblilər tərəfindən çox böyük maraqla oxunacaq. Biz uşaqlar, həmçinin də mən Sizi çox sevirik. Qarabağ Azərbaycandır!”

Mingəçevir şəhər sakini **Sənan Cəfərov:** “Hörmətli cənab Prezident, Azərbaycanın bir vətəndaşı kimi, mən də döyüş bölgəsinə getmək üçün könüllü yazılmışam. Qarabağımızın azadlığı uğrunda əsgərlərimizlə çiyin-çiyinə döyüşmək istəyirəm. Hər zaman Sizin və qüdrətli Azərbaycan Ordusunun yanındayam. Mən fəxr edirəm ki, azərbaycanlıyam və Sizin kimi Prezidentimiz var. Allah Sizi Azərbaycan xalqının başı üzərindən əskik etməsin. Amin! Yaşasın Azərbaycan, Yaşasın Müzəffər Ali Baş Komandanımız! Qarabağ Azərbaycandır!”

Saatlı rayon sakini **Şahin Sadıqov:** “Cənab Ali Baş Komandan, Azərbaycanın ərazi bütövlüyü uğrunda aparılan müharibənin ilk günündən bütün hadisələrin gedişini qürur hissi ilə izləyir və bir vətəndaş olaraq Sizinlə fəxr edirəm. Mən və övladım hər zaman Sizin əmrinizdəyik. Sizin televiziyadakı çıxışlarınızı izlədikcə bütün ailəmiz fərəh hissi keçirir, Prezidentimizlə qürur duyuruq. Cənab Ali Baş Komandan, bilin ki, xalqımız, millətimiz Sizi çox sevir. Biz hər zaman Sizin müsəlləh əsgərlərinizik. Yaşasın Azərbaycan! Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!”

Bakı şəhər sakini **Oksana Pşeniçnaya:** “Çox hörmətli Prezidentimiz İlham Əliyev.

Sizə dərin hörmət və minnətdarlıq hissi ilə bu məktubu yazan Mingəçevir şəhərində doğulub boya-başa çatmış Oksana Pşeniçnayadır. Əzəli Qarabağ torpaqlarımızı təcavüzkarlardan azad etdiyinizə görə Sizin və rəşadətli Ordumuzun qarşısında baş əyirəm. Eyni zamanda mənim sevimli və doğma şəhərim Mingəçevirin ayıq-sayıq qorunmasına görə Sizə minnətdaram. Qələbə bizimdir! Qarabağ Azərbaycandır!”

Gəncə sakini **İlkin Məmmədov:** “Salam cənab Prezident, ordumuzun uğurlu əməliyyatları nəticəsində azad edilmiş torpaqların şad xəbərini hər gün televiziya kanallarından eşidirəm və çox sevinirəm. Bu məktubu yazmağıma səbəb Sizə olan minnətdarlığımı bildirməkdir. Bu çətin günlərdə Siz bizim, bütün Azərbaycan xalqının arxasında dağ kimi durduğunuz kimi, biz də bütün Azərbaycan xalqı ilə Sizin arxanızdayıq. Mən Gəncə şəhərində anadan olmuşam və burada yaşayıram. Xalqımızın bu çətin imtahandan üzüağ çıxması üçün hər gün Allaha dua edirəm. Bir yandan koronavirusa qarşı mübarizə, bir yandan da əsgərlərimizin otuz ilin həsrətini bitirmək üçün cəbhədə mübarizə aparması ağır bir imtahandır. Amma hər kəs bilir ki, bu imtahandan başımız dik, üzümüz ağ çıxacağıq. Bu məktubu yazmağı özümə borc bildim”.

Neftçaladan **Rahil Dadaşov:** “Hörmətli cənab Prezident, biz Sizin komandanlığınızla Azərbaycan Ordusunun qələbələrinə sevinir və alqışlayırıq. İnanırıq ki, qəhrəman Azərbaycan Ordusu erməni faşistlərini Azərbaycan torpaqlarından qovacaq. Xain erməni işğalçılarının bu torpaqlarda yaşamağa haqqı yoxdur. Qarabağ tarixi Azərbaycan torpağıdır. Bu çətin və məsuliyyətli işinizdə Sizə və Ordumuzun igid əsgərlərinə cansağlığı və yeni-yeni nailiyyətlər arzu edirəm. Bütün xalqımız Sizinlə qürur duyur və arxanızdadır. Yaşasın qəhrəman Azərbaycan Ordusu! Yaşasın qəhrəman Azərbaycan xalqı! Yaşasın Ali Baş Komandan!”

Bakı Ali Neft Məktəbinin Biznesin idarəolunması üzrə tədris mərkəzinin müdiri **Rövşən Budaqov** yazır: “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, cari il sentyabrın 27-dən başlayaraq Sizin komandanlığınız altında rəşadətli Azərbaycan Ordusu işğal edilmiş torpaqlarımızın azad edilməsi, ərazi bütövlüyümüzün bərpa olunması uğrunda mənfur düşmənə qarşı mübarizə aparmaqdadır. Biz əminik ki, xalqımızın qəhrəmanlıq tarixini, azadlıq və istiqlaliyyət mübarizəsini ifadə edən üçrəngli ay-ulduzlu bayrağımız tezliklə öz dədə-baba torpaqlarımızda dalğalanacaq. Bu gün Azərbaycan xalqı yumruq kimi birləşərək vətəndaşlıq borcunu yerinə yetirməkdədir. Sizin rəhbərliyinizlə şərəfli bir tarix yazılır və milyonlarla azərbaycanlının doğma yurd həsrətinə son qoyulur. Bu əməllərinizlə Siz qüdrətli Ali Baş Komandan olaraq yaddaşlarda əbədi həkk olunacaqsınız. Sizə güvənirik, Sizinlə qürur duyuruq. Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!”

Sabirabad sakini **Murad Yordanidze:** “Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, bir axıska türkü olaraq Sizi və müzəffər ordumuzu Ermənistan silahlı qüvvələri ilə aparılan haqlı mübarizədə dəstəkləyirik. Düşmənləri iti qovan kimi qovur, erməni hökumətinin rəhbəri Paşinyana dərsini veririk. Tezliklə tam qələbə çalacağımıza inanıram. Allah Sizi və Birinci vitse-prezident Mehriban xanımı başımızın üzərindən əskik etməsin. Sizlərə cansağlığı, əsgərlərimizə güc-qüvvət arzulayıram. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Füzuli sakini **Qəhrəman Şirinov:** “Çox hörmətli əziz Prezidentimiz, mən Sizinlə fəxr edirəm, ona görə ki, Siz Ulu Öndərimizin layiqli davamçısısınız. Siz Azərbaycan xalqının ürəyində, qəlbində əbədi yer qazanmısınız. Uca Allah Sizi, xalqımızı, Ordumuzu qorusun! Ötən il məktubla Sizi ad günü münasibətilə təbrik edərkən bu şüarları demişdim: “Vətən uğrunda, İlham Əliyev uğrunda irəli!”. 2020-ci ilin sentyabr ayının 27-dən bu şüarla, qələbə əzmi ilə irəli gedirik. İnşallah, tez bir zamanda möhtərəm Prezidentimizin başçılığı ilə qələbə qazanacağıq və böyük qələbədən sonra Azərbaycanın tarixi yenidən Sizin adınızla qızıl hərflərlə yazılacaq. Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!”

Ağdam sakini **Eldar Rüstəmov:** “Hörmətli cənab Prezident, Siz xalqını sevən bir sərkərdə kimi Azərbaycan tarixində misli görünməmiş qələbələrə imza atırsınız. Ağdam rayon sakinləri Sizinlə fəxr edir və daim dövlətimizin başında durmağınızı arzulayır. Bəzən ölkəmizin içəridən dağıldığı və məğlubiyyətə uğradılaraq torpaqlarımızın işğala məruz qoyulduğu vaxtlardan fərqli olaraq indi yumruq kimi sıx birləşmişik və Sizin müdrik siyasətinizlə dövlətimizi inkişaf etdiririk. Xalqımız buna görə Sizə minnətdarlıq edir. Təyin etdiyiniz kadrlar da layiqli hərəkətləri ilə əhalinin rəğbətini qazanır. Rayondakı nümayəndələriniz əhali ilə eyni vaxtda yatıb, eyni vaxtda durur, orduya hər bir köməklik göstərir və bütün tapşırıqlarınızı yerinə yetirirlər. Cənab Prezident, Sizin gələcəkdə görüləsi hələ çox işiniz var. Azərbaycan xalqı daim Sizə və Ulu Öndərimiz Heydər Əliyevə minnətdar olacaq. Sizə uzun ömür və cansağlığı arzulayıram! Qarabağ Azərbaycandır!”

Xocavənd sakini **Əjdər Abdullayev:** “Hörmətli cənab Prezident, əvvəla Sizi qazandığımız uğurlara görə təbrik edirəm. Sizə və bütün əsgərlərimizə bu şərəfli işinizdə cansağlığı və yeni-yeni müvəffəqiyyətlər arzu edirəm. Mənim iki oğlum hazırda cəbhə bölgəsində xidmət edir. Allah bütün əsgərlərin, o cümlədən övladlarımın yardımçısı olsun! Ata-baba yurdum erməni işğalından azad edildiyi üçün sevincimin həddi-hüdudu yoxdur. Buna görə Sizə minnətdaram, cənab Prezident. Hər zaman Sizə və ordumuza dəstək olmağa hazırıq. İnşallah, tezliklə qalib gələcəyimizə bütün qəlbimizlə inanırıq. Allah Sizi və Ordumuzu qorusun!”

# Baş Nazir Əli Əsədov Məsud Yılmazın vəfatı ilə əlaqədar Türkiyə səfirliyində başsağlığı verib

**Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov noyabrın 4-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinə gedərək səfir Erkan Özoral ilə görüşüb.**



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Əli Əsədov Türkiyə Respublikasının keçmiş Baş Naziri, görkəmli siyasətçi və dövlət xadimi Məsud Yılmazın vəfatı ilə əlaqədar başsağlığı verib.

Baş Nazir səfirlikdə açılan matəm kitabına ürək sözlərini yazıb.

# *Hikmət HACIYEV:* “Ermənistan və qondarma rejim biri digərinə zidd olan çoxlu sayda yalan və saxta məlumatlar yayır”

“Ermənistan və qondarma rejim tərəfindən biri digərinə zidd olan çoxlu sayda yalan və saxta məlumatlar yayılır. Nəticədə bu kimi saxta məlumatların ifşası üçün Azərbaycan tərəfinin müdaxiləsinə ehtiyac qalmır”.



AZƏRTAC xəbər verir ki, bunu Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev KİV-ə açıqlamasında bildirib.

Prezidentin köməkçisi deyib ki, Ermənistan müdafiə nazirinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi geyimində olan erməni hərbçilərlə fotoşəkli Ermənistanın muzdlularla bağlı saxta kampaniyasını alt-üst etdi. Ermənistanın müdafiə nazirliyi və digər qurumları yeni muzdlu barədə məlumat verəcəklərini bəyan etdikləri halda, Ermənistanın ədliyyə Nazirliyi üçüncü muzdlunun olmadığını etiraf etdi. Yəqin ki, səhnələşdirilmiş teatr üçün müvafiq şəxsi tapa bilməyiblər. Süni ruh yüksəkliyi yaratmaq üçün özünü blogger adlandıran şəxslər cəlb olunaraq Ermənistan tərəfindən həmçinin saxta döyüş səhnələri hazırlanır.

İşğaldan azad edilmiş ərazilərimizdə mülki insanın öldürülməsi barədə qondarma rejimin yaydığı məlumat növbəti dezinformasiyadır. Azərbaycanı Ermənistandan fərqləndirən cəhətlərdən biri də odur ki, Azərbaycan mülki insanlarla savaş aparmır.

Hikmət Hacıyev qeyd edib ki, Xocalı soyqırımı insanlıq əleyhinə cinayətin bariz nümunəsi olaraq, Ermənistanın siyasi-hərbi rəhbərliyinin əsl mahiyyətini nümayiş etdirdi. İrqi ayrı-seçkilik əsasında Ermənistan tərəfindən işğal olunmuş ərazilərdə Azərbaycan xalqına qarşı etnik təmizləmə törədilmişdir. Tərtər, Gəncə, Bərdə və digər şəhərlərin mülki əhalisinin, o cümlədən azyaşlı uşaqların raket hücumları ilə qətlə yetirilməsi Ermənistanın Xocalı soyqırımı siyasətinin davamıdır. Dəyişən yalnız istifadə olunan vasitələrdir. Ermənistan silahlı qüvvələrinin doktrinasında və döyüş hazırlığında mülki Azərbaycan əhalisinin hədəfə alınması müəyyən edilmiş məqsədlərdən biridir.

Prezidentin köməkçisi vurğulayıb ki, Azərbaycanın Dağlıq Qarabağ bölgəsində yaşayan mülki insanlar üçün ən böyük təhlükə Ermənistan və kriminal xunta rejimidir. Onlar tərəfindən mülki insanlara qarşı cinayətlərin törədilməsi və sonra buna görə Azərbaycanın günahlandırılması halları istisna edilməməlidir.

İşğal olunmuş ərazilərimizdə yaşayan mülki erməni əhalisini ayıq-sayıq olmağa və hərbi əməliyyatların getdiyi ərazilərdən kənar durmağa çağırırıq.

Azərbaycanın nəzarətində olan əraziyə keçmək istəyən mülki insanlara beynəlxalq humanizm prinsipləri əsasında bütün lazımi yardım və dəstək göstəriləcək.

# Qarabağı yenidən cənnətə çevirəcəyik

## Bunun üçün dövlətimizin həm maddi imkanı, həm də yenilməz əzmi var

*Əvvəli 1-ci səh.*

Bununla onlar Dağlıq Qarabağda və onun ətrafında olan tarixi izlərimizi silmək istəyiblər. Prezident İlham Əliyevin ifadəsi ilə desək, bütün bunları sanki vəhşi bir qəbilə edib.

Torpaqlarımızın bu vəziyyətə salındığını gördükdə bir daha başa düşürsən ki, işğalçılar buranın sahibi olmadıqlarını özləri də bilirlər. Çünki heç bir millət özünə məxsus olana belə münasibət bəsləməz. Əgər iddia etdikləri kimi, bu torpaqlar onların olsaydı, heç vaxt barbarlıq edib onu viran qoymazdılar. Əksinə, bizim orada tikdiyimiz, abadlaşdırdığımız nə vardısa, hamısını qoruyardılar. Erməni işğalçıları isə yalnız talançılıqla, tikdiklərimizi dağıtmaqla, oğurluqla məşğul olublar.

Onlar təkcə yerüstü deyil, yeraltı sərvətlərimizi də vəhşicəsinə istismar ediblər. İndi işğaldan azad olunan ərazilərimizin videogörüntülərinə baxdıqda görürük ki, burada heç meyvə ağacları da qalmayıb. Bu isə o deməkdir ki, düşmən meyvə ağaclarını kəsmək qədər də rəzillik göstərib. Bir sözlə, ermənilər “viran edilmiş torpaq” siyasəti həyata keçirərək hər şeyi məhv etməyi qarşılarına məqsəd qoyub və çox təəssüf ki, buna nail olublar.

Rusiya kanallarından birinə müsahibə verən Qarabağ ermənisi belə söyləyir: “Mən həmişə deyirdim ki, bu torpağın əsl sahibi gələcək, bizdən fərqli olaraq onu qoruyacaq”. Erməni olsa da, soydaşlarından fərqli olaraq doğru söz deyib. Həqiqətən, Azərbaycan Ordusu torpaqlarımızı düşməndən azad etdiyi kimi, onu qoruyacaq da! Ötüb-keçənlər bizə bir tarixi dərs oldu. Heç şübhə etmirik ki, bundan sonra Ordumuz və xalqımız torpaqlarımızı kimsənin işğal etməsinə imkan verməyəcək.

Bu yerdə bir maraqlı məqama da toxunmaq istərdik. Həmin məqam da odur ki, Ermənistanın indiyədək ayaqda dura bilməsinin səbəbi həm də işğal etdikləri Azərbaycan torpaqlarından talan edilən təbii sərvətlər olub. Təsadüfi deyil ki, bu ölkənin dövlət büdcəsinin 51 faizi Azərbaycan ərazisindən talan edilən təbii sərvətlər sayəsində formalaşır. Artıq Ermənistanın tezliklə bu imkandan birdəfəlik məhrum olacağı qaçılmazdır. Deməli, onun qara günləri sonra başlayacaq. Onsuz da zəif olan iqtisadiyyatı tamamilə çökəcək, əhalinin sosial vəziyyəti daha da pisləşəcək.

Məlum olduğu kimi, Dağlıq Qarabağ və onun ətrafında olan rayonlar təbii sərvətlərlə zəngindir. Ağdərədə qızıl, gümüş, sink, mis, mişar daşı, gəc yataqları var. Kəlbəcər rayonunda qızıl, civə, mişar daşı, gil, perlit, qum-çınqıl, tikinti və üzlük daşları, əlvan daş yataqları mövcuddur. Zəngilan da qızıl, gümüş, üzlük daş, əhəng daşı, gil, tikinti daşı, qum-çınqıl yataqları ilə zəngindir. Ağdam rayonunda isə mişar və üzlük daşları, sement xammalı, gil, qum-çınqıl yataqları var. Qeyd edək ki, dünyada olan jad yataqlarının sayı 50-ni keçmir. Bu təbii mineral Qarabağda mövcuddur. Onun bir kiloqramı Asiya ölkələrində, xüsusən Çində min dollarla satılır. Dövlətimiz tərəfindən görülən müvafiq tədbirlər sayəsində tezliklə bu yataqlar istismar edilərək ölkəmizin iqtisadi qüdrətini daha da artıracaq.

Xatırladaq ki, Prezident İlham Əliyev 29 oktyabr 2020-ci il tarixli “Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında” fərman imzalayıb. Sənədin imzalanmasında məqsədlərdən biri də işğaldan azad olunmuş ərazilərdə böyük qayıdışı təmin etməklə iqtisadiyyatı yenidən dirçəltməkdir.

Biz gözəl Qarabağımızı yenidən canlandıracaq, onu cənnətə çevirəcəyik. Bu vaxtaparan, həm də külli miqdarda vəsait tələb edən çətin bir proses olacaq. Lakin qurucu liderimiz, Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün çətinlikləri aradan qaldıraraq Qarabağı əvvəlkindən də abad edəcəyik. Dövlətimiz neçə vaxtdır köçkün həyatı sürən qarabağlıların bu yerlərə qayıdıb firavan yaşaması üçün lazım olan hər şeyi edəcək. Çünki Qarabağ Azərbaycandır!

***Rüstəm KAMAL,***
***“Azərbaycan”***

# Azərbaycan dost Çin ilə müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinə böyük önəm verir



**Noyabrın 4-də Milli Məclisin Sədri Sahibə Qafarova Çin Xalq Respublikasının ölkəmizdəki səfiri Quo Minlə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Spiker Sahibə Qafarova onu parlamentdə görməkdən məmnun olduğunu bildirib. Milli Məclisin Sədri vurğulayıb ki, Azərbaycan dost Çin ilə müxtəlif sahələrdə əlaqələrin daha da inkişaf etdirilməsinə böyük önəm verir.

Ölkələrimiz arasında münasibətlərin inkişafında dövlət başçılarının rolundan danışan Milli Məclisin Sədri ölkə liderlərinin qarşılıqlı səfərlərini xüsusi vurğulayıb. Sahibə Qafarova bu günədək Azərbaycan ilə Çin arasında 81 sənədin imzalandığını və onların əlaqələrimizin gələcək inkişafı üçün etibarlı hüquqi əsas formalaşdırdığını diqqətə çatdırıb. Həmçinin qeyd edilib ki, Azərbaycanda 100-dən çox Çin şirkəti qeydiyyatdan keçib və uğurla fəaliyyət göstərir.

Milli Məclisin Sədri bildirib ki, ölkələrimizin ali qanunvericilik orqanları arasında münasibətlər yüksək səviyyədədir və bu münasibətlərin inkişafında parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rolu böyükdür. Sahibə Qafarova iki ölkə parlamentlərinin deputatlarının beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığını yüksək qiymətləndirib, pandemiyadan sonra qarşılıqlı səfərlərin həyata keçirilməsinin vacibliyindən danışıb.

COVID-19 pandemiyası dövründə ölkələrimizin əməkdaşlığına da toxunan Spiker Sahibə Qafarova koronavirusla mübarizədə Çinin ölkəmizə verdiyi dəstəyə və göstərdiyi yardımlara görə minnətdarlığını ifadə edib.

Söhbət zamanı Sahibə Qafarova Ermənistan-Azərbaycan münaqişəsindən danışaraq cəbhə bölgəsindəki vəziyyət haqqında ətraflı məlumat verib.

Səmimi qəbula görə minnətdarlığını bildirən Çinin Azərbaycandakı səfiri xanım Quo Min ölkəsinin Azərbaycan ilə münasibətlərin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb.

Qonaq ölkələrimiz arasında münasibətlərin daha da inkişaf etdirilməsi üçün parlamentlərarası əlaqələrin xüsusi rolunu qeyd edib. Bildirib ki, Çin Ermənistan-Azərbaycan münaqişəsinin ən qısa müddətdə həllinə, regionda sülhün və sabitliyin bərqərar olmasına ümid edir.

Görüşdə həmçinin tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# *Ceyhun BAYRAMOV:* "Ermənistanın açıq-aydın müharibə cinayəti olan əməlləri beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə qınanmalıdır"

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Avropa Şurası Nazirlər Komitəsinin 130-cu iclasında iştirak edib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasdakı çıxışı zamanı nazir Ceyhun Bayramov Yunanıstan hökumətinə Nazirlər Komitəsində sədrliyinin uğurla başa çatması münasibətilə təbriklərini çatdırıb və Azərbaycanın gələcək Almaniya sədrliyinə tam dəstəyini ifadə edib.

2021-ci ilin yanvar ayında Azərbaycanın Avropa Şurasına üzvlüyünün 20-ci ildönümünün tamam olacağını qeyd edən nazir deyib: "Ötən illər ərzində təşkilatda üzvlük Azərbaycanda insan hüquqları, demokratiya və qanunun aliliyinə hörmətin gücləndirilməsinə töhfə verib və biz bu vacib işi davam etdirməyə hazırıq".

Ceyhun Bayramov həmçinin bildirib: "Avropa Şurasına üzv olarkən Azərbaycan və Ermənistan Dağlıq-Qarabağ münaqişəsinin həlli üzrə birgə öhdəlik götürüb. Bu münaqişə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizinin qeyri-qanuni işğalı və 1 milyona yaxın Azərbaycan vətəndaşının məcburi köçkünə çevrilməsi ilə nəticələnib. ATƏT-in Minsk qrupu çərçivəsində son 28 il ərzində aparılan vasitəçilik səyləri Ermənistanda bir-birini əvəz etmiş hökumətlərin təcavüzkar və işğalçı siyasəti səbəbindən heç bir nəticə verməyib. Xatırlatmalıyam ki, Avropa İnsan Hüquqları Məhkəməsi 2015-ci il tarixli "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə qərarında Azərbaycanın ərazilərinə Ermənistan tərəfindən səmərəli nəzarətin həyata keçirildiyini təsbit edib. Hətta bu qərardan sonra da Ermənistan öz məsuliyyətini rədd etməkdə davam edib və buna görə heç bir sanksiyaya məruz qalmayıb.

"Qarabağ Ermənistandır" bəyanatı, eləcə də "yeni ərazilər üçün yeni müharibə" doktrinasının elan edilməsi də daxil olmaqla, təxribat xarakterli silsilə addımlarının davamı olaraq Ermənistanın siyasi-hərbi rəhbərliyi sentyabrın 27-də Azərbaycana qarşı yeni hərbi təcavüzə başlayıb. Hərbi əməliyyatların ilk günündən etibarən Ermənistan Azərbaycanın sıx məskunlaşmış və münaqişə zonasından kənarda yerləşən əraziləri ağır artilleriya atəşinə tutmaqdadır. Bu hücumlar nəticəsində 12-si uşaq olmaqla, 91 nəfər mülki vətəndaş həlak olub, 400-dən artıq şəxs isə yaralanıb. Xüsusilə Azərbaycanın ikinci böyük şəhəri Gəncəyə gecə saatlarında edilmiş və çoxsaylı mülki şəxslərin qətli ilə nəticələnmiş iki ballistik raket hücumu, habelə Bərdə şəhərinə digər 2 qeyri-insani və xain raket hücumunu qeyd etmək istərdim. Ermənistanın açıq-aydın müharibə cinayəti olan bu əməlləri Avropa Şurası daxil olmaqla beynəlxalq ictimaiyyət tərəfindən qəti şəkildə qınanmalıdır".

Nazir diqqətə çatdırıb ki, Azərbaycan Ermənistanın təcavüzünə cavab xarakterli əks-hücum tədbirlərini BMT Nizamnaməsinin 51-ci maddəsində göstərilən özünümüdafiə hüququ çərçivəsində aparır və bu xüsusda beynəlxalq humanitar hüquqdan irəli gələn öhdəliklərinə sadiq qalır. Azərbaycan, sadəcə, Ermənistan qüvvələrinin işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 4 qətnaməsinin icrasına çalışır. Azərbaycan Avropa Şurası Parlament Assambleyasının 1416 (2005) və 1614 (2008) saylı qətnamələri BMT Təhlükəsizlik Şurasının bu qətnamələrinə əməl olunmasını tələb edir və öz ərazi bütövlüyünün bərpasına çağırır.

Ceyhun Bayramov bildirib ki, bu, Azərbaycanın Dağlıq Qarabağ regionunun Azərbaycan və erməni icmalarının sülh şəraitində birgəyaşayışının, eləcə də Avropa Şurasının iki üzv dövləti arasında davamlı sülhün və daha geniş bölgədə əmin-amanlığın bərqərar olunmasının ən qısa yoludur.

# *Baş prokuror Kamran ƏLİYEV:* "Füzulidə bayraq sancmağa yer qalmamışdı"



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev noyabrın 3-də Böyük Britaniyanın "Reuters" İnformasiya Agentliyinə müsahibə verib.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı Baş prokuror Azərbaycan Qoşunlarının Füzuliyə daxil olarkən bayraq sancmağa salamat bina tapa bilmədiyini deyib: "Hərbçilərimiz orada bayraq sancmağa bir yer tapmadı, çünki salamat bina yox idi. SSRİ dövründə böyük bir şəhər olan Füzulidən geriyə yerləyeksan edilmiş şəhər qalmışdı. Zəngilanda isə yeganə dağıdılmamış bina hərbi qulluqçuların uşaqları üçün nəzərdə tutulmuş məktəb binası idi..."

"Reuters"ə Ermənistanın Azərbaycanın dinc sakinlərinə qarşı törətdiyi cinayətlər barədə ətraflı məlumat verən Baş prokuror həmçinin bölgədəki 700 tarixi bina və abidələrin əksəriyyətinin dağıdılması faktı ilə bağlı cinayət işi açıldığını qeyd edib.

https://uk.reuters.com/article/uk-armenia-azerbaijan-idUKKBN27J1P7

# Ermənistanın təxribatları nəticəsində 2734 ev, 98 yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 4-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 91 nəfər həlak olub, 405 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 2734 ev, 98 çoxmənzilli yaşayış binası və 500 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

# İranın Ali Rəhbərinin Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı açıqlamasını yüksək qiymətləndiririk

"İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneyi tərəfindən Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı verilən açıqlamanı və Azərbaycanın ərazi bütövlüyünə verilən dəstəyi yüksək qiymətləndiririk".

AZƏRTAC xəbər verir ki, bu fikir Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında yer alıb. Açıqlamada deyilir ki, "Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərinin hamısı azad olunmalıdır və bütün bu ərazilər Azərbaycana qaytarılmalıdır", - deyən Ali Rəhbər Azərbaycanın beynəlxalq hüquqa əsaslanan haqq mövqeyinə İran İslam Respublikasının qəti dəstəyini növbəti dəfə bəyan edib.

"Dost İran dövlətinin Ermənistan-Azərbaycan münaqişəsinin həlli istiqamətində səylərini, o cümlədən İran İslam Respublikası Prezidentinin xüsusi elçisi, Xarici İşlər nazirinin müavini Seyid Abbas Əraqçinin bölgəyə səfərini və münaqişənin tezliklə həllinə dair təşəbbüslə çıxış etməsini yüksək dəyərləndiririk. İnanırıq ki, ölkələrimiz arasında tarixi köklər üzərində qurulmuş əlaqələrimiz gələcəkdə də uğurla inkişaf edəcək və bu əlaqələr, o cümlədən bölgədə sülh, sabitlik və rifahın təmin olunmasına xidmət edəcək", - deyə açıqlamada bildirilir.

# "Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyirik"

Azərbaycanda Amerika Ticarət Palatası ("AmCham") birmənalı şəkildə Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini bəyan edib.

"AmCham"dan AZƏRTAC-a bildirilib ki, bəyanatda deyilir: "Biz ölkənin ilk və ən böyük biznes assosiasiyası olaraq, Azərbaycanın işğal olunmuş ərazilərində aparılan biznes fəaliyyətlərini, habelə Qarabağdakı qanunsuz rejimə maddi və ya hər hansı digər formada edilən dəstəyi qəti şəkildə pisləyirik. Biz bu cür qanunsuz fəaliyyət göstərən bütün fiziki və hüquqi şəxsləri şiddətlə qınadığımızı bildirir, həmçinin qeyd edirik ki, Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz fəaliyyət göstərən təşkilatlarla birbaşa və ya dolayı işgüzar münasibətlər qəbuledilməzdir. Üzvlərimizə xatırlatmaq istəyirik ki, Dağlıq Qarabağ bölgəsində və Azərbaycanın işğal olunmuş digər ərazilərində bu cür biznes təcrübələri ilə məşğul olan fiziki və hüquqi şəxslər Azərbaycanın ərazi bütövlüyü və suverenliyini, eləcə də milli və beynəlxalq qanunları pozduqlarına görə hüquqi məsuliyyət daşıyırlar. Biz hər bir fiziki və hüquqi şəxsi Azərbaycanın qüvvədə olan qanunvericiliyinə və beynəlxalq hüququn prinsiplərinə riayət etməyə, həmçinin Azərbaycan Respublikasının ərazi bütövlüyü və suverenliyinə hörmət etməyə çağırırıq".

# Ermənistan silahlı qüvvələrinin təcavüzü ilə bağlı dost ölkənin qəti mövqeyi xalqımız tərəfindən dəyərləndirilir

Noyabrın 4-də Azərbaycanın Müdafiə Sənayesi naziri Mədət Quliyev Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Bilal Haye ilə görüşüb.

Müdafiə Sənayesi Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, nazir Mədət Quliyev Pakistanın Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlətlərdən biri olduğunu vurğulayıb. Ermənistan silahlı qüvvələrinin hazırda davam edən təcavüzü ilə bağlı dost ölkənin qəti mövqeyini və hər zaman Azərbaycanın yanında olmasının xalqımız tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırıb.

M.Quliyev son günlərdə Pakistanda baş verən terror aktları ilə əlaqədar günahsız insanların öldürülməsi və yaralanması ilə bağlı səfirə dərin hüznlə başsağlığı verib. Nazir bildirib ki, Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayaraq Tərtər, Ağdam, Mingəçevir, Ağcabədi, Beyləqan, Gəncə, Bərdə şəhərlərini, bir sıra kənd və qəsəbələri, yaşayış məntəqələrini ağır artilleriya və raket qurğularından atəşə tutması nəticəsində mülki əhalimizə qarşı insanlıq əleyhinə cinayətlər törədilib. Səfirin diqqətinə çatdırılıb ki, dinc sakinlərə qarşı raket hücumları nəticəsində ümumilikdə 91 nəfər qətlə yetirilib, 405 nəfər yaralanıb, minlərlə yaşayış evinə və mülki infrastruktur obyektlərinə külli miqdarda ziyan dəyib. Bu, bir daha sübut edir ki, döyüş meydanında məğlubiyyətə uğrayan Ermənistan ordusu çıxış yolunu mülki əhaliyə qarşı yönəlmiş cinayətlərdə görür.

Nazir M.Quliyev Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun düşmənə hərb meydanında yetərli cavab verməsi, Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, onlarla kənd, qəsəbə və yaşayış məntəqələrinin işğaldan azad edilməsi, qədim Xudafərin körpüsünə Azərbaycan bayrağının sancılması ilə bağlı səfiri məlumatlandırıb.

Səfir Bilal Haye Pakistanın həmişə Azərbaycanın yanında olduğunu bildirib.

Görüşdə iki ölkə arasında hərbi-texniki sahədə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivlərinə dair fikir mübadiləsi aparılıb.

# Azərbaycanla İranın energetika sahəsində əməkdaşlığı müzakirə olunub

Energetika naziri Pərviz Şahbazov ilə İran İslam Respublikasının Azərbaycandakı səfiri Seyid Abbas Musəvi arasında videokonfrans formatında görüş keçirilib. Görüşdə Azərbaycan və İran arasında energetika sahəsində ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib.

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazir səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edib və ona uğurlar arzulayıb. Daha sonra səfirə Ermənistanın son hərbi təxribatları və Azərbaycanın öz ərazisində apardığı əks-hücum əməliyyatları barədə məlumat verilib. Bildirilib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın şəhər və kəndlərinə ağır artilleriya və raket qurğuları vasitəsilə hücumları nəticəsində sentyabrın 27-dən bu günədək 91 mülki şəxs qətlə yetirilib, 400 nəfərdən çox yaralanıb.

Səfir Ermənistanın hərbi təxribatları nəticəsində Gəncə, Bərdə, Tərtər şəhərlərində, həmçinin münaqişə zonasından kənar digər bölgələrdə həlak olanlarla bağlı Azərbaycan xalqına, şəhid ailələrinə və yaxınlarına başsağlığını çatdırıb. Ölkəsinin rəsmi mövqeyinin dəyişməz qaldığını bildirərək münaqişənin Azərbaycanın ərazi bütövlüyü və suverenliyi çərçivəsində həllinin vacibliyini qeyd edib. O, eyni zamanda Azərbaycanın işğal altında olan torpaqlarının Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi münasibətilə təbriklərini çatdırıb. P.Şahbazov hazırda İranla birgə həyata keçirilən layihələr, onların icra vəziyyəti və görülən işlər barədə fikirlərini bildirib, həmçinin illərdir davam edən uğurlu əməkdaşlığa səfir Seyid Abbas Musəvinin töhfə verəcəyinə əminliyini ifadə edib.

Görüşdə İranla neft-qaz, elektroenergetika sahələrində əməkdaşlığın mövcud vəziyyəti, birgə layihələrin icrası və digər məsələlər müzakirə olunub.

# Azərbaycanın işğal olunmuş ərazilərində muzdlu kimi istifadə edilən "Zouaves Paris" qruplaşmasının lideri barədə cinayət işi başlanıb

Dövlət səviyyəsində terroru dəstəkləyərək terrorçuluğu təcavüzkar siyasətinin əsas vasitələrindən birinə çevirmiş Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən təxirəsalınmaz tədbirlərin görülməsi davam etdirilir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən bu tədbirlərin davamı kimi, Fransa Respublikasının vətəndaşı, Parisdə zorakılığın əsas təhrikçisi olan Fransanın ekstremist "Zouaves Paris" (ZVP) qruplaşmasının lideri, özünü sosial şəbəkələrdə faşist adlandıran və terrorçu qruplaşma olan "SS" faşist təşkilatının simvolikasından istifadə edən Mark De Kakkere-Valmenirin və digərlərinin Azərbaycan Respublikasının ərazisində törətdiyi cinayət əməllərinə dair toplanmış materiallar, habelə kütləvi informasiya vasitələri və sosial media səhifələrində aşkarlanmış məlumatlar üzrə Azərbaycan Respublikası Baş Prokurorluğunda araşdırma aparılıb.

Araşdırmalarla qeyd olunan cinayətkar birlik və üzvlərinin 2020-ci ilin oktyabrında Ermənistanın aidiyyəti dövlət qurumlarının təşkilatçılığı və dəstəyilə Ermənistana gələrək Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində olan digər şəxslərlə cinayət əlaqəsinə girib cinayətkar birlik halında Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış dövlət sərhədini müəyyən edilmiş sənədlər olmadan və dövlət sərhədinin nəzarət-buraxılış məntəqələrindən kənarda, yəni Ermənistan ərazisindən qanunsuz keçərək Xankəndi şəhərinə və işğal altında olan digər yaşayış məntəqələrinə gəlmələri, Azərbaycan Respublikasının dinc vətəndaşlarına və antiterror əməliyyatlarını həyata keçirən silahlı qüvvələrinə qarşı Ermənistanın siyasi-hərbi rejimi tərəfindən muzdlu kimi istifadə edilmələri müəyyənləşdirilib.

Bundan başqa, cinayətkar birlik üzvlərinin döyüş sursatlarından, hərbi texnikadan istifadə edib atəşlər açaraq xüsusi amansızlıq və ümumi təhlükəli üsulla, milli düşmənçilik niyyəti ilə, habelə döyüş əməliyyatlarında iştirak etməyən dinc sakinlərə qarşı çoxsaylı cinayət əməllərinə yol vermələri, ictimai təhlükəli nəticələrin baş verməsi təhlükəsi yaradan partlayış, yanğın və ya digər hərəkətlər törətməklə Azərbaycan Respublikası vətəndaşlarına qarşı terrorçuluq fəaliyyətində iştirak etmələri aşkar edilib.

Faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 318.2-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələri ilə cinayət işi başlanılıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə həvalə edilib.

Hazırda qeyd edilən cinayət işi ilə əlaqədar Baş Prokurorluq tərəfindən Fransanın aidiyyəti dövlət qurumlarına hüquqi yardımın göstərilməsi haqqında vəsatət hazırlanır.

Eyni zamanda xəbər verildiyi kimi, Ermənistan Respublikasının vətəndaşı Vladimir Vartanov və qeyrilərinin müxtəlif ölkələrin vətəndaşları olan erməni əsilli və digər şəxslərdən ibarət "VoMa" ("Voxj Mnalu Arvest" - sağ qalmaq sənəti) adı altında Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmayan silahlı birləşmə yaratmaları, birləşmə üzvlərinə terrorçuluq məqsədilə təlim keçmələri, işğal olunmuş ərazilərimizdə terrorçuluq əməllərini törətmələrinə dair Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən başlanmış cinayət işi üzrə Vladimir Vartanov Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, məhkəmənin qərarı ilə barəsində qiyabi həbs seçilməklə istintaq orqanı tərəfindən beynəlxalq axtarış elan edilib.

Hazırda hər iki cinayət işi üzrə intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Türkdilli ölkələrin ombudsmanlarının onlayn iclası keçirilib

**Noyabrın 4-də türkdilli ölkələrin ombudsmanlarının onlayn iclası keçirilib.**

Ombudsman Aparatının Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda Azərbaycan, Türkiyə, Özbəkistan, Qırğızıstan, Qazaxıstan və Şimali Kipr Türk Respublikasının ombudsmanları iştirak ediblər.

İclasda məruzə ilə çıxış edən Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva əvvəlcə Türkiyənin İzmir şəhərində baş verən zəlzələ nəticəsində həyatlarını itirənlərin yaxınlarına başsağlığı verib, yaralananlara isə şəfa diləyib, onların tezliklə sağlamlıqlarına qovuşmalarını arzu edib.

Sonra müvəkkil Türkdilli Ölkələrin Ombudsmanlar Assosiasiyasının yaradılmasının insan hüquqlarının səmərəli müdafiəsi, bu sahədə təcrübə mübadiləsinin gücləndirilməsi baxımından olduqca əhəmiyyətli olduğunu qeyd edib, belə bir birliyin yaradılmasına lazımi dəstəyi verməyə hazır olduğunu bildirib.

S.Əliyeva Azərbaycan ombudsman institutunun Beynəlxalq Ombudsmanlar İnstitutu, Asiya Ombudsmanlar Assosiasiyası Milli İnsan Hüquqları İnstitutlarının Qlobal Alyansı, Milli İnsan Hüquqları İnstitutlarının Avropa Şəbəkəsinin də fəal üzvü olaraq əməkdaşlıq əlaqələrini davam etdirdiyini bildirib.

Müvəkkil COVID-19 pandemiyası ilə bağlı BMT-nin xüsusi məruzəçilərinin bəyanatlarını yaxından izlədiyini, əhalinin həssas qruplarının hüquqlarının təmin edilməsi ilə bağlı aidiyyəti dövlət qurumlarına ünvanlanan tövsiyələri ehtiva edən çağırışlar yayımladığını iştirakçıların diqqətinə çatdırıb. Qeyd olunub ki, mövcud pandemiya ilə əlaqədar ombudsman təsisatında insanların qəbulunun müvəqqəti dayandırılmasına baxmayaraq, ərizə və müraciətlər e-mail, onlayn müraciət, telefon, faks və sosial şəbəkələr vasitəsilə qəbul edilir.



Ombudsman həmçinin sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin məqsədli şəkildə Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərini, Füzuli rayonunun Horadiz şəhərini, Bərdə, Ağdam, Ağcabədi, Beyləqan, Tərtər, Cəbrayıl, Xızı, Abşeron rayonlarını, habelə mülki əhalinin sıx məskunlaşdığı digər yaşayış məntəqələrini ağır artilleriya və raketlərdən istifadə etməklə atəşə tutması barədə iştirakçılara məlumat verib. Vurğulanıb ki, hücuma məruz qalan rayonlarda müvəkkil tərəfindən 5 faktaraşdırıcı missiya həyata keçirilib, mülki əhalinin qətlə yetirilməsi, yaralanması və mülki infrastruktura dəyən ziyan ilə bağlı 7 bəyanat, 2 çağırış və 5 aralıq hesabat hazırlanaraq aidiyyəti beynəlxalq qurumlara göndərilib.

S.Əliyeva həmçinin onun dəvəti ilə Azərbaycana gələrək Gəncə şəhərində mülki şəxslərə raket hücumları nəticəsində baş verən insan tələfatı ilə bağlı yerində araşdırma aparan Türkiyənin baş ombudsmanına təşəkkür edib. O, qeyd edib ki, BMT-nin Təhlükəsizlik Şurasının məlum dörd qətnaməsini heçə sayaraq 30 ildir Azərbaycan torpaqlarını işğal altında saxlayan Ermənistan regionda sülhün bərqərar olmasına real maneədir və beynəlxalq ictimaiyyət buna laqeyd qalmamalıdır.

Müvəkkil Ermənistanın mülki əhaliyə qarşı törətdiyi müharibə cinayətlərinin nəticələrini yerində görüb araşdırmaq məqsədilə türkdilli ölkələrin ombudsmanlarını Azərbaycana dəvət edib.

Tədbir iştirakçıları müvəkkilin qaldırdığı məsələlərin əhəmiyyətini vurğulayıb, Azərbaycan torpaqlarının tezliklə işğaldan azad olunacağına və insan hüquqlarının kütləvi şəkildə pozulmasına son qoyulacağına inandıqlarını bildiriblər.

Tədbir digər məsələlərin müzakirəsi ilə işini davam etdirib.



*Əvvəli 1-ci səh.*

# İLHAM ƏLİYEVİN TARİX VƏ JURNALİSTİKA DƏRSLƏRİ

## Müharibə dövrü beynəlxalq media da savaş meydanına çevrilib

Çaş-baş və özlərini itirmiş vəziyyətində qalanlar hərbi əməliyyatlara müxtəlif səbəblərdən müdaxilə edə bilmədiklərindən gücləri diplomatiya, o da nəticə vermədiyindən informasiya müharibəsində cəmləşdirmişdilər.

Məqsəd Azərbaycanı sülh danışıqlarını pozaraq müharibəyə başlayan, Türkiyə ordusundan kömək alan, döyüşlərdə əcnəbi muzdlulardan istifadə edən, qadağan olunmuş silahları tətbiq edən, demokratiyanı pozan, erməniləri Qarabağdan qovmağa çalışan bir dövlət kimi təqdim etmək, siyasi nüfuzuna xələl gətirmək idi.

**Daim mətbuata açıq, jurnalistlərin istənilən suallarına cavab verməyə hazır olan İlham Əliyev çox qısa bir müddətdə 25 televiziya, informasiya agentliyinə və qəzetə müsahibə verdi.**

Bunların sırasında "Əl-Cəzirə", "Ewronevs", "Sky News", habelə Fransanın "Fiqaro" və "France - 24", Rusiyanın RBK, ABŞ-ın "Fox News", Almaniyanın ARD televiziya kanallarını qeyd etmək olar.

Sonuncu müsahibə isə İtaliyanın "La Repubblica" qəzetinə verilmişdir.

### DAŞ QAYAYA RAST GƏLƏNDƏ

*Biz Prezident İlham Əliyevin "Valday" Beynəlxalq Diskussiya Klubunda, Münxen Beynəlxalq Təhlükəsizlik Konfransında parlaq çıxışını və polemika məharətini, habelə yüksək hazırlığa malik olduğunu görmüşük.*

*Eyni zamanda sözünü demək üçün əlverişli yer və zaman seçməsinə, necə deyərlər, sözü məqamında deməsinə yaxşı bələdik.*

*Onun müsahiblərinə konkret faktlar əsasında "qəfil zərbə" endirərək çaşdırmasına, çıxılmaz vəziyyətə salmasına da dəfələrlə şahid olmuşuq.*

Hərbi əməliyyatlar başlayandan sonra Azərbaycan Prezidenti İlham Əliyevlə təmas qurmaq istəyən KİV-in marağı təkcə yenicə alovlanan müharibə ocağı barədə informasiya toplayaraq yaymaq, həqiqəti söyləmək niyyətindən qaynaqlanmırdı. Bir aydan bir qədər çox müddətdə Prezidentimizlə görüşə gələn 20-dən çox KİV-in bir qisminin erməni diasporunun sifarişini icra etdiyi diqqət çəkən başlıca məqamlardandır. Bunu müsahibə alan jurnalistlərin jurnalistikanın bir sıra mühüm prinsiplərini pozmalarından da aydın görmək mümkündür. Həmin prinsiplər jurnalistlərin beynəlxalq peşə davranışı qaydalarında (ona uyğun olaraq həm də Azərbaycan Jurnalistlərinin Peşə Davranışı Qaydalarında) öz əksini tapmışdır.

**Jurnalistikanın ali məqsədi həqiqəti yaymaq, obyektivlik isə əsas peşəkarlıq meyarı sayılır. Jurnalist müsahibinə istədiyi sualı verməkdə sərbəstdir. Ancaq tərəf nümayiş etdirməməli, qərəzsiz olmalıdır. Müsahibə hörmətlə yanaşmalı, etik normalara ciddi riayət etməlidir. Müsahibinin demək istəmədiyini zorla ona dedirtməyə çalışmamalı, öz fikrini məcburən qəbul etdirməyə cidd-cəhd göstərməməlidir.**

Müsahibə həm də xüsusi janrdır. Burada müxbir şərhinə, jurnalist müdaxiləsinə yol verilmir. Hər şey jurnalistin peşəkarlığından, müsahibini danışdırmaq bacarığından asılı olur. Ona sərf etməyən fikir söyləyən zaman müsahibinin sözünü kəsmək, cavablara açıq şübhə ilə yanaşmaq, xüsusən dirəniş göstərmək və deyilənlərə düzəliş etməyə çalışmaq yolverilməzdir.

Adətən müsahibin kimliyi, hansı səviyyə sahibi olduğu da nəzərə alınır. Ona uyğun müxbir seçilir. Jurnalistin özü müsahibəyə diqqətlə hazırlaşmalıdır, redaksiya da ona müəyyən istiqamətlər verə, qarşısına hansısa vəzifə qoya bilər.

Lakin bunların hamısı etik çərçivədə, jurnalistikanın mühüm prinsiplərinə əməl olunmaqla icra edilməlidir.

Prezident İlham Əliyevlə müsahibələrə baxdıqda nələri dərhal hiss etmək olurdu.

*Əvvəla, jurnalistlərin bir qisminin bu müsahibələri xoş məramla götürmədikləri, kimlərdənsə (indiki halda erməni diasporundan) sifariş aldıqları açıq-aydın duyulurdu.*

*İkincisi, hamısı eyni sualları verib ( müxtəlif şəkildə fərqləndirilsə də), eyni məsələni qabartmağa çalışırdılar.*

*Üçüncüsü, eşitdiklərini həqiqət kimi təqdim edərək suala israrla cavab almağa can atırdılar.*

Məsələn, bütün müsahibələrdə səsləndirilən suallar təxminən aşağıdakılardır:

* Müharibəyə niyə başladınız?

* Türkiyə niyə sizə kömək edir?

* Müharibə ilə ölkəniz daxilindəki problemləri başqa səmtə yönəltmək istəyirsiniz?

* Türkiyənin F-16 təyyarələri niyə Azərbaycandadır?

* Siz tərəfdən muzdlular döyüşür?

* Etnik təmizləmə aparmaq istəyirsiniz?

* Niyə müharibəni dayandırmırsınız və s.

**Lakin Azərbaycanın dövlət başçısı bu sualların hər birinə son dərəcə təmkinlə, soyuqqanlılıqla cavab verir, məsələnin mahiyyətini səbirlə izah edir, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini və dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirirdi.**

Necə deyərlər, daş qayaya rast gəlirdi!

### YERSİZ GƏLDİ, YERLİ QAÇ

Jurnalistlər vasitəsilə səsləndirilən əsas suallardan biri ermənilərin bu ərazilərdə lap qədimlərdən yaşamaları ("ən qədim millət və ən qədim zəngin mədəniyyətə malik xalq" tezisinə uyğun olaraq) barədə olurdu!

Əslində, bu sualın əsl mahiyyəti belə idi: ermənilər əvvəldən burada yaşayıblar, işğal etdikləri ərazi onlarınkı olub, niyə yerlərindən qovursunuz?!

*Bəlkə də bu sualı verən (verdirən yox) onun gülünc səslənməsinin mahiyyətinə varmırdı.*

**Ancaq cənab İlham Əliyev özünü o yerə qoymayaraq 1805, 1813 və 1828-ci il Kürəkçay, Türkmənçay və Gülüstan müqaviləsinə əsasən ermənilərin sonralar - XX əsrdən Qarabağ və Şuşa xanı İbrahimxəlil xanla rus generalı Sisianovum imzaladıqları müqaviləyə əsasən, bu torpaqlarda yerləşdirildiklərini, qədim Azərbaycan şəhəri İrəvanın isə onlara paytaxt kimi verildiyini söyləyərək həm də tarix dərsi keçirdi.**

Üstəlik, tarixi mənbənin yerini də göstərirdi: internetə girməklə həmin sənədlərlə özünüz də tanış ola bilərsiniz!

*Həm də başa salırdı ki, yerli əhali azərbaycanlılardır, indi isə yersiz ermənilərə yerlərini göstərirlər!*

### QARA MƏNİ BASINCA

Öyrədilmiş jurnalistlərin ən çox hallandırdıqları faktlardan biri Şuşadakı kilsəyə, guya, bizim zərbə endirərək onu zədələməyimizlə bağlıdır.

Münaqişənin başlanmasından ermənilər məsələyə daim dini don geyindirməyə, beləliklə, həm işğal faktını gizlətməyə, həm də dünya xiristianlarını öz müdafiəçilərinə çevirməyə çalışmışlar.

*Azərbaycan tolerant ölkədir. Biz hansı dinə sitayiş etməsindən asılı olmayaraq bütün millətlərə və xalqlara eyni nəzərlə baxırıq, hər bir dini məbədi Allah evi sayırıq!*

*Heç bir müsəlman Allah evinə xor baxmaz, onu dağıtmaz!*

Heç kim ermənilər kimi orada heyvan saxlayaraq murdarlanmasına yol verməz!

Bu, erməni xislətindən doğan haldır!

**Cənab İlham Əliyevin belə ittiham xarakterli suallara da cavabı aydın və qısa olurdu:**

**Əvvəla, biz bilmirik kilsə kim tərəfindən, qəsdən, ya təsadüfən zədələnib. Zədə cüzidir və bir həftəyə düzəldilə bilər. İkincisi, Bakıdakı erməni kilsəsini təmir edərək qoruyuruq, içərisində isə qədim erməni kitablarını saxlayırıq. Ermənilər isə işğal etdikləri ərazilərdəki məscidlərimizdə donuz və inək saxlayırlar, tövlə kimi istifadə edirlər.**

Ermənistan tərəfdən muzdluların vuruşduğunu bilən jurnalistlər Azərbaycan tərəfində də muzdlular olduğunu söyləyərək "qara məni basınca" prinsipi ilə hərəkət etməyə çalışırlar.

Dövlət başçısı yenə təmkin göstərərək bunun feyk xəbər olduğunu, ilk dəfə bu fikrin kimlər tərəfindən söylənildiyini xatırladaraq, onlardan sübut istədiyini bildirir: "Mən hələ bu iddia ilə bağlı dəlillər istəyirəm, onu isə təqdim edən yoxdur!"

Müharibə ilə bağlı söylədiklərinin təsdiqini tapmayan müxbirlər isə istiqaməti başqa səmtə yönəldirlər.

Almaniyanın ARD televiziya kanalının müxbirinin bir neçə belə cəhdinə diqqət yetirək.

*" - Mən bildiyimə görə, oktyabrın 1-ində Azərbaycanda bir nəfər sülh tələb etdiyinə görə həbs olunub. Bəzi insan haqları ekspertləri, müdafiəçiləri deyirlər ki, Siz bu müharibəyə həm də xalqı ətrafınızda birləşdirmək, demokratiya və insan haqları ilə bağlı ölkədəki problemlərdən diqqəti yayındırmaq üçün başlamısınız.*

*- Bu, tamamilə yanlış qiymətləndirmədir. Birincisi, mənim həbs olunan hər hansı şəxs barəsində məlumatım yoxdur. Əgər adını deyə bilərsinizsə, əgər sizdə adı varsa, mənə deyin. Sizdə adı var?*

*- "Hazırda məndə adı yoxdur, öyrənərəm".*

Qaranlıq otaqda kösöv bulamağa bənzər bu sualın uğursuzluğunu İlham Əliyev uğurlu və sərt şəkildə sonuclayır:

*"- Öyrənəndə mənə deyərsiniz. Beləliklə, biz bu sualı etibarsiz edə bilərik, çünki sizdə ad yoxdur və məndə də bu məlumat yoxdur".*

Bu qiymətləndirmədəki incə istehzanı sezməmək də mümkün deyil!

Jurnalistlərin bir neçə dəfə toxunduqları "ölkədaxili problemlərdən diqqəti yayındırmaq üçün müharibəyə başlamısınız" fikri əslində qeyri-ciddi səslənir. Lakin onun qeyri-ciddiliyi verilən cavabdan sonra tam aydınlığı ilə meydana çıxır.

Prezidentimiz sadəcə Azərbaycandakı mövcud siyasi və iqtisadi vəziyyəti faktlar və rəqəmlər əsasında təsvir etməklə kifayətlənmir:

Pandemiya dövründə iqtisadiyyatımız cəmi 3,9 faiz azalıb. Bu, bəzi Avropa ölkələrində olduğundan xeyli aşağıdır. Azərbaycanda yoxsulluq səviyyəsi 5 faiz, işsizlik səviyyəsi isə 7 faizdir. Bizim konvensiya oluna bilən valyuta ehtiyatlarımız xarici borcumuzdan 6 dəfə çoxdur. Bütün müxalifət partiyaları isə rəsmən torpaqların işğaldan azad edilməsi uğrunda hərbi əməliyyatların başlanmasını dəstəklədiklərini bəyan ediblər.

Sonra isə cənab İlham Əliyev öz təklifini verir:

"Bizdəki mövcud durumu ölkəmizdəki analoji faktlarla müqayisə edin!"

Elə buradaca qeyd edək ki, eyni məntiqlə çıxış edən həmin jurnalistlər belə bir müqayisə aparsalar, kiminləsə müharibəyə özlərində daha çox əsasları olduqlarını görərlər.

**Azərbaycanın isə bir əsası var: torpaqları 30 ildir işğaldadır, düşmən onu sülh yolu ilə geri qaytarmaq istəmir. Güclənmiş dövlətimiz isə bunu özü, həm də çox uğurla icra etməyə başlayıb!**

**Kim bundan narahatdırsa, qoy olsun!**

### ÖZ GÖZLƏRİNDƏ TİRİ GÖRMƏYƏNLƏR

Mətləbə dəxli olmayan suallardan birini də ABŞ-ın "Fox News" televiziya kanalının müxbiri vermişdi. Cavab "öz gözündə tiri görmür, özgə gözündə tük axtarır" məntiqi ilə səsləndi:

*" - Ailə idarəçiliyinə gəlincə, mən bir daha sizin öz ölkənizə diqqət çəkmək istəyirəm, orada mühüm vəzifələri ata və oğul tutmuşdu. Buş ailəsi, Klinton ailəsi, ər və arvad, Kennedi ailəsi və bir çox başqa ölkələrdə. Beləliklə, bu, ABŞ-da baş verənlərdən fərqlənmir".*

Belə cavabı gözləməyən müxbir son cəhdini göstərir:

*" - Lakin onların hamısı demokratik və şəffaf şəkildə seçilmişlər".*

Cavab isə həm sərt, həm də istehzalıdır:

*" - Bəli, xüsusilə ABŞ Ali Məhkəməsinin qərarı ilə seçilmiş Buş".*

Belə bir tutarlı arqumenti gözləməyən müxbir güzəştə gedərək geri çəkilir və müsahibinin gücünü etiraf etməli olur:

*" - Siz Amerika siyasətini bilirsiniz, cənab Prezident".*

Söz duelinin dövlət başçımızın parlaq qələbəsi ilə başa çatması bizim hər birimizdə sonsuz iftixar hissi doğurur.

Analoji vəziyyətə Almaniyanın ARD televiziya kanalına müsahibədə də rast gəlinir. Müxbirin "Nəyə görə Qarabağ Azərbaycan üçün belə önəmlidir? Orada resurslar var, yoxsa bu, bir rəmzi məna daşıyır" sualına da İlham Əliyev təmkinini pozmadan sual-dərslə cavab verir:

*"- Elzas və Lataringe sizin üçün önəmlidir, Bavariya sizin üçün önəmlidir? Yaxud Reyn-Vestfaliya? Bu, bizim torpaqdır, beynəlxalq səviyyədə tanınan bizim ərazimizdir. Bu, resurslar məsələsi deyil. Əsas resurslar burada, Bakıdadır. Bu, ədalət məsələsidir, bu, milli qürur məsələsidir və bu, beynəlxalq hüquq məsələsidir... Biz ədaləti bərpa edirik və biz BMT Təhlükəsizlik Şurasının 27 il ərzində kağız üzərində qalan qətnamələrini icra edirik".*

Dəqiq cavabını alan müxbir, həmin cavabın daxilində xatırladılan incə mətləbi də sezməmiş deyil!

### FƏXR ET, AZƏRBAYCAN!

İyirmidən çox görüb dinlədiyimiz müsahibədə belə maraqlı məqamlar kifayət qədərdir. Bəzən jurnalistlər kiminlə söhbət etdiklərini unudaraq, Prezidentimizin təbirincə desək, özlərini prokuror kimi aparır, etik çərçivədən kənara çıxır, mövzudan uzaqlaşaraq nələrsə isbat etmək üçün dirənir, inad göstərirlər, müsahibin sözünü belə kəsirlər.

Lakin Prezident İlham Əliyev dəmir məntiqi, gətirdiyi təkzibolunmaz faktları, yüksək mədəniyyəti və intellekti ilə daim ucalıqda dayanır, səbir və təmkinlə Azərbaycan həqiqətlərini dünyaya çatdırır.

Bəzən müxbir söylədiyi feyk faktın həqiqiliyini sübut edəcək dəlil tələb edildikdə, "etibarlı mənbə" göstərməklə vəziyyətdən çıxmağa çalışır:

*" - Dəlil "New York Times"dadır. Sizi beş gün əvvəlki məqaləyə yönəldə bilərəm. Orada deyilir ki, Azərbaycanda qətlə yetirilmiş 57 suriyalı döyüşçü Türkiyə sərhədinin o biri tərəfində geri qaytarılaraq Suriyada dəfn olunub. Ailələrinin hamısı təsdiqləyiblər ki, onlar Sizin ordunuzla birlikdə döyüşmək üçün Azərbaycana getmişdilər".*

Jurnalist inadı daha bir "mötəbər mənbə" ilə darmadağın edilir;

*"- Siz Prezident Trampın "New York Times"ı necə adlandırdığını bilirsiniz, xatırlayırsınız?*

*Feyk xəbərlər. Bu, feyk xəbərdir. Heç bir dəlil, heç bir sübut yoxdur. Bizə dəlil verin".*

**Əslində, cənab İlham Əliyev bu müsahibələri ilə həm də xarici KİV-də dünya erməniliyinə qarşı mübarizə aparır, onların əməllərini ifşa edirdi.**

**Həm də Azərbaycanın haqlı, ədalətli mövqeyini göstərməklə;**

**Ordumuzun düşmən üzərindəki qələbələrini xatırlatmaqla;**

**Ərazilərimizin işğaldan təmizləndiyi barədə qürurlu faktlardan söz açmaqla;**

Hər birimiz Prezidentimizin bu möhtəşəm müsahibələri ilə fəxr duyuruq, məmnun qalırıq!

**Bu müsahibələr həm də jurnalistikanın qızıl fonduna düşəcək, dərsliklərdə istifadə oluna biləcək nümunələr sırasındadır.**

**Fəxr et, Azərbaycan!**

**Bəxtiyar SADIQOV**

# Yaponiya Ermənistan-Azərbaycan münaqişəsinin BMT-nin qətnamələri əsasında həll olunacağına inanır

Noyabrın 4-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova Yaponiyanın Azərbaycandakı səfiri Vada Cüniçi ilə görüşüb.



Dövlət Komitəsinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, komitə sədri Bahar Muradova Azərbaycan ilə Yaponiya arasındakı diplomatik əlaqələrin faydalı əməkdaşlıq şəraitində qurulduğunu və bu münasibətlərin bütün istiqamətlərdə yüksələn xətlə inkişaf etdiyini qeyd edib. O, hər iki ölkənin rəhbərləri, parlamentləri, həmçinin cəmiyyətləri səviyyəsində ikitərəfli əməkdaşlığa əsaslanan münasibətlərin olduğunu bildirib.

Dağlıq Qarabağ münaqişəsi haqqında məlumat verən B.Muradova bildirib ki, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərini, xüsusən də döyüş zonasından uzaqda yerləşən şəhərlərini atəşə tutması və mülki əhalini hədəf seçməsi insan hüquqlarının pozulmasıdır. Komitə sədri ölkəmizdə ailələrin, xüsusən qadınların, uşaqların münaqişədən əziyyət çəkdiyini bildirib. Qeyd edib ki, münaqişənin davam etdiyi müddətdə 1 milyondan çox vətəndaşımız qaçqın və məcburi köçkün vəziyyətinə düşüb, ailə başçısını itirən ailələr və valideynlərini itirən uşaqlar olub. Diqqətə çatdırılıb ki, torpaqlarımız azad edildikdən sonra öz evlərinə qayıdacaq insanlar üçün yaşayışın təmin edilməsi dövlətimizin qarşısında duran əsas məsələdir. Bildirilib ki, Komitə hazırda zərərçəkmiş şəxslərin psixo-sosial problemlərinin həlli ilə məşğul olur, lakin sonrakı mərhələdə azad olunmuş torpaqlarda yenidənqurma işlərinin aparılması vacibdir. Müharibə, eyni zamanda, pandemiyanın uşaqların təhsil imkanlarının məhdudlaşdırılmasına səbəb olduğunu diqqətə çatdıran komitə sədri bildirib ki, onlara bu istiqamətdə dəstəyin göstərilməsi vacib məsələdir.

Səmimi qəbul üçün təşəkkürünü ifadə edən səfir Vada Cüniçi münaqişə ilə əlaqədar təkcə Yaponiya hökumətinin deyil, eləcə də bütün Yaponiya xalqının narahatlıq keçirdiyini, xüsusilə də mülki əhalinin həyatlarını itirməsinin onları kədərləndirdiyini bildirib, həlak olanların ailələrinə başsağlığı verib. Yaponiya üçün beynəlxalq sənədlərin əsas götürüldüyünü qeyd edən diplomat Azərbaycan ilə Ermənistan arasındakı bu münaqişənin BMT-nin qəbul etdiyi qətnamələr əsasında həll olunacağına inandığını bildirib.

O, Azərbaycan ilə Yaponiya arasında ikitərəfli diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd olunmasının gələcək əməkdaşlığın genişlənməsinə şərait yaradacağını vurğulayıb. Səfir sosial və iqtisadi sahələr üzrə Azərbaycanda reallaşdırılan layihələrin əhəmiyyətini qeyd edib, ailə məsələləri, qadınların müxtəlif istiqamətlərdə fəaliyyətinin artırılması sahəsində Komitə ilə əməkdaşlığın vacibliyinə diqqət çəkib.

# Türkiyə Gənclər Fondunun nümayəndə heyəti Bərdə terrorunun izləri ilə tanış olub

Azərbaycan Respublikasının Gənclər Fondunun dəvəti ilə ölkəmizdə səfərdə olan Türkiyə Gənclər Fondunun nümayəndə heyəti Bərdəyə səfər edib.








Azərbaycan Gənclər Fondundan AZƏRTAC-a bildiriblər ki, səfər zamanı türkiyəli gənclərə ölkəmizdə yüz minlərlə dinc sakinin otuz ilə yaxındır Ermənistanın davamlı təcavüzündən əziyyət çəkdiyi bildirilib. Qeyd olunub ki, düşmən döyüş meydanındakı məğlubiyyətinin acısını mülki əhalimizə terror törətməklə çıxır.

Son günlərdə törədilmiş belə müharibə cinayətlərindən biri də 100 min əhalinin yaşadığı Bərdə rayonunun hədəfə alınmasıdır. Oktyabrın 27-də və 28-də Bərdə şəhərinin beynəlxalq səviyyədə qadağan edilmiş kasetli raketlərlə atəşə tutulması nəticəsində isə 1 uşaq, 8 qadın olmaqla 27 dinc sakin həlak olub, çoxlu sayda mülki şəxs xəsarət alıb.

Ermənistanın Bərdədə törətdiyi terrorun izləri ilə tanış olan Türkiyə Gənclər Fondunun (TÜGVA) nümayəndə heyəti gördüklərindən dərin təsirləndiklərini bildirib, törədilmiş müharibə cinayətləri qarşısında kədər hisslərini gizlədə bilməyiblər.

Bərdə şəhərinə səfər zamanı cəbhəyanı bölgələrdən sığınacaqlara yerləşdirilmiş ailələri də ziyarət edən nümayəndə heyəti oradakı azərbaycanlı ailələrlə söhbət edərək, ehtiyaclarını öyrənib və bu hadisələrdən zərər görmüş ailələrə bağlamalar veriblər.

Türkiyə Cümhuriyyəti Gənclik Vəqfinin baş direktoru Enes Eminoğlu bildirib ki, Ermənistanın yüz illər boyu türk dünyasına, xüsusən Türkiyə və Azərbaycana qarşı apardığı düşmənçilik siyasətini qınayır. Bundan sonra da iki qurumun qeyd edilən məsələlərə qarşı beynəlxalq arenada birgə mübarizə aparacaqlarını bəyan edən Enes Eminoğlu gələcəkdə baş tutacaq birgə fəaliyyətin daha da genişləndirilməsi məqsədilə iki qurum arasında işçi qrupunun yaradıldığını qeyd edib. Bu qrupun əsas məqsədi Azərbaycan və Türkiyənin haqq səsinin bütün dünyaya çatdırılmasıdır.




# Müdafiə Nazirliyi xəbər verir

## *Anar EYVAZOV:* "Hazırda qoşunlarımız döyüşləri tam üstünlüklə davam etdirir"

Ötən sutka ərzində düşmənin bölmələri Ermənistanın Berd rayonu istiqamətindən Tovuz və Ağstafa rayonlarında yerləşən mövqelərimizi və cəbhənin müxtəlif istiqamətlərində ordumuzun digər mövqelərini, o cümlədən Ağdam, Ağcabədi, Tərtərdəki yaşayış məntəqələrimizi atıcı silahlardan, top və minaatanlardan atəşə tutub.




Döyüş əməliyyatları əsasən cəbhənin Ağdərə, Tərtər, Ağdam, Xocavənd, Zəngilan və Qubadlı istiqamətlərində davam edib.

AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 4-də Hərbi İnformasiya Mərkəzində keçirdiyi brifinqdə bildirib.

Mətbuat katibi deyib ki, Ağdərə, Ağdam və Xocavənd istiqamətlərində hücuma keçməyə cəhd edən düşmən bölmələrimizin qəti cavab tədbirləri nəticəsində şəxsi heyət və hərbi texnika baxımından itkilər verərək geri çəkilməyə məcbur edilib. Aparılan əməliyyatlar nəticəsində düşmənin 10-cu dağatıcı və 37-ci atıcı diviziyaları, 2-ci motoatıcı, 5-ci dağatıcı və 543-cü alayları ordumuzun ağır zərbələrindən sonra ciddi itkilərə məruz qalıb.

Sutka ərzində düşmənin alay komandiri, tabor komandiri, snayper qrupu və tank heyəti daxil olmaqla, xeyli sayda canlı qüvvəsi, 2 tankı, 3 topu, 1 pilotsuz uçuş aparatı, 3 hərbi yük maşını, "Zastava M-55" tipli zenit qurğusu və şəxsi heyətlə dolu UAZ markalı avtomobili məhv edilib. Hazırda qoşunlarımız əməliyyat sahəsində döyüşləri tam üstünlüklə davam etdirir.

Mətbuat katibi bildirib ki, Ermənistanın hərbi-siyasi rəhbərliyi indi bir tərəfdən çoxsaylı feyk məlumatlar yaymaq və fantastik ssenarilər qurmaqla hansısa "qələbələr"dən danışır. Digər tərəfdən, hədəflərimiz barədə saxta fikirlər aşılayaraq erməni cəmiyyətini Azərbaycan Ordusuna qarşı döyüşə cəlb etməyə çalışır. Bu cür hekayələrlə döyüşə cəlb edilən döyüşçülər müdafiə mövqelərində, yeraltı sığınacaqlarda, topların atəş nöqtələrində və tankların içində ordumuz tərəfindən məhv edilir, geriyə çəkilib itkin və əsir düşür. Ordumuza qarşı asimmetrik döyüş taktikaları ilə mübarizə aparan düşmən qruplaşmaları bölmələrimiz tərəfindən cəbhənin dərinliklərində belə aşkarlanır və onlar darmadağın edilir. Dağlarda, meşələrdə və səngərlərdə mərdliklə vuruşan Azərbaycan əsgəri bağçalarda, məktəblərdə və digər mülki obyektlərdə gizlənən namərd düşmənə qarşı mübarizə aparır.

"Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandanımızın tapşırığı ilə irəliləyərək işğal altında qalan torpaqları düşməndən təmizləyir. Bu fəaliyyətlə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə ciddi riayət edərək yalnız legitim hərbi hədəflərə atəş açır. Qələbə bizimlədir", - deyə Anar Eyvazov vurğulayıb.

## Düşmən Ağdamın, Tərtərin və Ağcabədinin kəndlərini intensiv atəşə tutur

**Noyabrın 4-ü saat 10:00-dan başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Ağdam rayonunun kəndlərini intensiv artilleriya atəşinə tutur.**

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Ordusunun bölmələri tərəfindən düşmənin atəş nöqtələrinə qarşı cavab tədbirləri görülür.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin bölmələri Ermənistan-Azərbaycan dövlət sərhədində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini minaatan və atıcı silahlardan yenə atəşə tutub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 4-ü saat 01:08-dən 08:10-dək Ermənistanın Berd rayonu istiqamətindən Azərbaycanın Tovuz və Ağstafa rayonlarında yerləşən hərbi bölmələrimizin mövqeləri düşmən tərəfindən ara-sıra atəşə tutulub.

❖ ❖ ❖

Tərtər şəhəri və rayonun Şıxarx qəsəbəsi Ermənistan silahlı qüvvələrinin bölmələri tərəfindən artilleriya atəşinə tutulur.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələri noyabrın 4-də səhər saatlarında Ağcabədi rayonunun Boyat, Qaraxanlı və Hacılar kəndlərini ağır artilleriyadan atəşə tutub.

AZƏRTAC xəbər verir ki, artilleriya atəşi nəticəsində kəndlərdə dağıntı və insan itkisi olmasa da, yardımçı binalara, təsərrüfatlara, elektrik xətlərinə ciddi ziyan dəyib.

Qaraxanlı kənd sakini Səhrəman Quliyev müxbirimizlə söhbətində bildirib ki, düşmən kəndi mütəmadi olaraq artilleriyadan atəşə tutur: "Bu səhər ermənilər yenidən kəndə ondan çox mərmi atıblar. Görürsünüz, hər tərəf qəlpə ilə doludur. Düşmənin yaşayış məntəqələrini hədəfə alması biz sakinləri qorxutmur. Bilirik ki, qarşıda güclü ordumuz var. Müzəffər ordumuz torpaqlarımızı işğaldan azad edir. Bu isə bizə daha da güc verir. Tezliklə qələbə qazanacağımıza inanırıq".

Qeyd edək ki, Ağcabədi rayonunun Qaraxanlı kəndinin artilleriyadan atəşə tutulması nəticəsində sentyabrın 27-dən indiyədək 6 ev dağılıb, 50-yə yaxın evə və yardımçı binaya ziyan dəyib.

## Düşmənin zenit qurğusu sıradan çıxarılıb

Azərbaycan Ordusunun bölmələri düşmənin hərbi texnikalarının sıradan çıxarılması üzrə fəaliyyətlərini davam etdirirlər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, noyabrın 3-də günün ikinci yarısında cəbhənin Xocavənd istiqamətindəki yüksəkliklərdən birinə çıxarılmış Ermənistan silahlı qüvvələrinin 1 ədəd "M-55" zenit qurğusu dəqiq atəşlə məhv edilib.

Qeyd edək ki, 1955-ci ildə istehsal edilmiş, yüngül zirehli çoxməqsədli transportyor üzərində quraşdırılmış 20 millimetrlik üç topdan ibarət zenit qurğusu aşağı hündürlükdə uçan hədəfləri və canlı qüvvəni məhv etmək üçün nəzərdə tutulub.

## Cəbhənin Ağdərə istiqamətində kapitan Ando Qrikoryan məhv edilib

Cəbhənin Ağdərə istiqamətində döyüşlərdə iştirak edən Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının bölmələrinə vurulan atəş zərbəsi ilə xeyli sayda şəxsi heyət məhv edilib və döyüş texnikası sıradan çıxarılıb.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, UAZ markalı hərbi avtomobilin sıradan çıxarılması nəticəsində məhv edilən şəxsi heyətin arasında hərbi hissənin zabiti kapitan Ando Qrikoryan da olub.

## Ermənistan tərəfi yenə yalan danışır

Cəbhənin cənub sahəsində Azərbaycan Ordusunun, guya, üç tankının vurulması barədə Ermənistan tərəfinin yaydığı məlumat həqiqətə uyğun deyil və tamamilə yalandır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, cəbhənin Xocavənd istiqamətində Azərbaycan Ordusu düşmən üzərində taktiki, atəş və ərazi üstünlüyünə malikdir. Düşmən ordusu mənəvi və psixoloji baxımdan əzilmiş vəziyyətdə olduğu üçün qarşı tərəf mediada bu cür əsassız xəbərlər yaymaq məcburiyyətindədir.

## Ordumuzun hərbi qulluqçuları mülki əhali ilə davranış qaydalarına əməl edirlər

Hər gün döyüşlərdə üzləşdiyi uğursuzluqlar, verdiyi çoxlu sayda itkilər və itirdiyi vacib mövqelər düşməni müxtəlif üsullara əl atmağa vadar edir.

"Müharibədə bütün vasitələr yaxşıdır" prinsipindən irəli gələrək düşmən artıq Azərbaycan Ordusunun hərbi qulluqçularına qarşı böhtan və qarayaxama kampaniyasına başlayıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistan tərəfinin, guya, Azərbaycan hərbçilərinin Xocavənd rayonunun Tuğ kəndində hərbi cinayətlər törətməsi barədə iddiaları iftiradan başqa bir şey deyil.

Ali Baş Komandanın da vurğuladığı kimi, "biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq". Məhz Ermənistan Gəncə və Bərdə şəhərlərinin dinc sakinlərini vəhşicəsinə raket atəşinə tutmaqla özünün əsl müharibə cinayəti törətdiyini bir daha sübut etdi.

Müdafiə Nazirliyi bildirir ki, Azərbaycan Ordusunun şəxsi heyəti beynəlxalq humanitar hüququn əsası hesab edilən Cenevrə Konvensiyası və digər normativ-hüquqi sənədlərin tələblərinə riayət edir. Bu isə o deməkdir ki, döyüşlərdə iştirak edən hərbi qulluqçularımız mülki əhali ilə davranış qaydalarına əməl edirlər.

## Düşmənin Tərtərə atdığı daha bir fosforlu mərmi zərərsizləşdirilib

**Ermənistan silahlı qüvvələri azərbaycanlı dinc əhaliyə qarşı beynəlxalq konvensiyalarda qadağan olunmuş ağ fosforlu mərmilərdən istifadə edir.**







AZƏRTAC xəbər verir ki, Tərtər rayonunun Səhləbad kəndi ərazisinə atılmış fosforlu top mərmiləri, xoşbəxtlikdən, partlamayıb. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin əməkdaşları (ANAMA) həmin mərmilərdən ikisini noyabrın 3-də zərərsizləşdirmişdi.

Tərkibində ağ fosfor olan üçüncü top mərmisi isə bu gün zərərsizləşdirilib. ANAMA-nın əməkdaşı Mədət Məmmədov məlumat verərək bildirib ki, 122 millimetrlik üçüncü top mərmisi bu gün aşkarlanıb. Bu mərminin də tərkibində ağ fosfor maddəsi var. Mərmi yaşayış məntəqəsindən təxminən 60-70 metr kənara - bağın ərazisinə düşüb və xoşbəxtlikdən, partlamayıb. Belə mərmilər havada partladıqda fosfor və digər qarışıq maddələr geniş əraziyə yayılır və insanların tənəffüs yollarını, ağciyərlərini sıradan çıxarır. Dəri üzərinə düşdükdə isə onu xüsusi maddələrlə zərərsizləşdirmək mümkündür. Əks halda sümüyə qədər yandırır. Bu mərmini xüsusilə mülki əhaliyə qarşı istifadə etmək beynəlxalq hüquqa əsasən qadağan olunub.

Fosforlu top mərmisi partlayış yolu ilə zərərsizləşdirilib.

Qeyd edək ki, fosforlu bombadan istifadənin qadağan edilməsi ilə bağlı müxtəlif beynəlxalq sənədlər var. İlk olaraq 1868-ci ildə Sankt-Peterburq deklarasiyası qəbul edilib. Bundan başqa, müharibə qurbanlarının qorunması haqqında 1949-cu il Cenevrə konvensiyaları və Əlavə protokollar, "Adi silahların konkret növləri haqqında konvensiyaya" III protokol (1980) - həddən artıq ziyan vuran hesab edilə bilən və ya qeyri-seçim hərəkətinə malik adi silahların konkret növlərinin tətbiqinin qadağan edilməsi və ya məhdudiyyət qoyulması barədə konvensiya var. Həmin sənədlərdə qeyd olunub ki, istənilən şəraitdə mülki əhaliyə, ayrı-ayrı mülki şəxslərə və ya mülki obyektlərə yandırıcı silah tətbiq etməklə hücum qadağandır. Ermənistanın bu silahdan istifadə etməsi mülki Azərbaycan əhalisinə qarşı terror, təxribat və mümkün qədər çox qırğın törətmək məqsədi daşıyır.

## Azərbaycan öz ərazisində beynəlxalq hüququ bərpa edir

# Haqq savaşında Azərbaycanın tam qələbəsi uzaqda deyil!

**Bu gün Azərbaycan özünün yeni, real tarixini və zəfərlər tarixini yazır. Mən bir vətəndaş kimi özümü xoşbəxt hesab edirəm ki, bu günlərin sevincini yaşayıram.**



Təəssüf hissi ilə qeyd edirəm ki, 1990-cı illərin əvvəllərində xalqımızın düçar olduğu nisgilli günləri, o kədərli günlərin acısını çəkən insanların ölkəmizdə hökm sürən özbaşınalığın, hərcmərcliyin, səriştəsizliyin, tayfa davasının qurbanı olduğunu gözlərimlə görmüşəm. Bugünkü uğurlarımızı da, bu uğurlarımıza görə canından keçən cəsur və qəhrəman əsgərlərimizi də görürəm, böyük inam və qətiyyətlə onları qələbəyə aparan Ali Baş Komandanımızı da! İnanıram ki, gələcək nəsillər onları böyük fəxrlə həmişə yad edəcək və bu fədakar insanların nəvə-nəticələri olmaları ilə öyünəcəklər.

Bu gün isə Azərbaycandakı birliyi, həmrəyliyi, vətənpərvərliyi, eləcə də bütün xalqın cənab Prezidentin, Ali Baş Komandanın ətrafında sıx birləşdiyini görəndə qəlbim fərəhlə dolur, sevincim yerə-göyə sığmır. Doğma Azərbaycan heç vaxt bu qədər yekdil, bu qədər həmrəy və bu qədər güclü olmamışdır. Zənnimcə, bu gücün mənbəyi də xalqla rəhbərin, ordunun birliyindədir. İkinci Qarabağ savaşının, Vətən müharibəsinin davam etdiyi bir aydan artıq olan qısa müddət ərzində Azərbaycan Ordusu çox böyük uğurlar qazanmışdır, cəsur və qorxmaz əsgərlərimiz düşmən tapdağındakı torpaqlarımızı kəndbəkənd azad edərək inamla hamımızın fəxri, Qarabağın tacı olan Şuşaya doğru irəliləyir. Bu müharibə xalqımızın haqq savaşıdır, zəfər tarixidir. Məhz buna görə də Ulu Tanrı bizimlədir, Haqqın yanındadır!

Bu gün dünyanın bir sıra vicdanlı hərbi ekspertlərini də heyrətə gətirən şanlı zəfərlərimizin gücü, mənbəyi bizim haqq-ədalət uğrunda vuruşmağımızda, heç zaman olmadığı kimi, xalqla dövlətin, Prezidentimizin, Ali Baş Komandanla, Azərbaycan Ordusu ilə, qəhrəman əsgərlərimizlə xalqımızın birliyindədir, həmrəy olmasındadır, hamımızın qələbə naminə yumruq kimi birləşməyimizdədir. Əks halda Azərbaycan Ordusu cənab Ali Baş Komandanın rəhbərliyi altında qısa bir müddət ərzində ATƏT-in, onun Minsk qrupunun və dünyanın üç güclü dövlətinin təmsil olunduğu həmsədrlər institutunun 28 il ərzində edə bilmədiklərini (bəlkə də etmək istəmədiklərini) edə bilməzdi.

İkinci Qarabağ müharibəsi mənfur Ermənistanın iç üzünü də açdı və onun bəzi havadarlarının məkrli planlarını da darmadağın etdi, əsl həqiqəti ortaya qoydu, kimin hansı məzhəbə qulluq etməsini də meydana çıxartdı, hamının iç üzü açıldı. Üzdə sülh effekti yaratmağa çalışan ölkələrin arxada erməni işğalçılarını silahlandırdığı və əslində, Ermənistanın işğalçılıq planlarına rəvac verdikləri məlum oldu. Hörmətli Prezident, Ali Baş Komandan xalqa müraciəti zamanı "Kimdir Ermənistanı silahlandıran, kim verir onlara bu qədər silah-sursatları?" deyərkən, dəqiq ünvanları nəzərdə tuturdu və bu sirr deyil ki, həmin ünvanları hamı tanıyır.

Çox təəssüf ki, bu gün bir sıra ölkələr "kar" və "kor" olduqlarını, sanki heç nəyi görmədiklərini və heç nəyi eşitmədiklərini nümayiş etdirirlər, əslində isə, onlar hər şeyi görürlər də, eşidirlər də. Lakin yenə də "ikili standartlar" amili ortaya çıxır və onlar sanki nə Gəncə qətliamlarını, nə Bərdə vəhşiliklərini nə görürlər, nə də eşidirlər, amma, əslində, hər şeyi görürlər və onlara sərf etmədiyinə görə özlərini görməməzliyə vururlar. Şuşada bir kilsənin günbəzinə dəyən qəlpənin açdığı kiçik oyuğu çəkib bütün dünyaya vandalizm aktı kimi "sırıyan" erməni havadarları Dağlıq Qarabağda bizim yüzlərlə məscidlərimizin və digər dini inanc yerlərimizin dağıdılmasını və təhqir olunmasını, 976 kitabxanamızın 3,6 milyon nüsxə qiymətli kitab fondlarının vəhşicəsinə yandırıldığını, 22 muzeyimizin nadir əşyalarının talanaraq dünya hərraclarında satıldığını, yüzlərlə tarixi abidələrimizin dağıdılaraq yerləyeksan olunduğunu görmürdülərmi? Niyə susurdular? Budurmu ədalət? Bu insanlığa, bəşəriyyətə qarşı cinayət deyildirmi?!

Ancaq Azərbaycan, Azərbaycan Ordusu, əsgəri Ali Baş Komandanın rəhbərliyi altında bu gün dünya düzəninin yeni tarixini yazır, işğal altında olan Vətən torpaqlarımızın azad olunmasını təkbaşına təmin edir, xalqımızın, ordumuzun zəfər salnaməsini yazır, yeni reallıq yaradır! Və inanıram ki, işğalçı Ermənistanı dəstəkləyən dünya gücləri Azərbaycanın qardaş Türkiyə Cümhuriyyətinin mənəvi dəstəyi ilə yaratdığı bu reallıqla gec-tez barışmalı olacaqlar!

Qarabağ Azərbaycandır!

Zəfərləriniz mübarək, Azərbaycan əsgəri, Azərbaycan Prezidenti!

***Kərim TAHİROV,***
***Azərbaycan Milli Kitabxanasının direktoru, Əməkdar Mədəniyyət işçisi, professor***

# Ali Baş Komandan İlham Əliyev qələbəmizin müəllifidir

Vətən müharibəsinin gedişatı göstərir ki, Azərbaycan ən qısa müddətdə Ermənistan üzərində qələbə qazanacaq. Tezliklə torpaqlarımız işğaldan azad ediləcək, ərazi bütövlüyümüz təmin olunacaq. Azərbaycan bayrağı Qarabağın hər yerində dalğalanacaq, tarixi ədalət bərpa ediləcək.



Bu günlərdə dünya erməniliyi yenidən Azərbaycana qarşı informasiya müharibəsinə başlayıb. Hər addımda ölkəmizə qara yaxmağa çalışırlar. Lakin Prezident İlham Əliyev bu informasiya müharibəsində də düşməni darmadağın edir. İndiyədək dövlətimizin başçısı dünyanın tanınmış KİV-inə verdiyi müsahibələrdə düşmənin saxta təbliğatına böyük zərbə vurub.

Ən əsası isə odur ki, bu müsahibələr bir daha Azərbaycan Prezidenti - Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin fitri istedadını, uzaqgörən müdrik siyasətini bütün dünyaya nümayiş etdirdi. İlham Əliyev dərin zəkası, zəngin intellektual səviyyəsi və yüksək mədəniyyəti ilə, dünyanın aparıcı telekanallarına, xüsusilə də əvvəlcədən öyrədilib göndərilmiş qərəzli müxbirlərə böyük səbir və təmkinlə verdiyi cavabları ilə əsl liderliyin nümunəsini ortaya qoydu.

Zəngin, siyasi bilik tələb edən sərrast hazırcavablığı ilə dünyanın diqqətini özünə cəlb edən cənab İlham Əliyev işğalçı Ermənistanın davamlı hərbi təcavüzünə məruz qalan Azərbaycanın öz torpaqlarında beynəlxalq hüququn normalarını təmin etdiyini dünyaya göstərdi. BMT TŞ-nin 30 ildir icra edə bilmədiyi məlum 4 qətnaməsinin tələblərini yerinə yetirdiyini və bu haqlı mübarizədə müharibə qaydalarını pozmadığını, ermənilərdən fərqli olaraq dinc əhaliyə təhlükə yaratmadığını bildirərək, işğalçı Ermənistanı faktlarla dünya ictimaiyyətinin gözü qarşısında ifşa etdi.

Sosializm sisteminin süqutuna səbəb olan kapitalizmin baş ideoloqu, yeni dünya nizamının əsasnaməsi sayılan məşhur "Texnotron era" adlı kitabın müəllifi, siyasi və dövlət xadimi Zbiqnev Bjezinski Ulu Öndər Heydər Əliyev haqqında bəhs edərkən demişdir: "Heydər Əliyevin ölümü ilə dünya siyasətində bir boşluq yarandı!" Ancaq dünyada gedən ictimai-siyasi proseslər onu göstərir ki, əgər o, sağ olsaydı, yəqin deyərdi ki, cənab İlham Əliyevin simasında o boşluq artıq dolmuşdur...

Dağlıq Qarabağ ətrafında cərəyan edən bütün hadisələri əvvəldən-axıra qədər bizdən də çox izləyən və həqiqətləri beynəlxalq ictimaiyyətdən gizlədən, erməni feyklərinin yayılmasına dəstək verən, açıq şəkildə onları müdafiə edərək ədalətsiz qərarlar qəbul edən ermənipərəst siyasi mərkəzlərin hücumlarına sinə gərmək asan məsələ deyil. Ancaq İlham Əliyev onların Dağlıq Qarabağ həqiqətləri ətrafında yaratdıqları 30 illik informasiya blokadasını darmadağın etdi. Əsrlərdir ki, ermənilərin özləri haqqında dünyada yaratdıqları mifi darmadağın etmək və onları heç vaxt olmadığı kimi beynəlxalq ictimaiyyətin gözündən salmaq, doğrudan da, iti zəka, fitri istedad, müdrik zəngin siyasi bilik və hünər tələb edir. İlham Əliyev bunu böyük ustalıqla, yüksək peşəkarlıqla bacardı və reallıqları dünyaya çatdırdı.

Qədirbilən müdrik Azərbaycan xalqı bu günlərdə öz liderini bir daha yaxından tanıdı. Bütün Azərbaycan xalqı bir yumruq kimi rəhbərinin ətrafında birləşdi. Azərbaycan tarixində misli-bərabəri görünməyən, müharibədə qələbəmizə zəmanət verən və heç vaxt sarsılmayacaq bugünkü möhtəşəm ümumxalq birliyi yarandı! Vətənini və xalqını sevən bütün Azərbaycan xalqı bir nəfər kimi cənab İlham Əliyevin, el dili ilə desək, başına and içir. Bu, hamımızı qələbəmiz qədər sevindirir.

Unutmamalıyıq ki, cənab İlham Əliyev ən azı beş cəbhədə vuruşur. Birinci - döyüş cəbhəsində, ikinci - informasiya cəbhəsində, üçüncü - siyasət meydanında, dördüncü - "beşinci kalon"un törtöküntüləri ilə, beşinci - dost kimi görünən düşmən qüvvələrlə... İlham Əliyev bu cəbhələrin hamısında həmişə qalibdir. Çünki Azərbaycan Prezidenti haqqın, ədalətin, sülhün, humanizmin tərənnümçüsüdür.

Bu gün Azərbaycan xalqı xoşbəxtdir ki, onun Prezidenti Ulu Öndər Heydər Əliyev siyasi kursunu davam etdirən, vətəni və xalqını canından, qanından və bütün varlığından artıq sevən cənab İlham Əliyevdir. Zahirən kiçik görünən və daxilən həddən artıq ağır olan bu müharibədə qələbəmizin müəllifi də möhtərəm Prezidentimizdir. Onu göz bəbəyi kimi qorumağa borcluyuq!

Yaşasın müdrik Azərbaycan xalqı! Yaşasın əvəzedilməz Ali Baş Komandan cənab İlham Əliyev! Yaşasın şanlı Azərbaycan Ordusu! Yaşasın bir millət, iki dövlət - Azərbaycan-Türkiyə! Qoy ədalət zəfər çalsın! Qarabağ Azərbaycandır!

***Həsən ŞİRİNOV***







# Zəngilanın əsir abidələri azad edildi

**Zəngilan ən qədim insan məskənlərindəndir. Vaxtilə İran ərazisində Bəxtiyarlılar adlı tayfalar yaşayıb ki, onlardan biri zəngi adlanırmış. XVI-XVII əsrlərdə müxtəlif ölkələrdən əhali qruplarının köç salıb, Azərbaycanın şimalında məskunlaşdıqları dövrlərdə zəngilər gəlib bu ərazidə qərarlaşıblar. Coğrafiya elmləri namizədi Məhəmməd Cabbarov yazır ki, ilk adı Pirçivan, yaxud da Pircavan olan rayona 1930-cu ildə Zəngilan adı, 1967-ci ildə isə şəhər statusu verilib.**

**Zəngilan şəhəri 1993-cü ilin oktyabr ayında Ermənistan tərəfindən işğal edilmiş son Azərbaycan ərazisidir. Beləliklə, Zəngilan 27 il sonra, 2020-ci ilin 20 oktyabr tarixində Azərbaycanın rəşadətli Ordusu tərəfindən azad edilib.**






### Yəhya ibn Məhəmməd əl-Həcc Seyid Əli türbəsi

Zəngilanın özünəməxsus tarixi keçmişi olub. Rayon ərazisindən axan Şərəkə çayının hövzəsində özünün qədim ornamentləri ilə seçilən onlarca türbə var idi. Rayonun Məmmədbəyli kəndindəki səkkizguşəli Yəhya ibn Məhəmməd türbəsinin (1304-1305) ətrafında orta əsr qəbiristanlığı yerləşirdi. Türbədən bir qədər aralıdakı Şeyxzadə Şeyx Abd as-Salam ibn Şeyx Qiyas əd-Dinin (1358-ci ilin yadigarı) məzarı ziyarətgaha çevrilmişdi.

Yazıların xüsusiyyətlərinə, bədii tərtibatına görə Şıxbaba Qədiriyyə sufi xanəgahının fəaliyyət dövrü XIII-XIV əsrlərə aid edilirdi. Bu ərazilərdə həmin əsrlərə aid sənduqə, başdaşı formalı, qoç, at heykəlli qəbir daşlarının üzərindəki ərəb, fars, Azərbaycan dilindən olan yazılar xalqımızın həyat və məişətini əks etdirirdi.

Türbənin giriş qapısının üstündə hüsnxətlə ərəbcə yazılan kitabədə Qurandan ayə, türbənin kimə məxsus olması və nə vaxt tikildiyi qeyd edilirdi. Orada yazılanlardan məlum olurdu ki, o, Yəhya ibn Məhəmməd əl-Həcc Seyid Əlinin türbəsidir.

XIV əsrdə yaşamış məşhur coğrafiyaşünas və tarixçi Həmdullah Qəzvininin yazdığına görə, Zəngilanın əsası hicri tarixinin 15-ci ilində, yəni 636-cı (637) ildə qoyulub. Deməli, Zəngilanın təqribən 1400 ildən artıq yaşı var. Rayonun ərazisində Xudafərin su qovşağının yaradılması ilə əlaqədar burada 1974 və 1979-cu illərdə arxeoloji qazıntı işləri aparılıb. Məlum olub ki, ərazi memarlıq abidələri ilə çox zəngindir. Bunlardan biri Şərifan kəndindəki Şəhri-Şərifan (və ya Şəriban, Şabran) abidəsi idi. Abidənin böyük bir hissəsini Həkərə çayı yuyub apardığından şəhər qalığının ərazisi 9 hektara yaxın qalmışdı.

### İlk insan yaşayış məskənləri...

Şərifanda aparılan qazıntılar zamanı xeyli maddi-mədəniyyət qalıqları aşkar edilib. Arxeoloji materiallara əsasən, şəhər tipli yaşayış məskəni olan Şərifan XIV əsrdə salınıb və XVII əsrə kimi burada yaşayış olub.1976-cı ildə tarix elmləri doktoru Rəşid Göyüşov və Aləm Nuriyev tərəfindən Şəhri-Şərifan adlı qədim şəhər öyrənilib, bir sıra qiymətli maddi-mədəniyyət nümunələri aşkar edilib.

Zəngilan dəfələrlə dağıdıcı, viranedici müharibələrə, təbii fəlakətlərə məruz qalıb. Lakin 1993-cü ilin oktyabr ayının sonuna, yəni erməni vandalları tərəfindən işğalına qədər ərazisində tarixi, arxeoloji, etnoqrafik, memarlıq abidələri və təbii sərvətlər öz varlığını qoruyub saxlayırdı.

Ermənistanın işğal etdiyi Azərbaycanın digər ərazilərində törətdiyi vandallıq, təəssüf ki, Zəngilanda da baş vermişdi. Minilliklərin yadigarları olan tarixi-dini, mədəni abidələrimiz bu məkanda da yerləyeksan edilərək, saxtalaşdırılmışdı. Erməni silahlı birləşmələrinin işğalı nəticəsində təqribi hesablamalara görə, rayona 1 milyard 390 milyon ABŞ dolları məbləğində zərər dəymişdi. Çox qiymətli abidələr dağıdılmışdı.

Bartaz və Keçikli kəndində VI-VII əsrlərə aid olan "Şukrataz" və "Əsgülüm" qalaları, on üç-on dördüncü yüzilliklərin yadigarı Bartazdakı "Xanazur", Malatkeşin ərazisində yerləşən "Dağdağan" və Gəyəlinin pirləri, Zəngilan şəhərindəki məscid, Tağlı qala, Pirçivandakı dəvə piri minillik tarixi əks etdirən arxeoloji tapıntılarla zəngin Dövlət Muzeyi də vandalizmin qurbanlarındandır. Gilətağ ərazisindəki XVI-XVII əsrlərə aid, Sarı Aşlıqla bağlı Günəş abidə piri, Rəzdərədəki Alban türbə kompleksi, İslam dininin Qafqaza gətirilməsi tarixini özündə təsdiqləyən Rəzdərə kənd məscidi, Nizami Gəncəvi dövründən qalma Top körpusu, Yol piri, Qız qalası kimi tarixi, mədəni və dini abidələrimiz erməni şovinist siyasəti nəticəsində yerləyeksan edilib.

Zəngilanın ərazisindəki tarixi abidələr yalnız yuxarıda adları sadalanan deyil. Hacallı kəndindəki dairəvi bürc, Məmmədbəylidəki səkkizguşəli türbə (1304-1305-ci illər), Yenikənddə ziyarətə çevrilmiş XIV əsr türbəsi də tarixi yadigarlar kimi qorunurdu. Rayonun Yeməzli kəndi yaxınlığından tapılmış küp qəbirlərdəki muncuq, sikkə və bülöv daşlar e.ə. IV-II əsrlərə aid edilirdi.

Araz çayının sol sahilindəki Bartaz yaxınlığında, Xanəzir pirinin yüzyüzəlli metrliyində, meşənin dərinliklərindəki bir hissəsi uçub dağılmış alban kilsəsinin divarlarının qalınlığı 1,5 metrə çatırdı. O, sanki Qarababa kəndindəki alban abidəsi ilə eyni memarın əsəri idi.

Vandalizm siyasəti yürüdən daşnakların xalqımızın mənəviyyatına və tarixinə vurduğu yaralar min illər boyu sağalmayacaq qədər dəhşətlidir. Lakin bu gün Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev həmin yaralara məlhəm edir - dağıdılan, məhv edilən abidələrimizi sahibinə qaytarır. Axı hər tarixi, dini və mədəni abidə əsrlərin yadigarıdır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***







# Mərdanə duruşu ilə düşmənə gözdağı olan topçumuz Vüsal Şahkərimovun ailəsindən reportaj

**"Müdafiə Nazirliyinin yaydığı həmin videonu dünən ilk dəfə televizorda izlədim. Gözlərimə inanmadım. İşdən gəlib yorğun yatan atasını oyatdım ki, oğlumuzu televizorda göstərirlər. Qızlarım da gəldi. Televizoru digər kanala çevirdim, gördük oradan da həmin videoçarxı göstərirlər. Gözlərim doldu. Oğlumla fəxr edirəm! İnşallah, bütün işğaldakı torpaqlarımız azad olunsun. Bütün əsgər balalarımız evlərinə sağ-salamat qələbə ilə dönsünlər".**





Bu sözləri qəhrəman topçumuz Vüsal Şahkərimovun anası İlahə Şahkərimova AZƏRTAC-a söyləyib.

Bu həmin topçudur ki, düşmənə atəş açdıqdan sonra mərdanə duruşu ilə hamının rəğbətini qazanaraq, yağıya gözdağı olmağı bacarıb. V.Şahkərimov məğrur görkəmi ilə qəhrəman Azərbaycan döyüşçülərinin əsl gücünü nümayiş etdirib.

Vüsal Şahkərimov 2001-ci il iyunun 29-da Xaçmaz rayonunun Qusarçay kəndində anadan olub. Arif Məmmədov adına Qusarçay tam orta məktəbini bitirdikdən sonra ötən ilin iyul ayında hərbi xidmətə yollanıb.



Babası Ağa Ağayev bildirir ki, Vüsalı televizorda göstərirlər deyəndə kövrəlib. "Özüm də dəfələrlə o kadrları izlədim. Çox sevindim. Öz-özümə deyirdim ki, bu, bizim Vüsaldır? Gördüm hə elə bizim qəhrəman, pəhləvan Vüsaldır. Topdan atəş açıb "Rembo" kimi dayanır. Onda nəvəmlə lap qürur duydum. Müzəffər Ali Baş Komandanımızın rəhbərliyi ilə əsgərlərimiz düşməni torpaqlarımızdan qovurlar. Bayrağımız Şuşada, Xankəndidə dalğalanacaq", - deyə nəvəsi ilə qürur duyan baba söyləyir.

Vüsalın özündən yaşca kiçik iki bacısı var. Yeddi yaşlı Fidan Vətəni qoruyan qardaşı ilə fəxr etdiyini bildirir. "Tezliklə müharibə bizim qələbəmizlə qurtarsın, qardaşım da evimizə qayıtsın", - deyə balaca Fidan söyləyir.

Vüsalın atası İslam Şahkərimov isə kövrəldiyindən fikirlərini ifadə etməkdə çətinlik çəkir. "Ötən ilin iyul ayında, doğum günündə hərbi xidmətə yollanıb. İndi isə onun düşmənə necə zərbələr endirdiyini hamı görür. Bütün əsgərlərimizə qələbə ilə evlərinə dönməyi arzu edirəm".

İndi Vüsal tək Şahkərimovlar ailəsinin, Qusarçay kəndinin yox, bütün Azərbaycanın sevimli, qəhrəman oğludur. Onun kimi qorxmaz əsgər və zabitlərimiz bizə qələbə sevincini yaşatmaqda davam edir. Tezliklə üçrəngli müqəddəs bayrağımız Qarabağın hər yerində dalğalanacaq.



# Arxa cəbhə



## “Qarabağın tam azadlığından savayı heç nəyə ehtiyacımız yoxdur”

### Bu, bir oğlu şəhid, digəri cəbhədə olan əsgər anasının ürək sözləridir

Azərbaycanın haqq savaşı ölkəmizin hərb tarixinə hər gün yeni səhifələr yazır. Bu gün xalqını, vətənini, dövlətini sevən hər kəs “Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!” deyərək bu haqq savaşında əsl birlik, həmrəylik nümayiş etdirir.

Kimliyindən, tutduğu mövqeyindən asılı olmayaraq hər kəs Azərbaycan Ordusunun cəbhədə həyata keçirdiyi uğurlu əməliyyatları, yaşayış məntəqələrimizin bir-birinin ardınca düşmən işğalından azad edilməsini ruh yüksəkliyi ilə qarşılayır.

Əli silah tutan hər bir Azərbaycan övladı dövlət başçısı, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin “İrəli!” əmrini canla-başla yerinə yetirir, vətən qarşısında olan borcunu şərəflə yerinə yetirir. Bağanıs Ayrım, Xeyrımlı, Barxudarlı, Sofulu, Qızılhacılı, Yuxarı Əskipara, Aşağı Əskipara kimi 7 kəndi düşmən tapdağı altında olan Qazaxın igid, mərd oğulları da cəbhəyə könüllü gedənlərin sırasındadırlar. Belə oğullardan biri də Bənnayev Elvin Sabir oğludur.

Şəhid qardaşı olan Elvin Bənnayev Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qazax Rayon Şöbəsinin çağırışı ilə ön cəbhəyə yollanıb. Yollanıb ki, Qarabağı darda qoymasın və bir də 2002-ci ilin noyabrında Tərtər istiqamətində gedən döyüşlərdə şəhid olmuş qardaşı Vüqarın və onun timsalında bütün şəhidlərimizin qisasını alsın.

Ön cəbhədə döyüşən zabit və əsgərlərimizin ailə üzvlərinə diqqət ayırmaq, onlara qayğı göstərmək indi Qazax rayonunda ən vacib məsələlərdən birinə çevrilmişdir. Rayon icra hakimiyyəti belə ailələri daim diqqət mərkəzində saxlayır. RİH başçısı R.Babaşov əsgər ailələrinin üzvlərini qəbul edir, onların arzu və təkliflərini dinləyir. Elə bu günlərdə RİH başçısı Elvin Bənnayevin anası və qızı ilə görüşmüş, onların qayğı və istəkləri ilə maraqlanmışdır.

Bir övladı şəhid olan, biri isə cəbhədə döyüşən Solmaz Bənnayeva ordumuzun qazandığı qələbələri böyük qürurla qarşıladığını bildirmiş, oğlu Vüqarın və onun timsalında bütün şəhidlərimizin qisasının alındığını, onların ruhlarının rahatlıq tapdığını vurğulamışdır. Yeri gələrsə, üçüncü oğlunun da ön cəbhəyə gedəcəyini deyən Solmaz ana Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Ordumuzun daha böyük zəfərlər çalacağına əminliyini söyləmişdir. Bir şəhid anası kimi onlara göstərilən diqqət və qayğıya görə ölkə Prezidentinə minnətdarlıq edən Solmaz Bənnayeva Qarabağın tam azadlığından savayı, heç nəyə ehtiyaclarının olmadığını dilə gətirmişdir.

***Sabir ƏLİYEV,***
***“Azərbaycan”***

## Onlar doğma yurdlarına kiçik iş adamları kimi qayıdacaqlar

**Onlar müzəffər Azərbaycan Ordusunun erməni işğalından azad etdiyi ərazilərimizdən olan özünüməşğulluq proqramı iştirakçılarından bir qrupudur.**

Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan və Xocavənd rayonlarından olan, 30 ilə yaxın davam edən yurd-yuva həsrətinə son qoyulmuş bu vətəndaşlar indi “Artıq biz məcburi köçkün deyilik!” sözlərini qürurla səsləndirirlər.

Məcburi köçkün olduqları dövrdə isə həmişə dövlətin qayğısını hiss etdiklərini deyir, özünüməşğulluq proqramı əsasında onlar üçün kiçik ailə bizneslərinin yaradılmasından da razılıq edirlər. Doğma torpaqlarına ailə biznesləri ilə qayıdacaqlarını, orada öz təsərrüfatlarını daha da inkişaf etdirəcəklərini bildirirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən əsasən həssas əhali qruplarından olan şəxslərin özünüməşğulluq proqramına cəlb olunması işləri davam etdirilir.

Proqramın icrası zamanı əlilliyi olan şəxslər, şəhid ailələri, ünvanlı sosial yardım alan ailələrin üzvləri və digər həssas qruplarla yanaşı, məcburi köçkünlərə də üstünlük verilir. Bu ilin ötən dövründə proqrama cəlb olunanlardan 1305 nəfəri məcburi köçkün olub. Onlardan əksər hissəsinə mal və materiallar formasında aktivlər verilməklə, kiçik ailə təsərrüfatları yaradılıb.

2020-ci il ərzində proqram çərçivəsində 12 min ailənin kiçik biznesə çıxışının təmin edilməsi işləri aparılır.

**2018-ci ilin iyun ayında istifadəyə veriləndən indiyədək TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) Türkiyəyə 7 milyard kubmetrdən çox Azərbaycan təbii qazı nəql edilib. Cari ilin ilk 9 ayında isə TANAP qardaş ölkəyə 3,2 milyard kubmetr qaz çatdırıb.**



## “İlin layihəsi” - TANAP

### Kəməri bu mükafata ABŞ-ın nüfuzlu Layihə İdarəetmə İnstitutu layiq görüb

Kəmər Xəzərin Azərbaycan sektorundakı “Şahdəniz” yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı daşıyır. Onun illik ötürücülük gücü hazırda 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetr olacağı gözlənilir. İlkin mərhələdə TANAP-la nəql olunacaq ildə 16 milyard kubmetr qazın 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri Türkiyəyə ixrac ediləcək.

TANAP-a birləşdirilən TAP-a (Trans-Adriatik Qaz Boru Kəməri) sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub. Xatırladaq ki, TAP Azərbaycan qazını Avropaya çatdıracaq. “Cənub qaz dəhlizi” 3 kəmərin bir-birinə bağlanmasından yaranır ki, bunlar da CQBK (Cənubi Qafqaz Boru Kəməri),TANAP və TAP-dır.

Azərbaycanın və Türkiyənin ən böyük birgə iqtisadi layihələrindən və “Cənub qaz dəhlizi”nin əsas seqmentlərindən olan TANAP qürurverici uğurlara imza atır. Kəmərin layihə idarəçiliyində qazandığı nailiyyətlərə yenisi əlavə edilib. Layihə, proqram və portfel idarəçiliyi üzrə dünyanın ən böyük peşəkar birliklərindən olan, mərkəzi ofisi ABŞ-da yerləşən Layihə İdarəçiliyi İnstitutu (PMI -Project Management Institute) TANAP-ı “İlin layihəsi” kateqoriyasında layihə idarəçiliyi sahəsində nüfuzlu mükafata layiq görüb.

Kəmər tikinti dövründə təhlükəsizlik və keyfiyyət baxımından nail olduğu ən yüksək göstəricilərə və ekosistemlər nəzdində yaratdığı müsbət sosial, iqtisadi və mədəni dəyərlərə görə “İlin layihəsi” elan olunub.

Qeyd edək ki, bu sahədə 50 ildən çoxdur fəaliyyət göstərən PMI dünyada müxtəlif sahələr üzrə 2,9 milyon peşəkar üçün texnoloji dəyərlər yaratmaqla yanaşı, layihə idarəçiliyi proseslərində müəyyənləşdirdiyi standartların tətbiqi proseslərində yüksək təşkilati nəticələrə nail olan və cəmiyyətə müsbət təsir göstərən layihələri mükafatlandırır.

TANAP qısa müddətdə bır sıra digər önəmli mükafatlar da alıb. Keçən il mərkəzi ofisi ABŞ-da yerləşən Marketinq və Kommunikasiya Peşəkarları Assosiasiyası (AMCP) tərəfindən təsis olunan və dünyanın ən nüfuzlu mükafat proqramlarından biri kimi qəbul edilən “Communitas”ın “İctimai Xidmət və Korporativ Sosial Məsuliyyət” mükafatına layiq görülüb. 2019-cu ildə kəməri, həmçinin mərkəzi ofisləri Böyük Britaniyada yerləşən iki qurum da mükafatlandırıb. Bunlar dünya ictimaiyyəti tərəfindən rəğbətlə qarşılanan uğurlu korporativ sosial məsuliyyət layihələrini və kütləvi kommunikasiya fəaliyyətlərini qiymətləndirən “The International CSR Excellence Awards”in “Davamlılıq” kateqoriyasında və beynəlxalq miqyasda ən uğurlu ətraf mühit tətbiqlərini tanıtmaq, mükafatlandırmaq və inkişaf etdirmək məqsədilə qurulan “The Green Organisation”un “Ən yaxşı ətraf mühit tətbiqləri” kateqoriyasında verdikləri mükafatlardır.

TANAP-ın qazandığı digər beynəlxalq uğurlar sırasında “PR Daily”nin Korporativ Sosial Məsuliyyət Mükafatlarında “Cəmiyyətə dəstək” kateqoriyasında birinci yerə layiq görülməsi, eləcə də dünyanın ən nüfuzlu mükafatlarından biri kimi qəbul edilən “Stevie International Business Awards”da “Avropada ilin Korporativ Sosial Məsuliyyət” mükafatını alması da diqqət çəkir.

Xatırladaq ki, uzunluğu 1850 kilometr olan TANAP-ın marşrutu Türkiyə-Gürcüstan sərhədində Ardahan bölgəsindən başlanır. Boru xətti Türkiyənin ərazisində 20 şəhər, 67 qəsəbə və 600 kənddən keçir. Kəmər Türkiyənin Yunanıstanla sərhədində, Ədirnənin İpsala qəsəbəsində sona çatır və burada TAP-a qovuşur.

TANAP-ın səhmlərinin 51 faizi “Cənub qaz dəhlizi” QSC-yə, 7 faizi STEAŞ-a, 30 faizi “Botaş”a, 12 faizi BP şirkətinə məxsusdur. Kəmərin Əskişəhər və Trakyada Türkiyənin ölkədaxili təbii qaz ötürücü şəbəkəsinə bağlanmaq üçün iki çıxış nöqtəsi var. TANAP tezliklə Azərbaycan qazını tikintisi yekunlaşmış TAP-a da ötürəcək.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Azərbaycan sosial sahələrdə də Ermənistanı qat-qat üstələyir

**Təcavüzkarlıq və işğalçılıq siyasəti Ermənistanı digər sahələrdə olduğu kimi, sosial sahədə də tənəzzüllə üz-üzə qoyub. Ermənistan Azərbaycanla təkcə savaş meydanında aciz və məğlub durumda deyil, həm də sosial sahədə ölkəmizdən xeyli geridə olmaqla, getdikcə dərinləşən sosial-demoqrafik böhranın içindədir.**

Ermənistanın siyasi rəhbərliyinin əhalini işğalçılıq müharibəsinə, bu müharibənin yaratdığı sosial-iqtisadi problemlərin mənqənəsində yaşamağa sürükləməsi bu ölkədə mənfi demoqrafik meyillərin kəskin xarakter almasına, əhalinin xarici ölkələrə mühacirətinin kütləviləşməsinə səbəb olub.

Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyinin açıqladığı məlumatda bildirilir ki, 1991-2019-cu illərdə Ermənistandan 1,2 milyon erməni, yəni əhalinin hər üç nəfərindən biri mühacirət edib. Düşmən ölkədə ildən-ilə doğum sayı kəskin azalır, ölüm sayı isə artaraq doğulanların sayını üstələyir.




Ötən il BMT-nin Əhali Fondunun Ermənistan üzrə icraçı nümayəndəsi T.Harutyunyan Ermənistanın demoqrafik böhrana məruz qaldığını və hətta ölüm nisbətinin doğum səviyyəsini aşa biləcəyi mərhələyə yaxınlaşdığını etiraf etmişdi. Bildirmişdi ki, Ermənistanda ağır sosial-iqtisadi durum səbəbindən ailələrdə uşaqların doğulması arzulanmır, ailə qurmaq istəyənlərin isə sayı xeyli azalıb.

Üstəlik, Ermənistanın Azərbaycanla son müharibədə 3-4 milyard dollarla və ÜDM-nin 30 faizi həcmində itki ilə üzləşməsi həmin ölkənin sosial-iqtisadi vəziyyətinin daha da pisləşməkdə davam edəcəyini deməyə əsas verir. Ekspertlər düşmən ölkənin təkcə son müharibədəki ziyanlarını bağlamaq üçün azı 10 il vaxt lazım olacağını qeyd edirlər.

Azərbaycanda isə məqsədyönlü siyasət dayanıqlı sosial-iqtisadi inkişafla və bu da əhali sayının sabit artımı ilə nəticələnir. Təkcə bu ilin 6 ayında Azərbaycanda 60 minə yaxın doğulan körpə qeydə alınıb. Ölkədə doğulanların sayı ölənlərin sayını 2 dəfə üstələyir. Həmçinin yalnız son yarımildə Azərbaycana daimi yaşamaq üçün gələnlərin sayı gedənlərin sayını 2,2 dəfə üstələyib, miqrasiya saldosu müsbət 446 nəfər olub.

Müstəqillik dövründə Azərbaycan əhalisinin sayı 3 milyon nəfər artaraq 10 milyonu ötdüyü halda, Ermənistanda, əksinə, əhali sayı 90-cı illərin əvvəlindəki 3,6 milyondan 2,9 milyona düşüb. Ekspertlər bu rəqəmin azalmaqda davam edəcəyini proqnozlaşdırır.

| | AZƏRBAYCAN | ERMƏNİSTAN |
|---|---|---|
| Əhalinin orta illik sayı, 2020-ci ilin əvvəlinə, (nəfər) | 10 024 300 | 2 962 500 |
| Əvvəlki ilə nisbətən, (nəfər) | 84 500 (artım) | -6 500 (azalma) |

Azərbaycan Silahlı Qüvvələrinin canlı qüvvə baxımından mobilizasiya imkanlarına görə də bu gün Ermənistandan qat-qat üstündür. Belə ki, 18-24, həmçinin 18-54 yaş qrupu üzrə ölkəmizin mobilizasiya imkanı Ermənistandan 4 dəfədən də çoxdur.

Azərbaycanda 18-24 yaşlarında 514 min 200 kişi olduğu halda, Ermənistanda bu rəqəm 127 min 700 olmaqla, 4 dəfə azdır. Yaxud 18-54 yaş qrupu üzrə bu göstəricilər Azərbaycanda 2 milyon 770 min 400, Ermənistanda 717 min 500 nəfərdir və fərq göz qabağındadır: Azərbaycanın bu istiqamətdə də düşməndən 4 dəfə olmaqla 2 milyon 53 nəfər üstün olduğunu görürük.

Sosial ödənişlər sahəsində də Ermənistan nəinki Azərbaycanla müqayisədə xeyli geridədir, hətta MDB ölkələri üzrə sıralamada son yerlərdə qərarlaşıb. Belə ki, Azərbaycan minimum pensiyanın alıcılıq qabiliyyəti indeksi (PPP) üzrə MDB ölkələri və Gürcüstan üzrə sıralamada 1-ci yerdə, minimum əməkhaqqının alıcılıq qabiliyyəti indeksinə görə 2-ci yerdədir. Ermənistan isə bu sıralamalar üzrə son yerləri - müvafiq olaraq 10-cü və 9-cu yerləri tutur. Ümumilikdə Azərbaycanda minimum pensiya Ermənistanla müqayisədə 2 dəfə yüksəkdir.

Əlilliyi olanlara, sağlamlıq imkanları məhdud uşaqlara verilən müavinətin məbləği də Ermənistanda Azərbaycanda olduğundan 2,5-4 dəfə aşağıdır və orada 1-ci dərəcə əlilliyi olan şəxsə, sağlamlıq imkanları məhdud uşaqlara quluq edənlərə heç bir ödəniş edilmir.

Düşmən ölkənin əmək bazarında süstlük hökm sürür. Ermənistanda işsizlik səviyyəsi 20, yoxsulluq səviyyəsi 30 faizdən yüksək olduğu halda, Azərbaycanda bu rəqəmlər müvafiq olaraq 6,9 və 5 faiz təşkil edir. Həmçinin Ermənistanda hər il məşğulluq proqramları müəyyən olunsa da, maliyyə çatışmazlığı ucbatından onlar cəmi 25 faizədək icra oluna bilir.

Son illər Ermənistanda sosial ödənişlərdə nəinki artım olub, hətta bu ödənişlərin ödənilməsində belə çətinliklə üzləşirlər. Azərbaycanda isə təkcə ötən il 4,2 milyon insanı əhatə edən inqilabi sosial paket icra olunub. Minimum əməkhaqqı 2 dəfəyə yaxın, minimum pensiya 72,4, sosial müavinət və təqaüdlər orta hesabla 100 faiz artırılıb, yeni təqaüd növləri təsis olunub, sosial təminatın əhatə dairəsi əhəmiyyətli dərəcədə genişlənib. Son bir ildə ölkəmizdə pensiyanın orta məbləğində 30 faizə yaxın artım qeydə alınıb.

| | AZƏRBAYCAN | ERMƏNİSTAN | FƏRQ |
|---|---|---|---|
| 18 - 24 yaş (nəfər) | 514 200 | 127 700 | + 4 dəfə |
| 18 - 54 yaş (nəfər) | 2 770 400 | 717 500 | + 4 dəfə |

Bu ilin 10 ayında Azərbaycanda pensiya, müavinət, təqaüd, ünvanlı dövlət sosial yardımı üzrə əhaliyə ötən ilin eyni dövrünə nisbətən 22,9 faiz və ya 890,9 milyon manat çox olmaqla 4 milyard 784 milyon manat ödənilib. Yəni Azərbaycanda təkcə sosial sahənin bir istiqaməti - pensiya, müavinət, təqaüd, ünvanlı sosial yardım üzrə ödənilən 4 milyard 784 milyon manatlıq vəsait demək olar ki, elə Ermənistanın ümumi dövlət büdcəsinə bərabərdir ki, bu da Azərbaycanın Ermənistanla müqayisədə nə qədər üstün iqtisadi qüdrətə malik olduğunu göstərir.




Öz vətəndaşlarını işğalçılıq siyasəti naminə özgə torpaqlarında qırğına göndərən Ermənistan həlak olan döyüşçülərinin ailələrinin sonrakı taleyinə tam biganədir. Ermənistan hökuməti həlak olan döyüşçülərin ailə üzvləri üçün təqaüd, mənzil, müharibə əlillərinin avtomobillə təminatı və s. kimi proqramlar nəzərdə tutmayıb.

Həlak olan hərbçilərin ailələri üçün birdəfəlik ödəmələri isə Ermənistan dövləti onsuz da zəif olan büdcəsinə yük düşməməsi üçün işləyən əhalinin gəlirlərindən çıxarır, məşğul şəxslər bunun üçün yaradılmış fonda əlavə sığorta haqları ödəməyə məcbur edilirlər.

Azərbaycanda isə dövlət Vətən naminə şəhid olmuş qəhrəman hərbçilərinin ailələrini, müharibə əlillərini sosial müavinət və pensiya ilə bərabər, Prezidentin aylıq təqaüdləri ilə təmin edir. Ölkəmizdə həmçinin şəhid ailələri və müharibə əlilləri üçün mənzillə təminat proqramları icra olunur. İndiyədək 8300 mənzil və fərdi ev bu kateqoriyadan olan vətəndaşlara təqdim edilib. Həmçinin ötən dövrdə müharibə əlilləri və onlara bərabər tutulanların 6914 minik avtomobili ilə təminatı həyata keçirilib. Şəhid ailəsi üzvlərinin əmək pensiyasına əlavə hesablanır, şəhid ailələrinin övladları, müharibə əlilləri və onların övladları ödənişli əsaslarla təhsil aldıqda, təhsil haqqı dövlət büdcəsi hesabına ödənilir. Ölkənin qanunvericiliyində şəhid ailəsi üzvləri, müharibə əlilləri üçün bir sıra imtiyaz və güzəştlər də əksini tapıb.

Bütün qeyd edilənlər Ermənistanın sosial mənzərəsinin acınacaqlı durumunu və işğalçı ölkənin sosial sahədə də uçurumda olduğunu göstərir.

***“Azərbaycan”***

**Azərbaycanda dövlət dəstəyi ilə yaradılan aqrar sığorta mexanizmi rəsmi olaraq fəaliyyətə başlayıb. Noyabrın 4-də Aqrar Sığorta Fondunda Azərbaycanda dövlət dəstəyi ilə ilk sığorta müqaviləsinin imzalanmasına həsr olunmuş tədbir keçirilib.**



## Dövlət dəstəyi ilə aqrar sığorta mexanizminin tətbiqinə start verilib

Tədbirdə kənd təsərrüfatı naziri İnam Kərimov, Türkiyə Kənd Təsərrüfatı və Meşəçilik Nazirliyinin nümayəndəsi Bekir Engürülü, Türkiyənin TARSİM kənd təsərrüfatı sığortaları təşkilatının rəhbəri Serpil Günal, Azərbaycan Mərkəzi Bankının, Aqrar Sığorta Fondunun rəsmiləri, fermer və sahibkarlar iştirak ediblər.

Kənd Təsərrüfatı Nazirliyinin yaydığı məlumatda qeyd olunur ki, tədbirdə çıxış edən nazir İnam Kərimov Ermənistanın hərbi təcavüzünün aqrar sahəyə təsirsiz ötüşmədiyini bildirib: “Bu hücum nəticəsində təmas xəttində yerləşən kəndlərdə xeyli iri və xırdabuynuzlu heyvan tələf edilib, yem ehtiyatları yandırılıb, on minlərlə hektar əkin sahələrində yığım məhdudlaşıb, kənd təsərrüfatı texnikaları məhv edilib. Ümumilikdə davam edən hərbi təcavüz yüz mindən çox fermerin həyatına təsir edib. Müzəffər Azərbaycan Ordusu Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə uğurlu əks-həmlə əməliyyatlarını davam etdirir, torpaqlarımızı azad etməkdə davam edir. Gələcəkdə işğaldan azad edilmiş torpaqlarda kənd təsərrüfatının inkişaf etdirilməsi nəzərdə tutulur. Artıq bununla bağlı hesablamalara və Fəaliyyət Planının hazırlanmasına başlanılıb”.

Nazir əlavə edib ki, dövlət başçısının rəhbərliyi ilə aqrar sektorda həyata keçirilən ardıcıl islahatlar, fermer və investorlara dövlət dəstəyi nəticəsində aqrar sektor ölkə iqtisadiyyatının sürətlə inkişaf edən sahələrindən birinə çevrilib: “Aqrar sahənin davamlı inkişafının təmin edilməsi baxımından vacib məsələlərdən biri də aqrar sığorta mexanizmidir. Azərbaycanda aqrar sığorta sistemi qardaş Türkiyə Respublikasının TARSİM sisteminin təcrübəsi və dəstəyi ilə formalaşdırılıb. Aqrar sığorta vasitəsilə fermerlər kənd təsərrüfatı heyvanlarını, əkin sahələrini və bitkiçilik məhsullarını, eləcə də akvakulturanı güzəştli şərtlərlə ən aktual risklərdən sığortalaya biləcəklər. Başqa sözlə desək, bu gün işə düşən aqrar sığorta mexanizmi dövlətin aqrar sahəyə dəstəyinin növbəti təzahürüdür. Aqrar sığorta mexanizminin tətbiqi fermerlərə və sahibkarlara dəstək olmaqla yanaşı, kənd təsərrüfatının daha təhlükəsiz biznes sektoruna çevrilməsinə, bu sahəyə yatırımların artmasına səbəb olacaq və ümumilikdə kənd təsərrüfatının inkişafına mühüm töhfə verəcək”.

Tədbirdə çıxış edən TARSİM təşkilatının Himayəçilik Şurasının üzvü, Türkiyə Kənd Təsərrüfatı və Meşəçilik nazirliyinin nümayəndəsi Bekir Engürülü bildirib ki, aqrar sığorta fermerlərin risklərini sığortalamaqla aqrar sahənin maliyyəyə çıxışını asanlaşdıracaq, kənd təsərrüfatının daha dayanıqlı inkişafına şərait yaradacaq. TARSİM kənd təsərrüfatı sığortaları təşkilatının rəhbəri Serpil Günal, Azərbaycan Fermerlər Assosiasiyasının sədri Pərviz İlyasov, Tərtər rayonundan olan fermer Habil İbrahimli çıxışlarında aqrar sığorta mexanizminin fermerlər üçün böyük üstünlüklər yaradacağını bildirib, dövlət dəstəyinin genişləndirilməsinin kənd təsərrüfatının inkişafına müsbət təsir göstərəcəyini vurğulayıblar.

Qeyd edək ki, ölkədə dövlət dəstəyi ilə ilk aqrar sığorta müqaviləsi Ermənistanın davamlı hərbi təcavüzünə məruz qalan Tərtər rayonunun Bəyimsarov kəndində fermer Habil İbrahimli ilə imzalanıb. Həmin müqaviləyə əsasən fermerə məxsus 50 baş iribuynuzlu heyvan aktual risklərdən sığortalanıb. Sığorta haqqının 50 faizi dövlət tərəfindən ödəniləcək, qalan məbləği isə fermer hissələrlə ödəyəcək.

Aqrar sığorta mexanizmi “Aqrar Sığorta haqqında” qanuna əsasən fəaliyyət göstərir. Kənd təsərrüfatı riskləri Azərbaycan Prezidenti İlham Əliyevin fərmanı ilə yaradılan Aqrar Sığorta Fondu tərəfindən sığortalanacaq. Bu mexanizm vasitəsilə kənd təsərrüfatı bitkiləri və məhsullarını, kənd təsərrüfatı heyvanlarını və aqrokultura məhsullarını - balıqları və balıq məhsullarını sığortalamaq mümkündür.

İlkin mərhələdə aqrar sığorta vasitəsilə 1-7 yaşlı südlük inək və camışlar, 14 bitki növü (buğda, arpa, qarğıdalı, kartof, şəkər çuğunduru, portağal, limon, narıngi, çay, çəltik, tütün, üzüm, fındıq, pambıq), eləcə də nohur və hovuzlarda yetişdirilən balıqlar sığortalanacaq. Gələcəkdə aqrar sığortanın əhatə etdiyi sığorta predmetləri və risklərin siyahısı genişləndiriləcək.

Aqrar sığorta çərçivəsində sığortalılarla müqavilələrin bağlanması, hadisə ilə bağlı müraciətlərinin qəbul edilməsi və hadisələrin tənzimlənməsini isə “Aqrar Sığorta Müştərək Sığorta Şirkəti” Açıq Səhmdar Cəmiyyəti həyata keçirəcək.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



Ukrayna Prezidenti Vladimir Zelenski kinorejissor Sarik Andreasyanın Ukraynanın Dağlıq Qarabağda döyüş əməliyyatları aparan Azərbaycana guya hərbi yardım göstərməsi barədə ittihamlarına münasibət bildirib. O, Rusiya feyklərini yaymamağı xahiş edib.

AZƏRTAC xəbər verir ki, Ukrayna dövlətinin başçısı öz mövqeyini Telegram-kanalda şərh edib.

Prezident Zelenski qeyd edib ki, Ukrayna heç vaxt və heç yerə heç bir fosforlu bomba göndərməyib. O yazıb: "Belə əsassız şayiələrin yayılması ilk dəfə deyil. Əvvəlcə Ukrayna haqqında və Donbasda müharibə barədə belə yalanlar deyirdilər. Sonra Ukrayna və Suriyada müharibə barədə eyni yalanlar yayıldı. İndi bu vəziyyət Dağlıq Qarabağda müharibə kontekstində əmələ gəlib. Bütün bunları edən eyni adamlardır".

Kinorejissorun belə bir bəyanatla çıxış etməsindən hiddətlənən Zelenski bəyan edib ki, Ukrayna heç vaxt münaqişənin eskalasiyasının tərəfdarı olmayıb. O yazır: "Müharibə Ukraynaya gələndə, bizim uşaqlarımız həlak olanda sən harada idin? Erməni mənşəli Ukrayna vətəndaşları həlak olanda, - beləlri isə bir və ya iki nəfər deyil, onlarcadır, - şəxsən sən təcavüz əleyhinə nə demisən? Heç nə? Başa düşürəm. Ona görə ki, bu, sənin müharibən deyildi! Bu gün isə qorxuya düşmüsən, çünki bu dəhşət sənin də evinə gəlib".

❖ ❖ ❖




Azərbaycanın haqlı və inamlı mübarizəsi günbəgün müsbət nəticə verməkdədir. Dağlıq Qarabağ işğaldan sürətlə azad edilməkdədir. Terrorçu dövlət olan Ermənistan isə yenə də dinc azərbaycanlı əhaliyə qarşı raket hücumları həyata keçirir, qatil olduğunu bir daha göstərir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milliyyətçi Hərəkat Partiyasının (MHP) sədri Dövlət Bahçeli partiyanın Türkiyə Böyük Millət Məclisindəki qrup toplantısında ifadə edib.

Azərbaycan Ordusunun bütün cəbhə boyu qəhrəmanlıq göstərdiyini diqqətə çatdıran (MHP) sədri Dövlət Bahçeli deyib: "Düşmən nə edirsə etsin, Dağlıq Qarabağ Azərbaycanın olacaqdır. Onların bütün cəhdləri qanunsuzdur. Azərbaycan terrorçuları sonadək qovacaq".

Paşinyanın Rusiya Prezidentinə məktub yazdığını xatırladan partiya sədri vurğulayıb ki, Rusiya dövlət başçısının cavabında münaqişə bölgəsinin Ermənistan sərhədindən kənarda yerləşdiyini bildirməsi olduqca maraqlıdır. Prezident Putinin Dağlıq Qarabağ məsələsi ilə bağlı müzakirələrdə Türkiyənin də olmasına işarə etməsi isə digər mühüm məsələdir.

PKK terrorçuları ilə yallı gedən Paşinyanın sonunun yaxınşadığını diqqətə çatdıran Milliyyətçi Hərəkat Partiyasının sədri bildirib ki, işğalçı ölkənin baş nazirinin də axırı terrorçular kimi, qaranlıqdır.

❖ ❖ ❖



Hazırda geosiyasi vəziyyət tamamilə Bakının xeyrinədir. Azərbaycanın parlaq hərbi taktika və strategiyası xalqı tam və qəti qələbəyə doğru aparır!

Ukrayna Politoloqlar Assosiasiyasının eksperti Rinat Kovbasyuk bu fikirləri AZƏRTAC-a eksklüziv müsahibəsində söyləyib.

O qeyd edib ki, Azərbaycan Ordusu sürətlə modernləşir, ordunun şəxsi heyətinin döyüş ruhu çox yüksəkdir, Azərbaycan xalqı həmişəkindən daha sıx birləşib, buna görə qələbə yaxındır!

R.Kovbasyuk daha sonra deyib: "Azərbaycan şəhərlərinin dinc sakinlərinin atəşə tutulması bütün beynəlxalq konvensiyaların hiddətləndirici şəkildə pozulmasıdır. Həlak olanlar arasında uşaqların və yaşlı insanların olması şok doğurur. Belə dəhşətli insidentlər cəzasız qalmamalıdır, erməni işğalçılar buna görə cavab verməlidirlər. Əlbəttə, bu mürəkkəb məsələnin bir hissəsini müzəffər Azərbaycan Ordusu görəcək, lakin beynəlxalq birlik dərhal bu məsələyə münasibət bildirməlidir. O, Ermənistan hakimiyyət orqanlarının cinayətkar əməllərini sadəcə pisləməklə kifayətlənməyib, konkret tədbirlər görməlidir ki, cinayətkarlar cəzalandırılsın. Axı yaxın günlərdə sənin balaca qızını qətlə yetirmiş canini sülh danışıqlarına çağırmağın nə mənası var! Mən əslində, heç nəyi həll etməyən növbəti qətnamələr qəbul etməklə kifayətlənən, bununla da Ermənistanın cinayətkar fəaliyyətini davam etdirməsinə şərait yaradan insanların üzünü görmək, onların gözlərinin içinə baxmaq istərdim".

Ukraynalı ekspertin fikrincə, indiki məqamda Azərbaycan xalqı daha sıx birləşməli, başa düşməlidir ki, erməni işğalçıların Azərbaycan əhalisi arasında panika yaratmaq üçün göstərdiyi bütün iyrənc cəhdlərin məqsədi Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarından diqqəti yayındırmaq, ölkədə ictimai-siyasi sabitliyi pozmaqdır.

R.Kolbasyuk deyib: "Lakin ermənilərin belə cəhdləri nəinki baş tutmayıb, əksinə, Azərbaycan xalqını daha sıx birləşdirib və Ermənistanın bu cür mənfur əməlləri azərbaycanlıların öz ölkələrinin gələcəyinə inamını zəiflədə bilməz!"

❖ ❖ ❖




Almaniyanın "Deutsche Welle" xəbər agentliyi Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı məqalə yayıb. Məqalədə bir aydan çoxdur ki, Ermənistan və Azərbaycan arasında müharibənin davam etdiyi, üç dəfə əldə edilən atəşkəs razılaşmasının pozulduğu qeyd edilir.

Bildirilir ki, Azərbaycanın Gəncə şəhərinə raket atəşi nəticəsində mülki şəxslər öldürülüb. Azərbaycan erməni qoşunlarının Dağlıq Qarabağdan tamamilə çıxarılmasını tələb edir. Ermənistanın baş naziri rəsmi olaraq Rusiyadan yardım xahiş edib. Rusiya isə bildirib ki, müharibə yalnız Ermənistan ərazisinə keçəcəyi təqdirdə yardım göstərilə bilər.

Məqalədə qeyd edilir ki, Dağlıq Qarabağ münaqişəsi onilliklərdir davam edir. Beynəlxalq hüquqa əsasən bölgə Azərbaycana məxsusdur.

Yazıda Ermənistanın Bərdəyə raket hücumu barədə də məlumat verilir. Bildirilir ki, hücum nəticəsində bir sıra binalar dağılıb, nəqliyyat vasitələri tamamilə yanıb. Məqaləyə Ermənistanın raket atəşi nəticəsində Gəncədə və Bərdədə dağılmış evlərin və infrastrukturun şəkilləri də əlavə olunub.

❖ ❖ ❖




Fransanın "Liberation" qəzetində "Dağlıq Qarabağ: Ermənistan qadağan olunmuş silahlardan istifadə etməkdə ittiham olunur" adlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Azərbaycanın Bərdə şəhərini qadağan olunmuş kaset silahlarından atəşə tutmasının "Amnesty International" və "Human Rights Watch" təşkilatları tərəfindən təsdiqləndiyi qeyd edilib. Bildirilib ki, hər iki təşkilat Ermənistanın Bərdə şəhərini kaset silahları ilə bombardman etdiyini qeyd edib. Bombardman nəticəsində 21 mülki şəxsin öldüyü və 70-nin yaralandığı deyilib. Hər iki təşkilat hadisə yerindən olan şəkillərin Bərdədə "Smerç" raketi və onun 9N235 adlı kaset silahından istifadə olunduğunu təsdiqləyir.

Qeyd edilir ki, kaset silahları mini bombalar ixrac etdiyindən onun dəqiq hərbi hədəfi olmur və buna görə də mülki əhalinin həyatını təhlükəyə atmamaq üçün ondan şəhər mərkəzlərində istifadə etmək beynəlxalq müqavilə ilə qadağan olunur.

❖ ❖ ❖

Bəzi siyasətçilərin və ya "mütəxəssislərin" "parazit" təhlillərinə qərq olan mediamız "zəifliyini etiraf edir" və nəticədə Dağlıq Qarabağ münaqişəsinin səhnələşdirilməsində iştirak edir. Çünki erməni mənşəli həmvətənlərin və ya Ermənistan vətəndaşlarının narahatlıqlarına cavab vermək üçün bir sıra geosiyasi və strateji mülahizələr səsləndirmək və Dağlıq Qarabağ münaqişəsi kimi mövzu ilə bağlı "hədsiz sadə" fikirlər təqdim etmək son günlər dəbdədir. Guya "sevimli" ermənilər dədə-baba torpaqlarını müdafiə edir, "qəddar" azərbaycanlılar isə onlara hücum edirlər...

AZƏRTAC xəbər verir ki, bu fikirlər "AgoraVox" portalında dərc olunmuş "Dağlıq Qarabağ -Fransız mediası düşərgəsini seçəndə"... qərəz ya manipulyasiya?" adlı məqalədə yer alıb.

Məqalədə deyilir ki, təkrarlanan və oradan-buradan gələn müdaxilələr əsl məlumat və faktları əvəz edir. Onlarla sənəd, on illərdir beynəlxalq səviyyədə tanınan sərhədlərin yenidən cızıldığı xəritələr, "görüntülər üzərində dayanaraq" kontekstdən çıxarılan şəkillər, cəlbedici ifadələr, bəzən dostdan, onun da, öz növbəsində, nənəsindən, qardaşından, əmisi oğlundan eşitdiyi rəvayətlər...! Qısası, təxribat xarakterli və elə buradan da erməni "dostlarımız"ın xeyrinə olan səs, söz yığını fransız mediasını bürüyüb.

Müəllif Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son günlər fransız mediasında səsləndirilən birtərəfli mövqelərin, səsləndirilən fikirlərin qərəzliliyinə etiraz edir. Bildirir ki, ölkədə müəyyən qurumlar tərəfindən yaxşı xaos strategiyası təşkil edilib. Son günlər xristian və müsəlman sivilizasiyalarının uyğunsuzluğunu vurğulayan digər aktual məsələlərin arxasında gizlədilən məqamlar açıq-aydın görünür.

Müəllif fransız mediasının obyektiv gözləntilərə cavab vermək, demokratik platforma qurmaq əvəzinə, qərəzli, birtərəfli mövqe tutmasının məyusluq yaratdığını vurğulayıb. Xüsusilə də Ermənistan-Azərbaycan münaqişəsi kimi ciddi problemləri işıqlandırmaq üçün Fransa mediasının daha geniş platforma qurub, hadisələri obyektiv təhlil edəcəyi gözlənilsə də, ölkədə Ermənistana açıq şəkildə üstünlük verən media müharibəsi gedir.

Yazıda Dağlıq Qarabağ münaqişəsi, onun tarixi, azərbaycanlıların doğma yurdundan didərgin salınması, BMT Təhlükəsizlik Şurasının münaqişə ilə bağlı qəbul etdiyi 4 qətnamə, münaqişənin həllində vasitəçilik edən Minsk qrupu haqqında da ətraflı məlumat verilib.

❖ ❖ ❖




Misirin "Aldiplomasy" portalı AZƏRTAC-ın xüsusi müxbiri Oqtay Bayramovun "Azərbaycan müharibədə humanitar qaydalara əməl olunmasını tələb edir" sərlövhəli məqaləsini yayıb.

Məqalədə Misir ictimaiyyətinə məlumat verilir ki, Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-də növbəti hərbi təxribatından sonra əks-hücum əməliyyatı keçirən Azərbaycan Ordusu döyüş meydanında qələbələr qazanaraq 4 şəhəri, 200-dən çox qəsəbə və kəndi işğaldan azad edib.

Məğlubiyyətə uğrayan və darmadağın olan düşmən isə Azərbaycanın Gəncə, Bərdə, Tərtər şəhərlərini, kənd və qəsəbələri raket atəşinə tutur. Humanitar qaydalara əməl etməyən Ermənistan silahlı qüvvələrinin bu hücumlar nəticəsində 91 mülki şəxs həlak olub, 400-dən çox insan yaralanıb. Erməni vəhşiliyinin qurbanları arasında uşaqlar və qadınlar da var. Beynəlxalq hüquq təşkilatları da Ermənistanın dinc əhaliyə və mülki obyektlərə qadağan olunmuş kasetli bombalarla hücum etdiyini bəyan ediblər.

Məqalədə qeyd olunub ki, üç dəfə əldə olunmuş humanitar atəşkəsə belə əməl etməyən Ermənistan öz əsgərlərinin meyitlərini döyüş meydanından götürməkdən və əsirlərin dəyişdirilməsindən də imtina edir.

❖ ❖ ❖

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin (BMTM) şöbə müdiri Cavid Vəliyevin Macarıstanın nüfuzlu ingilisdilli nəşri "The Budapest Times"da "Cənubi Qafqazda döyüşləri nə dayandıra bilər?" sərlövhəli məqaləsi dərc olunub.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, Məqalədə Qarabağda gedən müharibənin başlamasına Minsk qrupunun 27 illik uğursuz vasitəçiliyi və Ermənistanın baş naziri Nikol Paşinyanın təxribatçı addımlarının səbəb olduğu vurğulanıb.

Qeyd edilib ki, sentyabrın 27-də başlayan döyüşlər müddətində 3 dəfə humanitar atəşkəs elan olunmasına baxmayaraq, hər üç halda Ermənistan tərəfi buna riayət etməyib. Müəllif Ermənistanın atəşkəsi pozması, Gəncə və Bərdəyə raket hücumları nəticəsində mülki əhalinin həlak olduğunu vurğulayıb.

Son döyüşlər zamanı Ermənistanın beynəlxalq təcrid vəziyyətində olduğunu bildirən müəllif qeyd edib ki, bu, Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi "hücum diplomatiyası"ndan və ölkəmizin beynəlxalq hüquqa görə ədalətli mövqeyindən irəli gəlib. Bu döyüşlərdə Ermənistanın ən çox dəstək gözlədiyi müttəfiqi Rusiyadan və üzvü olduğu KTMT-dən da yetərli dəstək görmədiyi vurğulanıb.

Məqalədə Azərbaycan tərəfdən guya suriyalı muzdluların döyüşməsi məsələsinə də toxunulub. Bildirilib ki, Ermənistanın bununla bağlı təqdim etdiyi videoların Dağlıq Qarabağa heç bir aidiyyəti yoxdur.

Sonda bildirilib ki, Cənubi Qafqazda uzunmüddətli atəşkəsə yalnız Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasından sonra nail olmaq mümkündür. Döyüşlərin dayandırılması üçün Ermənistanın BMT Təhlükəsizlik Şurasının qətnamələrinə və digər beynəlxalq təşkilatların qərarlarına uyğun olaraq Azərbaycanın işğal altındakı torpaqlarından çıxmalıdır.

❖ ❖ ❖




Xorvatiyanın işgüzar dairələri arasında məşhur olan "Poslovni dnevnik" qəzetində və "poslovni.hr" onlayn portalında "Ermənistan-Azərbaycan münaqişəsinin iqtisadi tərəfləri" adlı geniş məqalə dərc olunub.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin, Ermənistan tərəfindən xarici şirkətlərin iştirakı ilə işğal olunmuş Azərbaycan ərazilərinin təbii sərvətlərinin qanunsuz istismarı barədə geniş hesabatına nəzər salınıb. Qeyd olunub ki, Ermənistan genişmiqyaslı soyğunçuluq yolu ilə Fransa, ABŞ, Kanada, Avstraliya, İsveçrə və Rusiyadan erməni əsilli iş adamlarını və ya erməni diasporu ilə əlaqəli iş adamlarını Azərbaycanın işğal olunan və artıq işğaldan azad edilən ərazilərimizdə qanunsuz iqtisadi və digər fəaliyyətə cəlb edib.

Qanunsuz fəaliyyətlə məşğul olan şirkətlərdən olan "Franck Muller Group" barədə məlumat verilib. Bildirilib ki, bu şirkətin baş icraçı direktoru, erməni separatçı rejiminin nəzarəti altında işğal altında olan Dağlıq Qarabağ bölgəsində olduğu kimi, Ermənistana da ən fəal sərmayəçi olan erməni əsilli Vartan Sirmakesdir. Vartan Sirmakesin iştirak etdiyi layihələrdən biri də Azərbaycanın işğal altındakı Zəngilan bölgəsindəki Vejnəli qızıl yatağının istismarıdır. Qeyd olunub ki, Vardan Sirmakes Kəlbəcərdə Söyüdlü qızıl yatağında da qanunsuz əməliyyatlar həyata keçirib. Bildirilib ki, Azərbaycanın işğal olunmuş ərazilərində 205,3 ton sübut olunmuş qızıl və 251,1 ton gümüş ehtiyatı mövcuddur.

Məqalədə 10 iyun 2020-ci il tarixində Avropa Parlamenti üzvləri tərəfindən Ermənistanla Dağlıq Qarabağ arasında yeni avtomobil yolunun tikintisinin qəbuledilməz olması ilə bağlı Birgə Bəyanatın mahiyyəti oxuculara çatdırılıb. Bir növ "boz zonaya" çevrilmiş ərazilərimizin yalnız Ermənistan deyil, beynəlxalq miqyasda da cinayətkarlar, maliyyə fırıldaqçıları və qanunsuz biznes üçün ideal bir məkana çevrilməsi vurğulanıb.

❖ ❖ ❖

Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi Azərbaycanın Ermənistan ordusu tərəfindən işğal edilmiş ərazilərinin azad edilməsi ilə əlaqədar apardığı hərbi əməliyyatların beynəlxalq səviyyədə dəstək qazanması barədə məqalə yayıb.

AZƏRTAC xəbər verir ki, məqalədə hazırda Ermənistan və Azərbaycan arasında müharibə getdiyi qeyd olunaraq, Azərbaycan




Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi mövqeyini əks etdirən vacib məqamlara yer verilib. Dövlət başçısının noyabrın 2-də Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Baş katibi Bağdad Amreyev və Türkiyə, Özbəkistan və Qırğızıstanın ticarət və sənaye palatalarının rəhbərləri ilə keçirdiyi görüşdə səsləndirdiyi fikirlər malayziyalı oxuculara çatdırılıb.

Qeyd olunub ki, Ermənistanın ölkəmizə qarşı hərbi təcavüzkarlığı müqabilində Azərbaycanın həyata keçirdiyi hərbi əməliyyat dünya miqyasında çox böyük dəstək alıb. BMT-dən sonra ikinci böyük beynəlxalq təsisat olan və özündə 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı, eləcə də İslam Əməkdaşlıq Təşkilatı Azərbaycana dəstək nümayiş etdirib. Həmçinin Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası tərəfindən də Azərbaycana dəstək göstərildiyi, bu məqsədlə önəmli məqamları özündə əks etdirən bəyanatın qəbul edildiyi bildirilib.

Eyni zamanda, məqalədə Azərbaycan Prezidentinə istinad edilərək, Ermənistan-Azərbaycan müharibəsinin artıq bir aydan çox müddətdən bəri davam etdiyi, bu dövr ərzində Azərbaycanın işğal altında olan bir çox yaşayış məntəqəsinin düşməndən azad olunduğu vurğulanıb. Prezident İlham Əliyevin nitqindən aşağıdakı sitat yer verilib: "Biz işğalçılara dərs veririk, onları torpaqlarımızdan qovuruq. Artıq bir çox yaşayış məntəqəsi işğaldan azad edilibdir. Hər həftə onlarla yeni yaşayış məntəqəsi - şəhərlər, kəndlər, qəsəbələr işğalçılardan azad edilir və Müzəffər Azərbaycan Ordusu öz uğurlu əməliyyatlarını davam etdirir".

Məqalənin sonunda Ermənistan-Azərbaycan münaqişəsinin tarixi barədə qısa məlumat verilərək, işğal altındakı Dağlıq Qarabağ və ətraf rayonların beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın tərkib hissəsi kimi tanındığı vurğulanıb.

❖ ❖ ❖



Cəbhədə baş verən son proseslərlə bağlı Ermənistanın Azərbaycana qarşı başlatdığı hərbi cinayətlərin və işğalçı siyasətinin ifşa edilməsi və ölkəmizin haqlı mövqeyinin İsveçrə ictimaiyyətinə çatdırılması istiqamətində paytaxt Bern şəhərindəki Azərbaycan Respublikasının səfirliyi ardıcıl və məqsədyönlü şəkildə işlər aparmaqda davam edir. Bu xüsusda, son olaraq, noyabrın 3-də səfir Xanım İbrahimova İsveçrənin italyan dilli Tiçino kantonunun ən nüfuzlu "RSİ" radiokanalının qonağı olub və son hadisələr barədə dinləyicilərə geniş məlumat verib.

AZƏRTAC xəbər verir ki, proqramda həmçinin qonaq qismində "Venesiyanın Ca 'Foscari" Universitetinin Orta Asiya Tarixi üzrə professoru Aldo Ferrari, Xankəndi şəhərində fəaliyyət göstərən müstəqil jurnalist Filippo Rossi və İtaliyanın Trentoda şəhərindəki Balkanlar və Qafqaz Mərkəzinin tədqiqatçısı Simone Zoppellaro iştirak ediblər.

Tiçino kantonunda erməni lobbisinin ənənəvi olaraq yüksək siyasi dairələrlə əlaqələri və erməni diaspor üzvlərinin müxtəlif mətbuat mərkəzləri ilə sıx əməkdaşlığı çərçivəsində qeyd olunan radio proqramının ən çox dinlənilən vaxtda efirə getməsi mühüm əhəmiyyət kəsb edib.

Səfir Xanım İbrahimova radio proqramda sentyabr ayından etibarən başlayan döyüşlər zamanı üç dəfə humanitar atəşkəsin elan olunduğunu, lakin Gəncə və Bərdə şəhərləri başda olmaqla cəbhə bölgəsindən uzaqda yerləşən digər şəhər və qəsəbələrdə Ermənistanın işğalçı qüvvələri tərəfindən dinc əhaliyə qarşı cinayətlərin törədildiyini və nəticədə çoxlu sayda mülki şəxsin yaralanaraq həlak olduğunu, bununla da elan olunmuş humanitar atəşkəslərin kobudcasına pozulduğunu bildirib.

Suriyadan çoxlu sayda döyüşçünün Azərbaycana gətirilməsi ilə bağlı Ermənistan tərəfindən yayılan xəbərlərin tamamilə yalan olduğunu, bu iddialar ilə bağlı heç bir əsaslı sübutun göstərilmədiyini, Türkiyə Respublikasının isə regionda sabitləşdirici xarakter daşıdığını və Azərbaycanın müttəfiqi kimi mənəvi dəstək verdiyini bildirib. O, həmçinin BMT Təhlükəsizlik Şurasının erməni silahlı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması barədə dörd qətnaməsini bir daha xatırladıb və 30 ilə yaxın davam edən bu ədalətsizliyin davam edə bilməyəcəyini qeyd edib.

Daha sonra, səfir Xanım İbrahimova Ordumuzun uğurlu əməliyyatları nəticəsində işğaldan azad olunmuş Zəngilan rayonunun Vejnəli kəndi ilə bağlı müxbirə məlumat verib, həmin kəndin əlvan metal yataqlarından qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olaraq gəlir əldə edən İsveçrə Konfederasiyasında rəsmi qeydiyyatdan keçmiş şirkətlər və şəxslər barədə diqqətə çatdırıb. Xüsusilə İsveçrə Konfederasiyasının vətəndaşı, "Goldstar" şirkətinin və "Frank Muller" saat brendinin rəhbəri olan erməni əsilli Vartan Sirmakesi ifşa edilib və uzun illər ərzində qızıl yataqlarının qanunsuz istismara məruz qaldığı bildirilib. Məhz bu səbəblə o, Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən işğal olunmuş və artıq işğaldan azad edilmiş ərazilərimizdə qanunsuz iqtisadi və digər fəaliyyətlə məşğul olan fiziki və hüquqi şəxslərin milli və beynəlxalq qanunvericilik əsasda məsuliyyətə cəlb olunacaqlarını açıq şəkildə vurğulayıb.

❖ ❖ ❖




Azərbaycanın münaqişə zonasından uzaqda yerləşən, əhalinin sıx məskunlaşdığı, eləcə də tarixi və mədəniyyət abidələri ilə zəngin olan Gəncə şəhəri, sənaye şəhəri Mingəçevir, Xızı, Abşeron, Ağdam, Ağcabədi, Goranboy, Bərdə, Beyləqan, Tərtər rayonları Ermənistan silahlı qüvvələri tərəfindən raket atəşinə tutulub, nəticədə qadın və uşaqlarda daxil olmaqla, çox sayda mülki sakin həlak olub, evlər dağılıb. Erməni hərbçiləri Azərbaycanın əhalisinə və tarixi irsinə qarşı total müharibə aparır.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycanın UNESCO yanında Daimi nümayəndəsi səlahiyyətlərini icra edən Ayaz Qocayevin "Huffington Post" portalında dərc olunmuş məqaləsində yer alıb.

Məqalədə Ermənistanın silahlı qüvvələri tərəfindən münaqişə zonasından uzaqda yerləşən mülki obyektlərin, mülki infrastrukturun raket atəşinə tutulmasından, məktəblərin, tarixi və mədəniyyət abidələrinin, yaşayış binalarının, fərdi evlərin dağıdılması haqqında məlumat verilib.

A.Qocayev erməni silahlı qüvvələrinin müharibə cinayətlərini, o cümlədən Azərbaycanın mülki əhalisinin hədəfə alınmasını pisləyib. Qeyd edib ki, bununla Ermənistan BMT Təhlükəsizlik Şurasının qətnamələrini, eləcə də beynəlxalq humanitar hüququ kobud şəkildə pozub.

Diqqətə çatdırılıb ki, Qarabağ münaqişəsi ilə bağlı məlumatlarda qərəzliliyə yol verilməməlidir. İnsan hüquq müdafiəçiləri zərərçəkən Azərbaycan xalqının səsini eşitməli, qətlə yetirilən insanların yaxınlarına və yaralanan mülki şəxslərə, müharibə səbəbindən qaçqın çevrilən ailələrə dəstək və yardım göstərməlidirlər.

❖ ❖ ❖

Perunun dövlət televiziya kanalı "TV Peru"nun tanınmış "Geo Mundo" verilişinin 31 oktyabr buraxılışı bütövlükdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə həsr olunub. Veriliş ərzində səfir Məmməd Talıbovun münaqişə haqqında müsahibəsi efirə gedib.

AZƏRTAC xəbər verir ki, müsahibədə səfir Ermənistanın 1988-ci ildən başlayaraq Azərbaycana qarşı ərazi iddiaları irəli sürdüyünü, 1991-94-cü illər ərzində isə Dağlıq Qarabağ və yeddi ətraf rayon olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizini işğal etdiyini, həmin ərazilərdə etnik təmizləmə apararaq bir milyona yaxın azərbaycanlını oradan qovduğunu bildirib.

BMT Təhlükəsizlik Şurası tərəfindən münaqişə ilə bağlı qəbul olunmuş qətnamələrdə Azərbaycan işğal atındakı ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılmasının, məcburi köçkünlərin evlərinə qayıtmasına şərait yaradılmasının tələb edildiyini söyləyən diplomat Ermənistanın işğal faktını qoruyub saxlamaq siyasətindən əl çəkməyərək həmin sənədlərin tələblərini bu günədək yerinə yetirmədiyini, habelə problemin həlli istiqamətində ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarda davamlı şəkildə qeyri-konstruktiv mövqe sərgilədiyini, bu səbəbdən danışıqların 28 il ərzində heç bir nəticə vermədiyini bildirib.

Qeyd edilib ki, Ermənistanın şovinist hökumətinin son iki il ərzində həyata keçirdiyi daha təcavüzkar hərbi-siyasi doktrina, bu ölkənin baş nazirinin danışıqlar prosesinin tamamilə pozulmasına səbəb olan "Qarabağ Ermənistandır və nöqtə", müdafiə nazirinin isə "yeni ərazilər üçün yeni müharibələr" açıqlamaları, iyulda dövlət sərhədinin Tovuz rayonu istiqamətində törədilmiş təxribat, həmçinin təxribat xarakterli digər bəyanat və addımların davamı olaraq işğalçı dövlət sentyabrın 27-dən ölkəmizə qarşı növbəti dəfə hərbi təcavüzə əl ataraq ordumuzun mövqeləri ilə yanaşı, mülki əhalini də hədəfə alıb. Yaranmış vəziyyətdə Azərbaycan Ordusu mülki əhalinin təhlükəsizliyini təmin etmək, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasına nail olmaq və işğal altındakı əraziləri azad etmək üçün özünümüdafiə hüququ çərçivəsində əks-hücum əməliyyatlarına başlayıb.

Regionda sülhün formulunun BMT qətnamələrinin icrası və Ermənistanın işğalçı qüvvələrinin işğal olunmuş Azərbaycan ərazilərindən çıxarılması olduğunu deyən diplomat bunun Minsk qrupu çərçivəsində müəyyən edilmiş baza prinsiplərində də əksini tapdığını bildirib. Səfir qeyd edib ki, Azərbaycan çoxmədəniyyətli ölkədir, hazırda paytaxt Bakıda da erməni əsilli insanlar yaşayır, işğal edilmiş ərazilərdə yaşayan mülki ermənilərlə bağlı heç bir problem yoxdur. Ermənistan silahlı qüvvələri həmin əraziləri tərk etdikdən və azərbaycanlı məcburi köçkünlər geri qayıtdıqdan sonra hər iki xalqın nümayəndələri sülh şəraitində birgə yaşaya bilərlər.

Türkiyənin münaqişədəki rolu ilə bağlı sualı cavablandıran M.Talıbov qardaş dövlətin Cənubi Qafqaz ölkələrinin hər üçü ilə həmsərhəd olan yeganə ölkə olduğunu, regionda sabitləşdirici rol oynadığını, buradakı əsas iqtisadi layihələrdə birbaşa iştirak etdiyini, eyni zamanda, Minsk qrupunun üzvlərindən biri olduğunu və Azərbaycanı dəstəkləyən digər ölkələr kimi, beynəlxalq hüquq mövqeyindən çıxış etdiyini bildirib.

Qeyd edək ki, Ermənistanın Peruda akkreditə olunmuş səfiri ilə də müsahibənin efirə getdiyi verilişin sonunda müəllif münaqişə ilə əlaqədar vəziyyəti şərh edib. Bildirib ki, Ermənistanın Dağlıq Qarabağa iddialarının beynəlxalq hüquq baxımından heç bir əhəmiyyəti yoxdur və ərazilərin işğalı qəbuledilməzdir. BMT Təhlükəsizlik Şurasının 853 saylı qətnaməsinin mətnindən sitat gətirən aparıcı bu sənədin də həmin ərazilərin Azərbaycana aid olduğunu, beynəlxalq hüququn Ermənistandan işğal etdiyi torpaqlardan çıxmasını tələb etdiyini söyləyib.

❖ ❖ ❖

Misir mətbuatı Azərbaycan xalqının Vətən müharibəsi haqqında xəbərlər və videomateriallar yaymaqda davam edir. Ölkəmizin Misirdəki səfirliyi AZƏRTAC-ın materiallarına istinadla torpaqlarımızı düşmən tapdağından azad edən müzəffər Ordumuzun döyüş meydanında qazandığı qələbələr, ermənilərin dinc əhalini və mülki obyektləri hədəfə alması barədə yeni məlumatlar bu ölkənin, habelə ərəb dünyasının ictimaiyyətinə çatdırılır.

"Alvataneamag", "Aldilomasy", "Əl Vəsilə", ""Rayetmisr", "Elghad" informasiya portalları və "Asiaelyoum" xəbər agentliyi Azərbaycan Prezidenti İlham Əliyevin Almaniyanın ARD televiziya kanalına müsahibəsindən əsas məqamları işıqlandırıb.

"Akhbarelyoum" qəzetinin saytında oktyabrın 31-də Ermənistanın diversiya qrupunun əsgərlərimiz tərəfindən məhv edilməsi barədə xəbər və Azərbaycan Müdafiə Nazirliyinin yaydığı videomaterial yerləşdirilib. Həmçinin bu qəzetdə və nüfuzlu "Almasryalyoum" informasiya portalında Ermənistan tərəfindən Azərbaycanın şəhər və kəndlərinə məqsədli şəkildə edilən raket hücumları nəticəsində həlak olan vətəndaşlarımızın sayının 91-ə çatdığı, yaralananların sayının isə 400-dən çox olduğuna dair məlumatlar yayılıb.

Misirin "Gomhuriaonline" informasiya portalında isə Ermənistan silahlı qüvvələrinə məxsus "Su-25" təyyarəsinin zərərsizləşdirilməsi barədə Azərbaycan Müdafiə Nazirliyinin məlumatı dərc olunub.

Biz birlikdə güclüyük!

# Gigiyenaya ciddi riayət etmək və məsuliyyətli olmaq lazımdır

*Əvvəli 1-ci səh.*

Onun sözlərinə görə, xüsusilə planetin şimal yarımkürəsində pandemiya kritik mərhələsindədir: "Önümüzdəki bir neçə ay çox çətin olacaq və bəzi ölkələr ağır vəziyyətdədir". O, xəstəlik hallarının sürətləndiyini deyib və bütün dövlətləri ölümlərin qarşısını almaq üçün müvafiq tədbirlər görməyə çağırıb.

### Yoluxma sayı əvvəlki kritik dönəmdən çoxdur

Digər ölkələrdə olduğu kimi, Azərbaycanda da son dövrlərdə koronavirusa tutulanların sayında artım müşahidə edilir, yoluxma və sağalma halları arasında fərq xeyli böyüyür. Təəssüf ki, hətta yoluxmanın 4 rəqəmli həddə yüksəldiyini, virus səbəbindən ölənlərin sayının artdığını da müşahidə edirik.

Buna görə və həm də sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejiminin müddətini dekabrın 1-dək uzadıb. Eyni zamanda son günlər Lənkəran şəhərində, Cəlilabad və Masallı rayonlarında yüksək yoluxma faktları aşkar olunduğuna görə, həmin rayonlara giriş-çıxış dayandırılıb.

Onu da qeyd edək ki, sözügedən qurumun oktyabrın 29-da imzaladığı qərara uyğun olaraq, ötən gündən bütün təhsil pillələri üzrə tədrisin distant təşkilinə başlanılıb. Bu qərar dekabrın 1-dək qüvvədədir.

TƏBİB-in İnfeksion xəstəlikləri üzrə işçi qrupunun rəhbəri, həkim-infeksionist Vasif Əliyev söyləyib ki, ölkəmizdə COVID-19-a yoluxma ilə bağlı hazırda yüksək göstəricilər qeydə alınır: "Rəqəmlər onu göstərir ki, artıq sanitar-epidemioloji vəziyyət ürəkaçan deyil. Bu baxımdan düşünürəm ki, gedişat hələ yüksəlməyə doğru gedəcək".

O bildirib ki, xəstəliyin inkubasiya dövrü nəzərə alınarsa, vəziyyət nəzarət altına alındıqdan sonra hələ bir müddət yüksəlmələrə doğru gedişatını gözləmək olar: "Təəssüf ki, Azərbaycanda da vəziyyət ürəkaçan deyil. Çünki rəqəmlər yüksəlişə doğru gedir. Düşünürəm ki, vəziyyət yaydakı dövrdən daha da ağır ola bilər. Çünki yoluxma hallarının sayı əvvəlki kritik dönəmdəkindən iki dəfə daha çoxdur".

İnfeksionistin sözlərinə görə, virusa yoluxan insanların vəziyyətində əvvəlki dövrə nisbətən yüngülləşmə var: "Yəni yüngül formada keçirənlər çoxdur. Lakin əvvəllər gənclər xəstəliyi daha çox asimptomatik keçirirdilərsə, indi daha ağır formada keçirənlərə də rast gəlinir. COVID-19-un hətta uşaqlarda da ağır, yüksəkhərarətlə keçdiyini klinik təcrübələrimizdə də görürük. Virusa aid olan əlamətlərin hamısı bir xəstədə hiss edilmir. Lakin əlamətlərin heç biri olmasa da, insan virus daşıyıcısı ola bilər. Bu, xəstəliyin klinik gedişatına əsasən müəyyən olunur. İybilmə, dadbilmənin itməsi bəzi insanlarda heç görülməyə də bilər. Bəzilərində isə uzun müddətə bərpa oluna bilər. Bu baxımdan hər bir insanda klinik əlamətlərin görülüb-görülməməsi individualdır. Əlamətlər insanın immun sisteminə və aldığı virus yükünə bağlı olaraq fərqli formalarda seyr olunur. Hazırda virusun virulentliyi davam edir. Baxmayaraq ki, virus bir ilə yaxındır ki, dünyada tüğyan edir, xəstəlik əvvəlki dövrlərdə olduğu kimi öz təhlükəsizliyini saxlayır".

### Bəzi vətəndaşlar koronavirusu adi qrip hesab edirlər, amma belə deyil

V.Əliyev vurğulayır ki, xəstəliyə təkcə hərarətə görə diaqnoz qoyulmur. Bir sıra amillər araşdırıldıqdan, dəqiqləşdirildikdən sonra diaqnoz müəyyənləşdirilir. Hərarəti olmasa belə insan həmin virusu daşıya bilər. Hətta xəstəliyin ağır formasında da hərarətin müşahidə edilməməsi mümkündür: "Bəzi vətəndaşlar koronavirusu adi qrip hesab edirlər. "Koronavirus bir şayiədir" deyən insanlar da var. Lakin biz bu cəmiyyətdə yaşayırıqsa, virus sürətlə yayılarsa, qaydalara əməl etməsək, hər birimizin ona yoluxma ehtimalı yüksəkdir".

Həkim-infeksionist bildirir ki, qrip hər zaman mövcud idi, koronavirus isə yeni ortaya çıxıb. Onların hər ikisi yuxarı və aşağı tənəffüs yolları infeksiyalarına, pnevmoniyaya səbəb olur və klinik əlamətləri bənzərdir. Bütün əlamətlər hamısı bir insanda görünməyə bilər. Hərarət, ağciyər tutulması, boğaz ağrısı, qarın ağrısı, iştahasızlıq, halsızlıq, baş ağrısı kimi şikayətlər hər iki virusda görülə bilər. İybilmə, dadbilmə kimi əlamətlərin itməsi daha çox koronavirusa aiddir. Lakin bu o demək deyil ki, həmin şikayətləri olmayan xəstə virusa yoluxmayıb. Bu iki virusu ayırd etmənin yeganə yolu laborator diaqnostikadır.

### Virus təkcə ağciyərə deyil, bütün orqanizmə təsir edir

TƏBİB rəsmisi bildirir ki, əlamətləri hiss etdikdə ilkin olaraq həkim müayinəsindən keçmək lazımdır. Xəstəlik hər insanda fərqli formada keçir. Klinik əlamətlərin başlandığı günə əsaslanaraq həkim tərəfindən anamnez toplanmalıdır. Erkən dönəmdə diaqnostika üçün yaxma götürülməsi vacibdir. Nəticəyə əsasən xəstəliyin olub-olmadığına qərar verə bilərik. Test nəticəsi neqativ olsa belə xəstəliyin klinik əlamətləri varsa və xəstədən şübhələniriksə, o zaman ağciyərin kompüter tomoqrafiyasına (KT) ehtiyac yaranır. Virusun ağciyərdə bir görüntü yaratması, bir iltihab formalaşdırması üçün müəyyən bir zaman lazım olduğunu nəzərə alsaq, pasiyent xəstəliyin simptomlarının başlamasından 4-5 gün sonra KT olunarsa, o zaman ağciyərdə bir tutulma görə bilərik. Virusun ağciyəri zədələmədiyi hallar da olur. Bu, xəstəlik daha yüngül formada keçəndə mümkündür. Ümumiyyətlə isə, bu virus təkcə ağciyərə deyil, bütün orqanizmə təsir edir.

Göründüyü kimi, hazırda ölkəmizdə də epidemioloji vəziyyət ürəkaçan deyil. O da reallıqdır ki, mütəxəssislər buna obyektiv səbəblərlə yanaşı, subyektiv halların da yol açdığını bildirir və vətəndaşları məsuliyyətli olmağa çağırırlar.

Hazırkı kritik məqamda pandemiya ilə bağlı nəzərdə tutulmuş ehtiyat və şəxsi gigiyena tədbirlərinə fərdi qaydada riayət etmək çox vacibdir. Buna görə də otaqlar mütəmadi olaraq havalandırılmalı, öskürərkən ağız boşluğu əl və ya dəsmalla, yaxud da dirsəyin bükülən tərəfi ilə örtülməli, əllər tez-tez sabunla yuyulmalı, dezinfeksiyaedici vasitələrdən və maskalardan istifadə edilməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Böyük güclərin gücsüzlüyü

## Aqressiv erməni faşizminə verilən dəstəyin mahiyyəti nədən xəbər verir?

Dağlıq Qarabağ münaqişəsinin ən qısa həlli döyüşən iki tərəfdən kimin işğalçı və kimin təcavüzə məruz qalmasının tanınmasından keçir. BMT-nin 4 qətnaməsi və neçə-neçə beynəlxalq qurumların qəbul etdikləri sənədlərdə aqressorun kimliyi bəllidir.





Lakin bütün bunların fonunda bəzi böyük güclərin təcavüzkar Ermənistana yerini göstərmək əvəzinə beynəlxalq hüquqa sığmayan tərzdə "əzabkeş" erməni faşizmini sanki qəyyumluğa götürmələri başa düşülmür. Üzdə tərəflər qarşılıqlı kompromislərə dəvət edilir, altdan isə aqressor silahlandırılır və bu azmış kimi ona diplomatik və ideoloji dəstək verilir. Nəticədə işğalçı Ermənistan azğınlaşır və Azərbaycan ərazisində törətdiyi bütün cinayətləri erməni xalqının "təkrar genosid"ə məruz qalması kimi təqdim edir.

Atəşkəsin sonuncu illərində həyasızlıqlarının zirvələrində sırtıq-sırtıq qıy vuran erməni nasist liderləri Cıdır düzündə əmbiz atıb "lambada" sındırmaqla, oyuncaq xuntanın paytaxtını Stepanakertdən Şuşaya köçürməyə qərar verməklə Azərbaycan xalqının ən müqəddəs hisslərinə toxundular. Ermənistanda faşizm rejiminin mövcudluğunu etiraf etməyən Minsk üçlüyünün 28 illik "sülh səyləri" onunla nəticələndi ki, ermənilər işğalçı olduqlarını unutdular və Dağlıq Qarabağın "minillik sahibləri" kimi qalibsayağı "zəfər çələngi"ni başlarına qaldırıb nəşələndilər. Beləliklə, törətdikləri vəhşiliklərdən zövq alan, cəzasız qalacaqlarına əmin olan erməni faşistləri "yenilməz cəngavərlər"ə çevrildilər. Və fikirləşmədilər ki, bununla onlar Azərbaycan xalqının səbir kasasını daşdırırlar. Yalnız ağıllarına gəlməyən başlarına gələndə anladılar ki, keflənib Cıdır düzündə göbək atmaqla döyüşdə qalib gəlmək eyni deyilmiş.

28 il idi ki, Azərbaycan sülh danışıqlarında iştirak edir, Ermənistanın işğalçı dövlət kimi tanınmasını, sülhə məcbur edilməsini səbirlə gözləyirdi. Lakin bu illər ərzində verilən bəyanatların heç birində nə Ermənistanın birmənalı şəkildə işğalçı dövlət olması, nə də bu xalqın bütünlükdə faşizmin bataqlıqlarına çökməsi dilə gətirildi. Nəticədə nasizm ermənilərin milli ideologiyasına çevrildi, İrəvanda erməni faşistləri milli qəhrəmanlar elan edildilər, onlara abidələr ucaldıldı.

Amma dünya bunu görmədi. Əksinə, bu günün özündə belə erməni faşizminə göz yumulur. Hamı "əzabkeş xalqın iztirabları"na ağı deyib züy tutur. Amma heç kim fərqində deyil ki, artıq ermənilərin siyasi elitası özlərini Qafqazda ali irqin dayağı və müdafiəçiləri elan etməkdən belə çəkinmir. Müasir erməni faşizmi elə azğınlaşıb ki, ona hətta Hitlerin özünün paxıllığı tutardı. Çünki erməni nasistləri alman faşistlərindən daha qəddar, amansız və təhlükəlidirlər.

İkinci Dünya müharibəsindən sonra faşist Almaniyasının bütün caniləri müttəhimlər kürsüsünə əyləşdirildi, mühakimə olundu və cəzalarını aldılar. Bu ona görə baş verdi ki, İkinci Dünya müharibəsinin ən gərgin vaxtında ikinci cəbhə açıldı və hamı faşist Almaniyasına qarşı bir cəbhədə birləşdi. İndi bizim də qarşımızda duran ən vacib məsələlərdən biri belə bir cəbhənin açılmasıdır. Biz bütün dünyanı Qafqaz müharibəsinə cəlb etmək istəmirik. Sadəcə, Ermənistanın işğalçı dövlət olmasını açıq etiraf edənlərin sayının artmasını və ona qarşı ciddi embarqoların qoyulmasını arzu edirik.

Təəssüf ki, erməni faşizmi böyük güclər tərəfindən artıq bir əsrdir ki, dəstəklənir, himayə edilir. Heç kim onları mühakimə etmir, əksinə, Azərbaycan 30 ildir ki, beynəlxalq hüquqa və əxlaqa sığmayan bir tərzdə işğalçı dövlətlə təhqiramiz kompromislərə sövq olunur. Necə fikirləşirsiniz, bütün bunlardan sonra işğalçı Ermənistan geri çəkiləcəkmi, güzəştlərə gedəcəkmi, sülhə əyiləcəkmi? Əlbəttə ki, yox!

Bu günün reallıqlarına fikir verin: Ermənistanın hərbi texnikasının böyük əksəriyyəti darmadağın edilib, qənimət götürülüb, ordu iflic olub, aclıq, səfalət, ruh düşgünlüyü baş alıb gedir. İşğalçı ordunun əsgərləri səngərləri, hərbi texnikanı, silahları atıb qaçır, işğal olunmuş ərazilər uğrunda döyüşmək və ölmək istəmirlər. Paşinyan isə bununla barışmaq əvəzinə, bütün erməni diasporunu ayağa qaldırır, dünya ictimaiyyətini azdırmağa, Qafqazı qan çanağına çevirməyə, ruslarla türkləri Qarabağda üz-üzə qoymağa çalışır. Çünki belə tapşırıq alıb. Odur ki, müsəlman ölkələrindən, Avropadan sürü ilə muzdluları Qarabağa gətirir və bununla Qafqazda böyük müharibə ocağı yaratmaq istəyir.

İşğalçı dövlət təzadlar içində boğulur: bir tərəfdə xalq müharibənin dayanmasını istəyir, analar uşaqlarının şəksiz ölümə göndərilməsinə etiraz edir, ölkə daxilində narazılıqlar artır, digər tərəfdə isə ağzı isti yerdə olan erməni diasporu Paşinyan rejimi ilə birlikdə münaqişəni qlobal müharibəyə, Qafqazı isə qan çanağına çevirməyə çalışırlar. Dünyaya səpələnən 8 milyondan artıq erməni diasporu Ermənistandakı 1,5 milyonluq erməni xalqını zərrə qədər düşünmür.

Paşinyanın erməni xalqına son müraciətlərini oxuyanda anlayırsan ki, o, artıq siyasi meyitdir. Baş(sız) nazir gah ağır itkiləri və məğlubiyyətini etiraf edir, gah da mifik diplomatik uğurları barədə sayıqlayır. Onun çıxışları Hitlerin 1945-ci il yanvarın 30-da alman xalqına müraciətindən heç nə ilə fərqlənmir. Fürer də çıxışında həm müharibədən əvvəlki 6 ildə qazandığı uğurlardan, müdafiə baxımından alman xalqının mayasını saflaşdırmasından, onun müqavimət ruhunu zənginləşdirməsindən, həm də Şərqdə yüz minlərlə almanın məhv edilməsindən söz salmışdı. Paşinyan İsrailin Azərbaycana silah göndərməsinə diş qıcayır, qeyzlənərək bu ölkədən səfirini geri çağırır, erməni diasporu bu ölkənin əleyhinə etiraz mitinqləri keçirir. Hitler də Almaniyanın başına gələn müsibətlərdə özünü və alman faşizmini yox, "kreml yəhudiləri"ni ittiham etmişdi.

Paşinyan da Hitler kimi işğalçı olduğunu unudaraq Azərbaycanı kompromisə getməməkdə suçlayır və erməni xalqını qorxmamağa, xoşbəxt gələcək uğrunda ölüm-dirim savaşına qalxmağa çağırır: "Azərbaycan Qarabağın dinc (?!) şəhər və kəndlərini atəşə tutub, evləri, infrastrukturu dağıdır, dinc əhali arasında itkilərimiz var".

Hitler 45-ci ilin yanvarında alman xalqını ruhlandırmaq üçün deyirdi ki, biz mətin iradəmizlə indiki böhranı adlayacağıq və indiki dilənçilikdən qurtaracağıq, böyük alman xalqı və üçüncü reyx yenə Şərqə qarşı duran qüdrətli dövlətə çevriləcək. Paşinyan da eyni coşqu ilə ağzı köpüklənərək müharibədən bezən, ona nifrət edən ac və dilənçi xalqını ön cəbhədə Qafqazda "ali irqin yeganə dayağı olan Ermənistan uğrunda" ölməyə çağırır. Ermənilərin baş(sız) naziri kişiləri onun əmrinə tabe olmağa, ordudan qaçmamağa, arvadları isə şalvarını isladıb aradan çıxan ərlərini bağışlamamağa çağırır: "Mən tələb edirəm ki, hər bir Ermənistan vətəndaşı mənim əmrimə tabe olsun. Mən əmr edirəm ki, hər bir kişi indi ayağa qalxsın və öz hərbi komissarlığına getsin. Bu, mənim əmrimdir. Qadınları həvəsləndirin. Qoy, özləri dəstələr yaratsınlar. Bu, minillik müharibədir". Vallah, adam bu sözləri oxuyur və ixtiyarsız fikirləşir ki, heç Hitler də belə qələt etməmişdi. İstənilən psixiatr belə qarışıq fikirlərə və "miniilik müharibə" ifadəsinə görə Nikolu ömürlük ruhi xəstəxanaya atardı.

"Cəmiyyətimizdə döyüş meydanından qaçanların ciddi töhmət almaları üçün əhvali-ruhiyyə olmalıdır", - deyən Paşinyan da Hitler kimi dilxordur. Erməni füreri görəsən anlayırmı ki, sülhə can atan ermənilər ona da nifrət edirlər, erməni diasporuna da. Nikol özünü Hitler kimi cırır, bütün dünya ermənilərini Dağlıq Qarabağa ölməyə çağırır. Bu, ermənilərin sonuncu "miatsum" çığırtılarıdır.

Bu çaqqal ulamasının, əslində, yüz ildən artıq tarixi var. Nə olsun ki? Yüz illik "miatsum" çağırışlarına hay verən hayların sayı nə qədər artıb? Qarabağ münaqişəsindən əvvəl Ermənistanda əhalinin sayı 3 milyondan artıq idi. İndi bu rəqəm iki dəfədən çox aşağı düşüb. Siz necə "dənizdən dənizə böyük Ermənistan" ideyası uğrunda vurusursunuz ki, artmaq əvəzinə azalırsınız? Heç kim "böyük Ermənistan" ideyası uğrunda ölmək istəmir. Faşistlər, muzdlular və terroristlərlə isə böyük dövlət qurmaq mümkün deyil. Ermənistan və onun işğalçı ordusu bu gün erməni tarixinin məğlubiyyətinin ən qara səhifələrini yazır. Cinayətkarın cəzasız qalması mümkün deyil!

Belə çıxır ki, "böyük Ermənistan" ideyasının erməni xalqına heç bir aidiyyəti yoxdur. Bu ideya mahiyyət etibarı ilə regionda münaqişələri əbədiyyətə kimi uzatmaq istəyən qüvvələrin layihəsidir. Məhz onlar erməni faşizmini dəstəkləyir, onun törətdiyi cinayətlərə göz yumurlar. Məqsəd erməniləri dəstəkləmək deyil, qeyd etdiyimiz kimi, dünyaya qarışqa kimi səpələnən erməni diasporu vasitəsi ilə böyük gücləri toqquşdurmaqdır ki, ona da heç vaxt nail olmayacaqlar.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Sumqayıtda karantin qaydalarına əməl olunmasını təmin etmək üçün reydlər keçirilir





Paytaxt Bakı ilə yanaşı, Sumqayıt şəhərində də polis əməkdaşları tərəfindən koronavirus pandemiyasının yayılmasının qarşısının alınması, elan edilən xüsusi karantin rejimi qaydalarına riayət olunması məqsədilə gündəlik olaraq gücləndirilmiş nəzarət profilaktik-maarifləndirmə tədbirləri həyata keçirilir.

Daxili İşlər Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşlarından təşkil edilən mobil qruplar vasitəsilə şəhərin hər bir küçə və prospektində yerləşən obyektlərdə sosial məsafəni gözləməyən, tənəffüs yollarını qoruyan fərdi vasitələrdən, yəni maskalardan istifadə etməyən şəxslər qanunvericiliyə uyğun olaraq inzibati məsuliyyətə cəlb olunublar.

Reydlər zamanı mağazalara maskasız daxil olan alıcılar və buna biganə qalan obyekt əməkdaşları polislər tərəfindən müəyyən edilərək qanunvericiliyə uyğun şəkildə cərimələniblər. Tədbir zamanı polislər tərəfindən sahibkarlar, eləcə də alıcıların diqqətinə sanitar-karantin qaydalarına ciddi əməl etməklə fəaliyyət göstərməyin vacibliyi çatdırılıb.

Reyd zamanı həmçinin ictimai nəqliyyat vasitələrində maskadan istifadə etməyən sərnişinlər və sürücülər də Sumqayıt Şəhər Dövlət Yol Polisinin əməkdaşları tərəfindən müəyyən edilərək cərimələniblər. Belə hallara yol verən avtobus sürücüləri barəsində ciddi tədbirlər görülüb. Tibbi maskadan istifadə etməyən sərnişinlər avtobuslardan düşürülüb.

Həmçinin taksilərdə sərnişinlərlə sürücülər arasında quraşdırılmalı olan şəffaf arakəsmələrdən istifadə etməyən şəxslər də cərimə ediliblər.

Tədbirlər çərçivəsində polis əməkdaşları tərəfindən Sumqayıt şəhər sakinləri ilə fərdi profilaktik söhbətlər aparılıb, onlara pandemiya ilə mübarizənin vacibliyi və qanunun tələbləri izah olunub.

Bir daha vətəndaşlarımızdan xahiş olunur ki, koronavirusun daha geniş miqyasda yayılmasına imkan verməmək üçün karantin qaydalarına əməl etsinlər.



# Koronavirusa 1227 nəfər yoluxub, 667 nəfər isə sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 1227 yoluxma faktı qeydə alınıb, 667 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 12 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 59 min 509 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 45 min 697 nəfər müalicə olunaraq sağalıb, 780 nəfər vəfat edib. Aktiv xəstə sayı 13032 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 391 min 253 test aparılıb. Dünənki test sayı isə 11474-dür.

# Erməni məmurlar fərarilik edirlər

*Əvvəli 1-ci səh.*

### 9 vəzifəli şəxs barəsində cinayət işi açılıb

Xatırladaq ki, cəbhənin Xocavənd istiqamətində gedən döyüşlərə cəlb edilən Ermənistan silahlı qüvvələrinin 2-ci motoatıcı alayına vurulan atəş zərbəsi ilə xeyli sayda şəxsi heyət məhv edilib və döyüş texnikası sıradan çıxarılıb. Həmçinin alay komandirinin fərarilik edərək qaçdığı və D-20 artilleriya divizionunun hərbi qulluqçularının itkin düşdüyü də məlum olub.

Bu günlərdə Qarabağ separatçılarının lideri Arayik Arutyunyanın adından yayılan açıqlamada səfərbərliyə alınan, lakin döyüş əməliyyatlarında iştirakdan yayınan bütün məmurların işdən çıxarılacağı və məsuliyyətə cəlb olunacağı da deyilib.

"4rd.am" saytı isə yazır ki, müharibədə iştirak etməmək üçün Qarabağdan qaçan "Dağlıq Qarabağ Respublikasının" 9 yüksəkrütbəli məmuru artıq vəzifələrindən azad edilib və onlara cinayət işi açılıb. Bunlar "Prezidentin köməkçisi" Rudik Martirosyan, "Baş prokurorun müavini" Eric Verdian və Sasun Gabrielyan, "Dövlət şurasının üzvü" Armen Soghomonyan, "Mərkəzi Seçki Komissiyasının üzvü" Yegişe Arzumanyan, "Əmək, Sosial və Mənzil İşləri nazirinin birinci müavini" Arkadi Sogomonyan, "Şəhərsalma nazirinin müavini" David Avanesyan, "Təhsil, Elm və Mədəniyyət Nazirliyinin Aparatının rəhbəri" Erik Grigoryan, "Dövlət Gəlirləri Komitəsinin başçısı" vəzifəsini icra edən Gagik Ayrapetyan və "Prezident Aparatının işlər idarəsinin rəis müavinin köməkçisi" Artak Arustamyandır.

### İşğalçı ölkədə itkilərlə bağlı statistika gizlədilir

Ermənistan hakimiyyəti üçün daha bir ciddi problem cəbhədə öldürülmüş hərbi qulluqçuların valideynlərinin dövlət qurumlarının qarşısında mütəmadi olaraq keçirdikləri aksiyalardır. Döyüş şəraitində ölən əsgərlərin valideynləri etiraz aksiyasında övladlarının ölümünə görə hakimiyyəti ittiham edirlər. Müharibə şəraitində Ermənistan ordusunda korrupsiya və özbaşınalıq da yüksək templə artır. Bu problemlərdən isə daha çox cəmiyyətin yoxsul təbəqəsi əziyyət çəkir.

Bu arada Ermənistan mətbuatı Qarabağdakı itkilərlə bağlı statistikanın gizlədilməsini gündəmə gətirib. Belə ki, "Qraparak" qəzeti döyüşdə ölənlərin sayının niyə açıqlanmamasını araşdırıb. Qəzet yazır ki, dördgünlük susqunluqdan sonra Müdafiə Nazirliyi dünən döyüşlərdə ölən daha 11 hərbçinin adını açıqlayıb: "Ancaq bu barədə məlumat verilməzdən əvvəl nazirliyə sorğu göndərdik ki, son dörd gün ərzində erməni tərəfi heç bir qurban verməyibmi? İtkilərlə bağlı məlumatların dörd gündə verilməməsinin səbəbi nədir? Müdafiə Nazirliyinin mətbuat katibi Şuşan Stepanyan "Kimliklərin müəyyənləşdirilməsi problemi var" dedi".

Nəşr onu da yazır ki, naməlum cəsədlər daha çoxdur: "Məsələ burasındadır ki, sosial şəbəkələrdə ermənilər arasında ümidsizlik yaratmamaq üçün öldürülən əsgərlər haqqında gündəlik məlumatlar verməmək barədə aktiv müzakirələr aparılır. Xatırladaq ki, rəsmi qaydada 1172 ölmüş hərbçinin adı açıqlanıb. Ortada hələ naməlum cəsədlər var, hazırda onlarla əlaqəli şəxsiyyətin müəyyənləşdirilməsi işləri aparılır".

### "Hanı silah? Hanı ərzaq? Hanı büdcə?"

Ermənistanda müxalif "Çiçəklənən Ermənistan" partiyasından deputat Gevorg Petrosyan qondarma "dqr müdafiə naziri" general-leytenant Calal Arutyunyanın "yüngül yaralandığı" barədə deyilənlərə inanmadığını bildirib. Deputat "Facebook" səhifəsində məntiqli sualla çıxış edib: "Əgər Calal Arutyunyanın rəsmi versiyada deyildiyi kimi, yarası yüngül idisə və həyati təhlükəsi yox idisə nəyə görə onu dərhal vəzifəsindən azad ediblər? Orada nəsə təmiz deyil, həqiqət gizlədilir və xalq yenə də reallıqdan təcrid olunur".

Xatırladaq ki, ötən həftə Azərbaycan Ordusu general Calal Arutyunyanın xidməti avtomobilini müəyyən edib və pilotsuz təyyarələrlə onu təqib etməyə başlayıb. Arutyunyan bir neçə hərbi avtomobilin müşayiəti ilə Xocavənd istiqamətində hərəkət edəndə onun avtomobilinə Azərbaycanın pilotsuz təyyarəsi raket zərbəsi endirib və yanındakılarla birlikdə məhv edib. Qondarma rejim isə onun "yüngül yaralandığını" bildirərək dərhal vəzifəsindən azad edilib, yerinə Mikael Karapetyanı gətirib.

Yerli medianın yazdığına görə, Ermənistan hakimiyyəti bütün vasitələrdən istifadə edərək ordudakı neqativ halları və ölüm faktlarını gizlədir. Qadağalara baxmayaraq, sosial şəbəkələrdə və açıq mənbələrdə yayılan məlumatların təhlili göstərir ki, bu gün Ermənistan ordusunda vəziyyət təsəvvür edildiyindən də qat-qat ağırdır.

G.Petrosyan parlamentdə büdcə müzakirəsi zamanı həm də Paşinyanı sərt tənqid edib: "Oğlum 20 gündür ki, cəbhədədir. Ondan nə səs var, nə soraq. Paşinyan populist çıxışlara son qoymalıdır. Savaş başlayanda o, şou göstərirdi, qadın batalyonu yaradırdı, deyirdi ki, bütün məmurlar cəbhəyə gedəcək. Nə oldu bəs? Nikol deyir, cəbhəyə gedən özü ilə forma götürsün. Bəs hanı forma? Hanı silah? Hanı ərzaq? Hanı büdcə?"

Bütün bunlar Ermənistan ordusunda hansı vəziyyətin hökm sürdüyünü göstərməklə yanaşı, bu ölkədə vəziyyətin gündən-günə daha da gərginləşdiyini təsdiq edir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# "ASAN Məktub" sosial proqramı çərçivəsində astaralı şagirdlərə və müəllimlərə kompüterlər hədiyyə edilib

Noyabrın 4-də "ASAN Könüllüləri" Təşkilatının "ASAN Məktub" sosial proqramı çərçivəsində Astara rayonunun Qapıçıməhəllə kəndindəki şəhid Əzizağa Əliyev adına kənd ümumi orta məktəbinin şagird və müəllimlərinə kompüterlər hədiyyə edilib.

AZƏRTAC xəbər verir ki, proqram çərçivəsində "ASAN Könüllüləri" Təşkilatı və İTSOL MMC-nin birgə təşəbbüsü və təşkilatçılığı, Təhsil Nazirliyinin tərəfdaşlığı ilə Qapıçıməhəllə kənd ümumi orta məktəbinə 33 ədəd "Lenovo" kompüteri təqdim olunub.

Kənddə yaşayan uşaqların informasiya resurslarına çıxışı və texnoloji savadlılığı, həmçinin onlayn təhsilə dəstək məqsədilə kompüterlərdən 5-i şagird və müəllimlərin istifadəsi üçün məktəbə, 28-i isə məktəbin V-IX sinif şagirdlərinə hədiyyə edilib.

Qeyd edək ki, 2019-cu ilin dekabr ayında Qapıçıməhəllə kənd ümumi orta məktəbi üçün 96 şagird yerlik modul tipli yeni məktəb binası quraşdırılaraq istifadəyə verilib. Məktəbin tarix müəllimi Həbib Əlizadə Təhsil Nazirliyinin qrant müsabiqəsinin qalibi kimi məktəbdə Voltram Robottexnika Mərkəzi yaradıb. Mərkəzin üzvlərindən 4 şagird Bakıda təşkil edilmiş "STEAM" sərgisində 2 qızıl və 2 gümüş medal qazanıb.

# Azərbaycan diasporu Ordumuza və mülki əhaliyə yardım göndərir

Şanlı Ordumuzun maddi-texniki və digər təchizatının yüksək səviyyədə təmin olunmasına baxmayaraq, xaricdə yaşayan azərbaycanlılar, diaspor təşkilatları Silahlı Qüvvələrimizə və mülki əhalimizə dəstəyi özlərinə mənəvi borc hesab edir, bu istiqamətdə əllərindən gələni əsirgəmirlər.






Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, Almaniya Federativ Respublikasında yaşayan azərbaycanlı həkimlər və ayrı-ayrı diaspor üzvləri hərbi geyim və tibbi ləvazimatları, Türkiyədəki Gənc Azərbaycanlılar Dərnəyinin təşkilatçılığı ilə bu ölkədə yaşayan, işləyən və təhsil alan azərbaycanlılar müxtəlif zəruri məhsullardan ibarət 2,3 ton humanitar yardımı, Ukrayna Azərbaycanlıları Konqresi 10 ədəd əlil arabasını Komitəyə göndəriblər.

Bundan başqa, Rusiya Federasiyasında fəaliyyət göstərən "Azərbaycan-Ural" Sverdlovsk Azərbaycanlılarının İctimai Təşkilatı bu diyarda yaşayan azərbaycanlıların adından 2 ədəd Dermatom cərrahi aparatını və onun əlavə ehtiyat hissələrindən ibarət dəsti Komitəyə çatdırıb.

Bununla yanaşı, müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar şəhid ailələrinə yardım və digər məqsədlər üçün Azərbaycan Diasporuna Dəstək Fonduna yüz minlərlə manat ianə köçürüblər.

Diasporla İş üzrə Dövlət Komitəsi xaricdə yaşayan soydaşlarımızdan gələn yardımların ehtiyacı olan insanlara çatdırılması üçün aidiyyəti qurumlara təhvil verib.

Azərbaycan diasporunun Ordumuza, cəbhəyanı zonada yaşayan mülki əhaliyə, erməni terrorundan zərər çəkənlərə yardımları davam edir və Komitəyə hər gün bu məqsədlə yüzlərlə müraciət daxil olur.

# Beynəlxalq aləm

## Los-Ancelesdə etirazlarda 40 nəfər saxlanılıb



ABŞ-da keçirilən prezident seçkilərindən sonra Los-Ancelesdə polis 40-a yaxın etirazçını saxlayıb. Bu barədə şəhər Polis İdarəsinin mətbuat xidmətindən məlumat verilib.

Hüquq mühafizə orqanları əlavə ediblər ki, protokol tərtib edildikdən sonra tutulanlar xəbərdarlıq edilərək azad olunublar.

Prezident seçkilərindən sonra baş verə biləcək iğtişaş təhlükəsinə görə Vaşinqtonda Ağ Ev ətrafında 2,5 m hündürlüyündə müvəqqəti hasar ucaldılıb.

## ABŞ Paris İqlim razılaşmasını rəsmən tərk edir



Amerika Birləşmiş Ştatları Paris İqlim razılaşmasında iştirakını rəsmən dayandırır.

Bu qərar haqqında ABŞ Prezidenti Donald Tramp BMT-yə bir il əvvəl məlumat versə də, prosedura əsasən, sazişdən çıxışın başa çatması üçün uzun müddət tələb olunub.

ABŞ 189 dövlətin imzaladığı razılaşmadan imtina edən ilk ölkədir və eyni zamanda dünyada tullantıların həcminə görə ikincidir.

Qeyd edək ki, demokratlardan ABŞ prezidentliyinə namizəd Co Bayden prezident seçkilərində qələbə qazanacağı halda ölkəni dərhal sazişə qaytaracağını vəd edib.

## Talant Mamıtov Qırğızıstan parlamentinin sədri seçilib



Dünən Qırğızıstan parlamentində sədr dəyişikliyi baş verib. Bu barədə TASS Agentliyi xəbər verir.

Məlumata görə, Talant Mamıtov Qırğızıstan parlamentinin sədri seçilib . Qeyd olunur ki, "Respublika - Ata Yurd" fraksiyasından olan deputat spiker vəzifəsinə alternativsiz yiyələnib.

Xatırladaq ki, Mamıtovun sələfi Kanat İsayev istefa vermişdi. O, "Qırğızıstan" Partiyasından prezident seçkilərində iştirak etmək qərarına gəlib.

Dövlət başçısı seçkiləri yanvarın 10-da keçiriləcək.

# Döyüş zonasından video yayanlarla bağlı cinayət işi başlanılıb

Ermənistan silahlı qüvvələrinin 2020-ci il sentyabrın 27-dən davam edən hərbi təxribatlarına qarşı Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müvəffəqiyyətlə apardığı əks-hücum əməliyyatları nəticəsində bir neçə rayon, eləcə də strateji əhəmiyyətli ərazilər işğaldan azad edilib.

Dövlət Təhlükəsizliyi Xidmətinin İctimai əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, aidiyyəti dövlət orqanlarının həyata keçirdiyi dövlət sirrinin mühafizəsi tədbirlərinə zidd olaraq və müvafiq xəbərdarlıqlara baxmayaraq, döyüş əməliyyatları aparılan ərazilərdə bir sıra şəxslər tərəfindən mobil telefon aparatlarının texniki imkanlarından istifadə etməklə icazəsiz videoçəkilişlər edilib, Azərbaycan qoşunlarının strateji və əməliyyat planları, dislokasiyası və yerdəyişmələri, şəxsi heyəti, silah və hərbi texnikaları, digər döyüş təminatı, əməliyyat şəraiti barədə məlumatları əldə etməyə imkan verən müxtəlif videomateriallar yayılıb. Qeyd olunan videogörüntülər düşmən ordusu tərəfindən Azərbaycan Respublikasının qoşun hissələrinin qüvvə və mövqeləri barədə informasiyanın əldə edilməsi, həmçinin kəşfiyyat-təxribat fəaliyyətinin həyata keçirilməsi məqsədləri üçün istifadə olunub.

Aşkar edilmiş faktlar üzrə Dövlət Təhlükəsizliyi Xidmətində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 284-cü (dövlət sirrini yayma) maddəsi ilə cinayət işi başlanılıb, hazırda həmin şəxslərin cinayət əməlləri ilə bağlı istintaq aparılır.

Bir daha vətəndaşlara fəal döyüş zonasından icazəsiz videoçəkilişlərin aparılmasının və yayılmasının cinayət məsuliyyətinə səbəb olduğu barədə xəbərdarlıq edilir, Azərbaycan əsgərinin həyatına təhlükə yaradan bütün davranışlardan çəkinməyə çağırılır.

# 13 kiloqramdan çox narkotik vasitənin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə keçirilməsinin qarşısı alınıb

Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində son dövrdə 13 kiloqram 927 qram narkotik vasitəyə və 1334 ədəd psixotrop maddəyə bənzər həbin dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə qanunsuz keçirilməsinin qarşısı alınıb.



DSX-nin Mətbuat mərkəzindən bildiriblər ki, "Lənkəran" sərhəd dəstəsinin xidməti ərazisində Astara rayonunun Alaşa kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində İran İslam Respublikasından Azərbaycan Respublikası istiqamətində hərəkət edən, sərhəd naryadının "dayan" əmrinə tabe olmayaraq ərazinin sıx qamışlıq və meşəlik olmasından istifadə edərək geriyə qaçan sərhəd pozucusu tərəfindən atılmış bağlamada ümumi çəkisi 3 kiloqram 853 qram narkotik vasitə olan heroin və 762 ədəd metadon-40 həbi aşkarlanaraq götürülüb.

Təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində ərazidə hərəkətdə olan və hadisə yerindən uzaqlaşmağa çalışan "Mercedes" markalı 44-CB-402 dövlət nömrə nişanlı avtonəqliyyatda Astara rayon sakinləri 1986-cı il təvəllüdlü İsgəndərov İsgəndər Cabir oğlu və 1987-ci il təvəllüdlü İsgəndərov Elnur Cabir oğlu saxlanılıb, araşdırma zamanı E.İsgəndərov törətdiyi cinayət əməlini etiraf edərək əraziyə narkotik vasitə götürməyə gəldiyini bildirib.

Fakt üzrə cinayət işi başlanılıb, E.İsgəndərov təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində həbs qətimkan tədbiri seçilib.

"Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun Əmirzeyitli, "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində Cəlilabad rayonunun Sərxanlı və Yardımlı rayonunun Arus kəndlərinin yaxınlığında yerləşən sərhəd zastavalarında dövlət sərhədinin gücləndirilmiş mühafizəsi üzrə qoşun və əməliyyat-axtarış tədbirləri nəticəsində sərhədboyu ərazidə 3 ədəd sahibsiz halda bağlamalar aşkarlanıb, baxış zamanı ümumi çəkisi təxminən 10 kiloqram 74 qram narkotik vasitəyə və 572 ədəd psixotrop həbə oxşar maddələr götürülüb.

Həmin faktlar üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

***"Azərbaycan"***

## BİLDİRİŞ

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən ilin sonunadək Aparatın fasad örtüyünün və şüşələrin 1 dəfə yuyulması məqsədilə keçirilmiş kotirovka sorğusunda iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "Azərtəmizlik" MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin Radio-Televiziya Yayımı və Peyk Rabitəsi İstehsalat Birliyi *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir:

LOT - 1. **Teleqüllə kompleksinin enerji təchizatının yanmayan kabellərlə əvəz olunmaqla rekonstruksiyası, regionlarda stansiyaları enerji ilə təmin edən elektrik veriliş xətlərinin, daxili elektrik təsərrüfatının əsaslı təmiri, dizel generatorlarının alınıb quraşdırılması işlərinin satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://etender.gov.az/** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba "ASAN Pay" vasitəsilə köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**Əlaqə telefonu: (mobil): (055) 400-95-07; (şəhər): (012) 498-77-80**
**Əlaqələndirici şəxs: Zöhrə Əfəndiyeva**
**Elektron poçt: info@teleradio.az**
**İştirak haqqı: LOT 1 üzrə 300 (üç yüz) manat**
**Rekvizitlər:**
**Hesab №: AZ29AZPO91015461200420100081**
**VÖEN: 9900037841**
**Bank: "Azərpoçt" MMC PF1**
**Kodu: 691011**
**VÖEN: 9900037711**
**M/H: AZ76NABZ01350100000000094944**
**SWIFT: AZPOAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində olan bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müəyyən etdiyi digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **26 noyabr 2020-ci il saat 10:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **04 dekabr 2020-ci il saat 18:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **07 dekabr 2020-ci il saat 10:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi *açıq tenderə dəvət edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi Agentliyin aparatı və tabeli müəssisələri üçün mebel və sair inventarların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi**
**VÖEN: 1003853391**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**KOD: 210005**
**MÜXBİR HESABI: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**SWIFT BIK CTREAZ22**
**H/HESABI: AZ41CTRE00000000000002947601**
**Büdcə gəlirlərinin təsnifat kodu - 142330**
**Büdcə səviyyəsinin kodu - 7**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (05.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (05.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
9. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
10. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **27.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **07.12.2020-ci il saat 18:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **08.12.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi *açıq tenderə dəvət edir*

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi sosial xidmətçilər üçün uniformaların satın alınması üzrə açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 100 (bir yüz) manat**
**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində "Sosial Xidmətlər Agentliyi" Publik Hüquqi Şəxsi**
**H.Hesabı: AZ88IBAZ38060019447403110206**
**VÖEN-i: 1405196831**
**Bank: Azərbaycan Beynəlxalq Bankının Nərimanov filialı**
**Kodu: 805540**
**VÖEN-i: 9900001881**
**Müxbir hesabı: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T BIK: IBAZAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (31.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış vergi arayışı qəbul ediləcəkdir);*
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (2019-cu il üzrə);*
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (31.09.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir);*
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
9. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
10. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
11. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **26.11.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **04.12.2020-ci il saat 15:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **07.12.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

***Tender komissiyası***

## BİLDİRİŞ

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən dərman, sarğı ləvazimatlarının və materiallarının satın alınması üçün elan edilmiş kotirovka sorğusunda "Solamedical" MMC qalib olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 22 sentyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalında **(https://www.etender.gov.az)** Azərbaycan Respublikasının Dövlət Neft Fondu tərəfindən keçirilən elektron satınalmada (eTender) Dezinfeksiya xidmətlərinin, dispenserlərin və dezinfeksiya məhlulunun satın alınması üzrə "Sanitariya Epidemioloji Xidmətlər" MMC qalib olmuşdur.

Qalib şirkətlə 03 noyabr 2020-ci ildə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləçəkdir.

**LOT 1-Avadanlıqların alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını Portal vasitəsilə göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, alınmış mallara zəmanətin verilməsi, iddiaçının dövriyyəsi nəzərə alınmaqla.

**Azərbaycan Beynəlxalq Bank ("ASAN ödəniş" ilə Portal vasitəsilə ödəniş olunmalıdır)**

**Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi**
**Hesab: AZ71CTRE00000000000002318501**
**VÖEN: 1700332731**
**Fond-7**
**Kitab nömrəsi-002306-2318501**
**Funksional təsnifat-00113**
**İqtisadi təsnifat-142330 (sair daxilolmalar)**
**İştirak haqqı - 100 manat**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Bütün iddiaçılar prosedurda iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri Portal vasitəsilə **30.11.2020-ci il saat 12:00-a** kimi təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *iddiaçının işləri yerinə yetirmək üçün potensial imkanları və maddi-texniki bazası haqqında yazılı məlumat;*
- *tender təklifi sənədi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisasa dair sənədlərini **30.11.2020-ci il saat 12:00-a** kimi və tender təklifi ilə bank təminatı sənədlərini **08 dekabr 2020-ci il saat 16:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **09 dekabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 1 saylı Bakı DOST Mərkəzinin inzibati binasının şüşə və fasad örtüyünün il ərzində 4 dəfə yuyulması işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 30 oktyabr 2020-ci il qərarına əsasən, "Clean House Cleaning Service" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzinin inzibati binasının şüşə və fasad örtüyünün il ərzində 4 dəfə yuyulması işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 30 oktyabr 2020-ci il qərarına əsasən, "Emin və Eynulla" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 3 saylı Bakı DOST Mərkəzinin inzibati binasının şüşə və fasad örtüyünün il ərzində 4 dəfə yuyulması işlərinin satın alınması məqsədilə elan edilən kotirovka sorğusunda iştirak edən iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 30 oktyabr 2020-ci il qərarına əsasən, "Emin və Eynulla" MMC qalib elan edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi "Hədəf əsaslı fəaliyyətin idarə edilməsi sisteminin qurulması" ilə bağlı xidmətin satın alınması məqsədilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ -** dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 1200 AZN**

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba ödəməlidirlər:

**Təşkilatın adı: Azərbaycan Respublikasının Kiçik və Orta Biznesin İnkişafı Agentliyi**
**VÖEN: 1603326271**
**Bank rekvizitləri: "Kapital Bank" ASC-nin Mərkəzi filialı**
**H/h: AZ16AIIB38060029440419716102**
**VÖEN: 9900003611**
**Kod: 200026**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T. AIIBAZ2X**
**Büdcə təsnifatının kodu: 142340**

Tenderdə iştirak haqqı heç bir halda geri qaytarılmır. Tenderdə iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adını, hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) notarial qaydada təsdiq edilmiş surətləri;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin qüvvədə olma müddətindən azı 30 bank günü çox olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **01.12.2020-ci il saat 16:00-a** qədər və tender təklifi ilə bağlı bank təminatı sənədlərini **09.12.2020-ci il saat 16:00-dək** Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **10.12.2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar nəticələrlə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. İddiaçılar E-şərtlər toplusunu 05.11.2020-ci il saat 16:00-dan sonra (elan tarixi günü) əldə edə bilərlər.*

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

## B İ L D İ R İ Ş

"Azərişıq"ASC-nin Tender komissiyası tərəfindən 02.10.2020-ci il tarixdə **"ASAN xidmət" mərkəzlərinin "Azərişıq" ASC-yə aid olan layihələrə tələb olunan müxtəlif mal-materialların satın alınması** məqsədilə elan edilmiş açıq tenderin nəticələri Əsas şərtlər toplusunun formal tələblərinə uyğun gəlmədiyi üçün Tender komissiyasının qərarı ilə ləğv olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu tərəfindən regionlardan Bakı şəhərinə yük daşınması məqsədilə keçirilmiş kotirovka sorğusu üzrə daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. Qiymətləndirmənin nəticəsində "Azcargo Logistics and Management Services" MMC qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## Sumqayıt Şəhər İcra Hakimiyyəti 2020-ci ildə "Dəftərxana və təsərrüfat xərcləri" maddəsi üzrə bütün növ dəftərxana və təsərrüfat mallarının satın alınması məqsədilə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcəkdir. Tender iştirakçılarına təklif olunur ki, **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: 130 manat**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**Kod: 210005**
**VÖEN: 1401555071**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T CTREAZ22**
**Təşkilat: Sumqayıt Şəhər İcra Hakimiyyəti**
**Hesab №: AZ14CTRE00000000000002516631**
**Büdcə səviyyəsinin kodu - 7y İqtisadi təsnifat - 142330**
**VÖEN: 2900054881**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 (bir) faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında büdcə, bank, sosial sığorta və vergi öhdəliklərinin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) **07 dekabr 2020-ci il saat 15:00-a** qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə **15 dekabr 2020-ci il saat 17:00-a** qədər Portala təqdim etməlidirlər.

İddiaçıların təklifləri **16 dekabr 2020-ci il saat 15:00-da** Portalda açılacaqdır.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 14.07.2020-ci il tarixdə vahid satınalma Portalında "150 sayda Radio rele avadanlığının satın alınması" məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunun nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 16.10.2020-ci il tarixli AİBNDX-15/01-5/4325P saylı məktubuna əsasən ləğv olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 10.06.2020-ci il tarixdə vahid satınalma Portalında "Təmizlik işləri üçün təsərrüfat mallarının satın alınması" məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunun nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 29.09.2020-ci il tarixli AİBNDX-15/01-5/897S saylı məktubuna əsasən ləğv olunur.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

"Aztelekom" MMC tərəfindən 05.05.2020-ci il tarixdə vahid satınalma Portalında "Aztelekom" MMC-nin inzibati binasında və struktur bölmələri, o cümlədən kənd EATS-nin cari təmir-tikinti işlərinin satın alınması" məqsədilə elan olunmuş açıq tender üsulu ilə satınalma prosedurunun nəticələri Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 30.09.2020-ci il tarixli AİBNDX-15/01-5/3760P saylı məktubuna əsasən ləğv olunur.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

"Aqrarkredit" Səhmdar Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Nigar Rəsulbəyovaya anası

**TAMİLLA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Nigar Rəsulbəyovaya anası

**TAMİLLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Mətanət A" şirkətinin Müşahidə Şurasının sədri Elxan Başirov Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi Nigar Rəsulbəyovaya anası

**TAMİLLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 7410
Sifariş 2580
Qiyməti 40 qəpik